Xalqın qəzeti!

# Xalq qəzeti

№ 58 (31027) 8 aprel 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Macarıstan Arazqırağının dirçəlişinə qoşuldu

*Dost ölkə Cəbrayılın Soltanlı kəndinin bərpasına 30 milyon dollar ayırıb*



Macarıstan rəhbərliyinin Cəbrayıl rayonunun Soltanlı kəndinin bərpası məqsədilə 30 milyon dollar məbləğində qrant ayırması strateji əhəmiyyət daşıyan hadisədir. Təsdiqlənmiş rəsmi sənəd, həmçinin qlobal güc mərkəzlərinin Qarabağ, eləcə də Şərqi Zəngəzur istiqamətində yürütdüyü xarici siyasətin göstəricisidir. Rəsmi Budapeştin bilavasitə Cəbrayıl ərazisində reallaşdıracağı layihələr Cənubi Qafqazda formalaşan yeni təhlükəsizlik arxitekturasının beynəlxalq miqyasda təsdiqləndiyini sübuta yetirir.

*(ardı 4-cü səhifədə)*

## Məğlub ölkəyə nicat gətirəcək sülh sınağı



Səhifə ⇨ 5

## İrəvanın “üçüncü ölkə” arzusu puç olur



Səhifə ⇨ 6

## Azərbaycan qlobal urbanizasiyanın yeni ünvanıdır




Səhifə ⇨ 7

# Azərbaycan – Türkiyə qardaşlığı və strateji müttəfiqliyi dünya üçün nümunədir

## Prezident İlham Əliyev Türkiyə Ali Məhkəməsinin Baş prokurorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkü qəbul edib.**

Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru qəbula görə minnətdarlığını bildirərək, dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduqlarını dedi.

Muhsin Şentürk Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin bütün sahələrdə uğurlu inkişafı məmnunluqla vurğulandı, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələrin olmadığı qeyd edildi.

Görüşdə ölkələrimizin prokurorluq orqanları arasında uğurlu əlaqələrin qurulduğu bildirildi, bu xüsusda Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən səmərəli əməkdaşlığa toxunuldu, təcrübə mübadiləsinin genişləndirilməsinin önəmi vurğulandı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Prezident İlham Əliyevin çağırışı: Cənubi Qafqaz və sülh

## *Hansı imkanlar əldən verilməməlidir?*



**Prezident İlham Əliyev Gürcüstana dövlət səfəri gedişində bir sıra vacib bəyanatlar səsləndirdi. Dövlətimizin başçısının dilə gətirdiyi fikirlərdən gəlinən qənaət budur ki, Azərbaycan Cənubi Qafqaz siyasi platformasında sülhü və sabitliyi əsas götürür. Ən başlıcası isə ölkəmiz sülh naminə regionun bütün dövlətlərinin səfərbərliyi amilini qabardır.**

Bəli, Prezident İlham Əliyevin vurğuladığı müstəsna məqam odur ki, Azərbaycanla Ermənistan arasındakı sülh prosesini gücləndirmək üçün imzalanmış sənədlər yetərli deyil. Bu fikrə bir neçə cəhətdən yanaşmaq mümkündür.

Birincisi, dövlətimizin başçısı niyyət və məramın vacibliyini vurğulayır. Elə bir niyyət və məram ki, dövlətlərarası münasibətlərdə dinamizm yaratsın, qarşılıqlı təmasların, yaxud yazılı sənədlərin özündəki nüansları, mümkün problemləri aradan qaldırmaq potensialını daşıyan mexanizmə söykənsin.

*(ardı 3-cü səhifədə)*

## Yaxın Şərqdə düyün “boğaz”a dirənib



Səhifə ⇨ 15

## Qlobal təhlükəsizlik sistemi sınağa çəkilir



Səhifə ⇨ 15

## Bakı tıxac bəlasından xilas olacaqmı?



Səhifə ⇨ 8

# Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş şəxslərin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri igidliyə görə aşağıdakı şəxslər təltif edilsinlər:

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Məmmədov Azər Kərəm oğlu – polkovnik-leytenant

### "Vətən uğrunda" medalı ilə

Babayev Elmar Elxan oğlu – mayor
İsmayılov Nicat Əbülfəz oğlu – mayor
Quliyev Rüfət Qüdrət oğlu – mayor
Mədətov Fərid Fikrət oğlu – mayor
Babazadə Vaqif Elçin oğlu – kapitan
Səmədov Mədət Fərzulla oğlu – kapitan
İbrahimov Vüsal Cümşüd oğlu – baş leytenant
Ağabalayev Vazeh Xanbala oğlu – leytenant
Ağayev Yaşar Təvəkkül oğlu – ehtiyatda olan baş miçman
Əmranov Rəşad Murtuzəli oğlu – ehtiyatda olan baş miçman
İmamverdiyev Aqil Əzim oğlu – gizir
Novruzlu Səbuhi Rövşən oğlu – çavuş

### "İgidliyə görə" medalı ilə

Quliyev Şəhriyar İlqar oğlu – polkovnik-leytenant
Quliyev Elnur Əlifağa oğlu – mayor
Mirzəyev Hikmət Elçin oğlu – mayor
Əhmədov Emin Seymur oğlu – leytenant
İbrahimli Tacəddin Əmirullah oğlu – gizir
İsmayılov Oqtay Şahsuvar oğlu – gizir
Quliyev Vaqif İbrahim oğlu – gizir

### "Hərbi xidmətlərə görə" medalı ilə

Daşdəmirov Vilayət Allahyar oğlu – mayor
Muradov Zaman Muqabil oğlu – mayor
Alxasov Taleh Aydın oğlu – kapitan
Salmanov Tərlan Babək oğlu – kapitan
Abdullayev Rövşən Əhədulla oğlu – gizir
Ağayev Şəmsəddin Əsədulla oğlu – gizir
Babayev İlknur Ramiz oğlu – gizir
Dostalılı Dostalı Şirvan oğlu – gizir
Əliyev Şahin Məhəmməd oğlu – gizir
Xəlilzadə Bəşir Məhəmməd oğlu – gizir
İslamov Emin Bəxtiyar oğlu – gizir
Qurbanzadə Ülvi Babaquli oğlu – gizir
Mərdənov Cəmil Omar oğlu – istefada olan gizir
Muxtarov Kamal Qismət oğlu – gizir
Nuriyev Toğrul Əhliman oğlu – gizir
Yolçiyev Bəşir Qoca oğlu – gizir
Həsənov İsmayıl Bəhlul oğlu – baş çavuş
Nəhmədov Xəzər Sabir oğlu – çavuş
Necəfov Üzeyir Hacı oğlu – ehtiyatda olan kiçik çavuş
Süleymanov Afiq Ziyafət oğlu – kiçik çavuş
Sadıqov Vüsal İbrahim oğlu – əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 aprel 2026-cı il**

# Türkiyənin prokurorluq heyəti Milli Məclisdə



**Milli Məclisin sədri Sahibə Qafarova aprelin 7-də qurumlararası əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan–Türkiyə münasibətlərinin ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına uyğun, dostluq və qardaşlıq əsasında inkişaf etdiyi qeyd olunub. Strateji müttəfiqlik xarakteri daşıyan dövlətlərarası münasibətlərdən bəhs edilərkən Azərbaycan–Türkiyə əlaqələrinin inkişafında dövlət başçıları arasındakı qardaşlıq münasibətlərinin xüsusi rolu vurğulanıb. İki ölkənin qanunverici orqanları arasındakı münasibətlərə diqqət yetirilərək, parlamentarilər, o cümlədən İşçi qrupları arasında səmərəli əməkdaşlığın mövcudluğundan məmnunluq ifadə olunub.

İki qardaş ölkənin müvafiq qurumları arasında səmərəli əməkdaşlıqdan söz açan Sahibə Qafarova 2021-ci ildə hər iki ölkənin Baş prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi qeyd edib. Spiker çoxtərəfli əməkdaşlıq çərçivəsində yaradılmış Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurasının fəaliyyətini yüksək qiymətləndirib.

Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk iki ölkə arasında əlaqələrin ölkə başçılarının müəyyən etdiyi ikitərəfli əməkdaşlıq gündəliyinə uyğun inkişaf etdiyini və bütün istiqamətləri əhatə etdiyini bildirib. Dünyada və regionda cərəyan edən proseslərə toxunan qonaq Türkiyə və Azərbaycan liderlərinin rolundan bəhs edərək, onların həm xalqları və dövlətləri üçün, həm də beynəlxalq sülh, əmin-amanlıq və əməkdaşlığın təmin olunmasında etibarlı lider və vasitəçi rolunu vurğulayıb.

Görüşdə qonağa Milli Məclislə Baş Prokurorluq arasındakı səmərəli əməkdaşlıq barədə də məlumat verilib.

***XQ***

# TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının Bakı müzakirələri






**Aprelin 7-də Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) İqtisadi əməkdaşlıq komissiyasının "TÜRKPA üzvü olan dövlətlərin birgə iqtisadi fəaliyyətinin həyata keçirilməsinin reallıq və perspektivləri" mövzusunda 13-cü iclası keçirilib.**

Qazaxıstan Parlamenti Məclisinin üzvü, TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının sədri Anas Bakkojayev türk dövlətlərinin dünya iqtisadiyyatındakı payı, eləcə də qarşılıqlı ticarət dövriyyəsinin həcmi barədə danışıb. Milli Məclisin komitə sədri Fazil Mustafa bildirib ki, TÜRKPA çərçivəsində birliyin davamlılığının mühüm şərtlərindən biri də güclü iqtisadi əsasların formalaşdırılmasıdır. Milli Məclisin deputatı Ağalar Vəliyev TÜRKPA-ya üzv dövlətlər arasında mövcud iqtisadi layihələrin, perspektivli əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyini vurğulayıb.

TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədr müavini, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Bekmurza Ergeşov, Türkiyə Böyük Millət Məclisinin üzvləri Mahmut Rıdvan Nazırlı, Cemal Enginyurt, Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma, Şimali Kiprin Bakıdakı nümayəndəsi Ufuk Turganer, TÜRKPA Baş katibinin müavini Muhammet Alper Hayali, Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatı Katibliyinin departament direktoru İsrail Tilegen çıxış ediblər. Onlar TÜRKPA çərçivəsində ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlığın konseptual əsaslarının müəyyənləşdirilməsi, eləcə də səmərəli əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Anas Bakkojayev iclasın əsas mövzu üzrə hazırlanmış tövsiyə qərarının layihəsini, komissiya sədrinin müavini Bekmurza Ergeşov hesabat məruzəsinin layihəsini, komissiyanın katibi Baurjan Datkayev "Birgə müəssisələr haqqında" model qanun layihəsini müzakirəyə təqdim ediblər. Komissiya üzvləri hesabat məruzəsini, tövsiyə qərarını və model qanun layihəsini təsdiqləyiblər.

İclasda Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin Mülki hüquq qanunvericiliyi sektorunun müdiri Azər Səmədov Azərbaycan tərəfinin təşəbbüsü ilə hazırlanan və komissiyanın gələn iclasında baxılması nəzərdə tutulan "Ağıllı şəhər və kənd haqqında" model qanunun layihəsi barədə məlumat verib.

Sonda komissiyanın növbəti iclasının gündəliyi, mövzusu və tarixi müəyyənləşdirilib.

***

**Həmin gün Milli Məclisdə TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının 13-cü iclası çərçivəsində "Birgə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün perspektivli sənayelər: aktorlar və amillərin birləşdirilməsi yolları" mövzusunda seminar keçirilib.**

Seminarda TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədri, Qazaxıstan Parlamenti Məclisinin üzvü Anas Bakkojayev, İqtisadi əməkdaşlıq komissiyasının sədr müavini, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Bekmurza Ergeşov, İqtisadi əməkdaşlıq komissiyasının üzvü, Türkiyə Böyük Millət Məclisinin deputatı Mahmut Rıdvan Nazırlı, TÜRKPA Baş katibinin müavini Muhammet Alper Hayali, Türkiyənin Azərbaycandakı səfirliyinin ticarət üzrə baş müşaviri Gülixar Yavaş çıxış ediblər.

TÜRKPA-ya üzv ölkələr arasında birgə iqtisadi fəaliyyətin reallıqları və

Azərbaycan Milli Məclisinin komitə sədri, TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının üzvü Fazil Mustafa seminarın mövzusunun həm iqtisadi, həm də geosiyasi məzmun daşıdığını söyləyib.

Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatının (İOFS) Katibliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinin direktoru İsrail Tilegen "İslam Əməkdaşlıq Təşkilatı və TÜRKPA ölkələri arasında ət ticarəti strategiyası" mövzusunda təqdimatla çıxış edib.

Seminarda mövzu ətrafında müzakirələr də aparılıb.

***XQ***

# Azərbaycan AQEM komitəsinin iclasına sədrlik edib

**Dünən Astana şəhərində Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Katibliyinin inzibati binasında Azərbaycanın sədrliyi ilə qurumun Yüksək Səviyyəli Şəxslər Komitəsinin növbəti iclası keçirilib.**

İclasda Azərbaycanın "Daha güclü AQEM: rəqəmsallaşma, bağlantılar və Asiyada dayanıqlı inkişaf" mövzusunda AQEM-ə sədrliyi çərçivəsində aktiv fəaliyyəti, müxtəlif əməkdaşlıq istiqamətləri üzrə atılan addımlar nəzərdən keçirilib. Həmçinin üzv dövlətlər arasında qarşılıqlı əməkdaşlığın əsas istiqamətləri müzakirə olunub.



Sədrlik tərəfindən AQEM-in beynəlxalq təşkilata transformasiyası gündəliyində gedən inkişaf, o cümlədən müvafiq Nizamnamə layihəsi üzrə aparılan danışıqların gedişatı barədə məlumat təqdim edilib.

Məclisdə AQEM-in hərbi-siyasi ölçüsü üzrə etimad tədbirlərinin icrası istiqamətində illik qiymətləndirmə aparılıb. Üzv dövlətlər tərəfindən hərbi-siyasi sahədə əməkdaşlığın inkişafı və bu istiqamətdə AQEM-in çoxtərəfli hərbi təhlükəsizlik platforması kimi rolu nəzərdən keçirilib.

İclasda AQEM-in Beyin Mərkəzləri Forumu üzrə Fəaliyyət Planı layihəsi müzakirə edilib və müxtəlif ölçülər üzrə etimad qurucu tədbirlərin icrasına dair konsepsiya sənədləri nəzərdən keçirilib, "Kiçik və orta biznesin inkişafına dair" konsepsiya sənədi qəbul edilib.

AQEM məkanında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***XQ***

# İqtisadi Şuranın və İnvestisiya Holdinqi Müşahidə Şurasının birgə iclası



**Aprelin 7-də Azərbaycanın Baş naziri Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.**

Nazirlər Kabinetindən verilən məlumata görə, iclasda Azərbaycanda neft-qaz və neft-kimya sənayesinin strateji inkişafı, o cümlədən neft emalı və neft-kimya ilə bağlı strateji məqsədlər, inkişaf perspektivləri, uzunmüddətli dövrdə neft məhsullarına ölkədaxili tələbatın dayanıqlı təmin edilməsi və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə yer alan məsələ ilə bağlı SOCAR-ın prezidenti Rövşən Nəcəf təqdimatla çıxış edib. İclasda İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının üzvləri, AİH İdarə Heyətinin sədri və Baş icraçı direktoru iştirak ediblər.

İclasın yekununda müvafiq qərarlar qəbul olunaraq AİH-in İdarə Heyətinə, SOCAR-a və aidiyyəti qurumlara tapşırıqlar verilib.

***XQ***

# Hikmət Hacıyev WUF13 çərçivəsində Gəncə ilə bağlı video paylaşıb




**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının (PA) xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X"dəki hesabında Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində "AnewZ" telekanalının Gəncə haqqında hazırlanmış süjetini paylaşıb.**

Videoda Gəncə Azərbaycanın zəngin tarixi-mədəni irsə malik ən qədim şəhərlərindən biri kimi təqdim olunur.

Qeyd olunur ki, şəhər görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin yurdudur, elm, təhsil və ədəbiyyatın inkişafında mühüm rol oynayıb.

Gəncənin əsrlər boyu İpək Yolu üzərində mühüm mərkəz olduğu, bilik mübadiləsinə və multikultural mühitin inkişafına töhfə verdiyi vurğulanır.

Bundan əlavə, videoda 1918-ci ildə Gəncənin Şərqdə ilk parlamentli demokratik respublikanın paytaxtı olduğu qeyd edilir.

***XQ***

# Qazaxıstan heyəti AZƏRTAC-da



**Bakıda səfərdə olan Qazaxıstan Respublikası mədəniyyət və informasiya nazirinin müavini Rüstəm Əlinin başçılıq etdiyi nümayəndə heyəti aprelin 7-də Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) olub.**

Nümayəndə heyətinin tərkibinə Qazaxıstan Xarici İşlər Nazirliyinin Beynəlxalq İnformasiya Komitəsinin sədri Erlan Jetibayev və Qazaxıstanın Azərbaycandakı səfirliyinin attaşesi Temirlan Baxıtjan daxil idi.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev ilə keçirilən görüşdə media sahəsində əməkdaşlığın cari vəziyyəti, informasiya qarşılıqlı fəaliyyətinin genişləndirilməsi məsələləri, həmçinin birgə layihələrin həyata keçirilməsi perspektivləri müzakirə edilib.

Qazaxıstan mediası, xüsusilə "Kazinform" agentliyi ilə AZƏRTAC arasında dayanıqlı informasiya mübadiləsinin və beynəlxalq media platformaları çərçivəsində qarşılıqlı fəaliyyətin uğurla davam etdiyini vurğulayan Vüqar Əliyev deyib ki, biz birgə real layihələr vasitəsilə əməkdaşlığın inkişafına və fəal xəbər mübadiləsinə böyük əhəmiyyət veririk. Məqsədimiz ölkələrimiz haqqında dəqiq və operativ informasiya təqdim etməkdir. AZƏRTAC-ın xarici ölkələrdə 22 müxbir məntəqəsi var və agentlik 8 dildə xəbərlər yayır.

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Rüstəm Əli iki ölkənin jurnalist birlikləri arasında peşəkar əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edərək bildirib ki, ölkələrimiz arasında qardaşlıq münasibətləri mövcuddur. Bu cür səfərlər təcrübə mübadiləsinə və daha yaxşı qarşılıqlı anlaşmaya kömək edir.

Tərəflər jurnalistlərin qarşılıqlı səfərlərinin təşkili və birgə media layihələrinin həyata keçirilməsi məsələlərini də müzakirə ediblər.

Qonaqlar redaksiyaların fəaliyyəti ilə tanış olub, xəbərlərin və multimedia materiallarının hazırlanması prosesini izləyiblər.

***AZƏRTAC***

# "Anadolu Ankası – 2026" beynəlxalq təlimi başlandı

**Türkiyənin Konya şəhərində müxtəlif ölkələrin hərbçilərinin iştirakı ilə "Anadolu Ankası - 2026" ("Anatolian Phoenix - 2026") beynəlxalq axtarış-xilasetmə təliminə start verilib.**

Təlimin məqsədi müxtəlif ölkələrin axtarış-xilasetmə qüvvələri arasında qarşılıqlı fəaliyyətin və operativ uyğunluğun artırılması, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, şəxsi heyətin peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi, qəza vəziyyətlərində ekipaj üzvlərinin axtarılması və xilas edilməsi kimi bacarıqların inkişaf etdirilməsidir.

Aprelin 17-dək davam edəcək beynəlxalq təlimdə ölkəmizi Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları, paraşüt-desant və axtarış-xilasetmə xidmətinin mütəxəssisləri, aviayönləndiricilər, texniki heyət və aviasiya vasitələri təmsil edir.

***XQ***

# Azərbaycan Prezidentinin milli maraqlara yönəlmiş sülh doktrinası

## *Son 23 il ölkəmizin müstəqil dövlətçilik tarixində tərəqqi mərhələsidir*

**2003-cü il oktyabrın 15-də ölkə Prezidenti seçilən İlham Əliyevin həm daxili, həm də xarici siyasət kursunun əsas hədəfi 30 il işğal altında olan torpaqlarımızın azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsindən ibarət idi.**



Azərbaycan Prezidenti Milli Məclisdə andiçmə mərasimində qeyd etdi ki, "ölkəmiz beynəlxalq hüquqa zidd olan işğala öz daxili potensialı hesabına son qoyub, dünya hərb tarixində görülməyən texnika ilə və diplomatik çeviklik sayəsində regionda status-kvonu dəyişib". Şanlı Zəfərdən sonra Prezident İlham Əliyev ölkənin milli maraqlarına uyğun olaraq sülh müqaviləsi və gündəliyi ilə çıxış edib. Sülh müqaviləsi xalqımızın 30 il ərzində gözlədiyi ədalətli, milli maraqlarımıza uyğun və Cənubi Qafqazda sağlam, sabit gələcəyə, dayanıqlı sülhün və sabitliyin əldə olunmasına hesablanıb.

Ümummilli liderin xalqa müraciətində "inanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək" sözləri həqiqətdə işğal altında olan bütün torpaqlarımızın azad olacağına, qaçqınların öz yurdlarına qayıdacağına inamın ifadəsi idi. İndi Heydər Əliyevin ruhu şaddır, çünki onun daxili və xarici siyasət kursunun, o cümlədən ən böyük arzusu olan torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyünün və suverenliyimizin tam təmin olunması Prezident İlham Əliyevin diplomatik fəhminin, sərkərdəlik bacarığının göstəricisidir.

Vətən müharibəsindən sonrakı 5 ildə Azərbaycan davamlı, dinamik iqtisadi inkişafa nail oldu, xarici siyasətdə böyük uğurlar qazandı. Müstəqilliyimizin, ərazi bütövlüyümüzün, suverenliyimizin möhkəmləndirilməsini təmin edən nəhəng işlər görüldü. Azərbaycanın beynəlxalq arenada mövqeyi möhkəmləndi, söz sahibinə çevrildi, dünyaya inteqrasiya sisteminə xüsusi önəm verildi. Ölkəmizin iqtisadi gücü və qüdrəti, hərbi gücü daha da artdı. İlham Əliyevin düşünülmüş məntiqə əsaslanan fəaliyyətinin, uğurlu xarici siyasətinin nəticəsi idi ki, Azərbaycan bu gün qlobal miqyaslı problemlərin həllində fəal rol oynayır. Prezidentimizin sülh gündəliyi regionda və onun sərhədlərini aşaraq böyük coğrafi arealda sabitliyin bərpasına, təhlükəsizliyin təmin olunmasına və davamlı əməkdaşlığa yönəlib.

Donald Tramp 2024-cü il 5 noyabr seçkilərində qalib gəlməsi və yenidən ABŞ-da hakimiyyətə gəlməsi dünyanın durumunda, o cümlədən ABŞ–Azərbaycan münasibətlərində yeni səhifə açdı.

Dünyanın lider dövlətinin başçısı Donald Tramp bildirir ki, "Xalqınız böyük xalqdır", "Siz böyük Lidersiniz". 2025-ci il 8 avqust tarixli Vaşinqton razılaşmaları Cənubi Qafqaza yeni reallıq – sülh gətirib. Hazırda Azərbaycan ilə ABŞ arasında siyasi və iqtisadi əlaqələrin genişlənməsi ilə bağlı ciddi işlər görülür ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurası adlı beynəlxalq təşkilata Azərbaycanın Təsisçi üzv Dövlət kimi qəbul edilməsi bunun əyani sübutudur.

Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqton sammitində çıxış edərkən bildirmişdir ki, "Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik". Ardınca bunu qeyd etmişdi: "Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımız bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik. İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır... Əminəm ki, Azərbaycan ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik".

Beləliklə, avqustun 8-də Ağ Evdə Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan 30 il davam edən düşmənçiliyə son qoyan və Cənubi Qafqazdan keçəcək yeni tranzit marşrutunun əsasını qoyan sazişlər imzaladılar. Azərbaycan Prezidenti qeyd edib ki, TRİPP layihəsi heç kimə qarşı deyil və Zəngəzur dəhlizi beynəlxalq nəqliyyat marşrutların mühüm hissələrindən biri olacaq. Bu dəhliz Ermənistan və Azərbaycanı birbaşa birləşdirməklə yanaşı, Cənubi Qafqazı beynəlxalq daşımalar və enerji şəbəkələrinə inteqrasiya etməyi hədəfləyir. Azərbaycan Prezidenti İlham Əliyev bu layihəni beynəlxalq nəqliyyatın mühüm hissələrindən biri adlandırır və qeyd edir ki, dəhliz Xəzər dənizi regionunu Avropa, Yaxın Şərq və Asiya bazarları ilə birləşdirəcək.

İlham Əliyevin siyasi müdrikliyi, uzaqgörənliyi uğurlu diplomatiyanın, hüquqi legitimliyin və etibarlı tərəfdaşlıq prinsipinin sintezidir. Azərbaycanın regionda vasitəçi kimi çıxış etməsi, müxtəlif qarşıdurma tərəfləri ilə obyektiv dialoq yaratmaq təşəbbüsləri də bu reallığın təzahürüdür. Azərbaycan Prezidentinin formalaşdırdığı sülh doktrinası hazırkı beynəlxalq münasibətlərdə çox yüksək qiymətləndirilir. Onun sülh diplomatiyasının təməlində ilk növbədə milli maraqlarla beynəlxalq hüquq arasında qurulmuş balans dayanır.

Dövlətimizin başçısının Danimarkanın paytaxtı Kopenhagendə Ermənistanın baş naziri Nikol Paşinyanla keçirdiyi görüş Azərbaycanın sülh prosesinə sadiqliyini və sülh gündəliyinin reallaşdırılması istiqamətində ardıcıl fəaliyyətini bir daha təsdiqləyir. İlham Əliyev BMT tribunasından çıxış edərək Azərbaycanın sülh təşəbbüslərinə sadiqliyini, dövlətlərarası münasibətlərdə qarşılıqlı hörmət və suverenliyə əsaslanan yanaşmanı müdafiə etdiyini bir daha bəyan etdi. Bu yanaşmanın indiki qlobal xaos şəraitində beynəlxalq təhlükəsizlik, sülh və davamlı inkişaf üçün strateji əhəmiyyəti böyükdür.

2025-ci il oktyabrın 7-də Qəbələdə "Regional sülh və təhlükəsizlik" mövzusunda Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci zirvə görüşünün sülh və təhlükəsizlik məsələlərinə həsr edilməsi təsadüfi deyildi. Bütövlükdə bu amillər həm regional, həm də qlobal miqyasda mövcud çağırışlardan, eləcə də üzv dövlətlərin xarici siyasətində sülh və sabitliyə verdikləri strateji əhəmiyyətdən qaynaqlanır.

TDT Qəbələ Zirvə Görüşündə təqdim olunan sülh gündəliyi yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində böyük əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü sülh modeli hərbi, siyasi və diplomatik vasitələrlə təhlükəsizlik şəraitinin sabitliyin yaradılması təcrübəsi artıq Türk dünyası üçün örnəkdir. Zirvə görüşü aydın şəkildə göstərdi ki, ortaq tarix, dil və dini dəyərlər üzərində qurulan birliyin əsas məqsədi sülh, təhlükəsizlik və sabitlik sahəsində uzunmüddətli, institusionallaşmış əməkdaşlıq yaratmaqdır.

Hazırkı narahat dünyada regional və qlobal səviyyədə baş verən hadisələr və mövcud çağırışlar təhlükəsizlik və müdafiə məsələlərini beynəlxalq gündəliyin prioritet istiqamətlərindən birinə çevrilib. Qəbələ Zirvə görüşündə ilk dəfə olaraq açıq şəkildə müdafiə sənayesi və təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri önə çəkildi. Bunlarla yanaşı, iqtisadiyyat, nəqliyyat və digər əlaqəli sahələrə də xüsusi önəm verilşdi.

Azərbaycan Prezidenti BMT, ASB və TDT çərçivəsində ölkəmizin sülh gündəliyini onun çərçivəsindəki iqtisadi, enerji, nəqliyyat-tranzit əməkdaşlıq imkanlarını təqdim etdi. İqtisadi, enerji nəqliyyat-tranzit təhlükəsizliyinin təmin olunması artıq Azərbaycan–Ermənistan əməkdaşlıq çərçivəsini aşaraq, regional və çoxtərəfli əməkdaşlıq kontekstində yer alan məsələdir. Bu mənada, TRIPP marşrutunun (Zəngəzur dəhlizi) reallaşdırılmasının ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə əldə edilən tarixi Vaşinqton razılaşdırılmasında yer alması onun beynəlxalq əhəmiyyətini bir daha təsdiqləyir.

***İbrahim ZEYNALOV,***
***Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı, professor***

# Prezident İlham Əliyevin çağırışı: Cənubi Qafqaz və sülh

**(əvvəli 1-ci səhifədə)**

İkincisi, Prezident İlham Əliyev bilavasitə ticarət əlaqələrinin inşkişafı üzərində dayanır. Nəzərə alaq ki, sırf ticarətə başlamaq təşəbbüsü rəsmi Bakıya məxsusdur. Yəni Azərbaycan və Ermənistan arasında ötən il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamədə, ümumən, dövlətlərarası münasibətlərin inkişafı xətti götürülsə də, başlanğıc nöqtə baxımından hansısa məsuliyyət müəyyənləşməyib.

Deməli, tərəflərdən birinin jestinə ehtiyac var idi ki, onu edən Azərbaycan oldu. Respublikamız Ermənistanla ticarətə başladı, habelə, üçüncü ölkələrdən Ermənistana daşımalar üçün tranzit şəraiti yaratdı və yaradır. Yəni dövlətimizin başçısının "Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək" fikri rəsmi Bakının konkret addınları müstəvisində öz təsdiqini tapıb.

Əlbəttə, sülhü gücləndirmək üçün daha böyük tədbirlərə ehtiyac var. Azərbaycan lideri bu baxımdan Gürcüstanı da əsas götürdüyünü açıqladı. Axı Cənubi Qafqaz vahid orqanizmdir. Mövcud müstəvidəki dövlətlərin hər birinin iradəsi bu coğrafiyanın inkişafına təkan verən faktordur. Ona görə də ölkəmizin Ermənistanla ticarətinin Gürcüstan vasitəsilə reallaşması xüsusi vurğulanmalıdır. Prezident İlham Əliyev də məhz buna diqqət çəkdi və Gürcüstan hökumətinə təşəkkürünü bildirdi.

Üçüncü məqama diqqət yetirək. Məlum olduğu kimi, Azərbaycan-Ermənistan sərhəd xəttinin uzunluğu Azərbaycan-Gürcüstan sərhəd xəttinin uzunluğundan təqribən 2 dəfəyə yaxın çoxdur. Bu mənada, hazırda Azərbaycan-Ermənistan ticarətinin Gürcüstan üzərindən reallaşması məntiqli görünmür və bu durum aradan qalxmalıdır. Əlbəttə, elə sahələr mümkündür ki, onunla bağlı ticarətin məhz Gürcüstan ərazisi vasitəsilə gerçəkləşməsi daha rentabelli olar.

Amma məntiqsiz durumun aradan qalxması üçün də konkret, özü də təxirəsalınmaz tədbirlər görülməlidir. Xüsusən, Ermənistan hazırkı vəziyyətin fərqinə



varmalıdır. Bunun üçün isə ölkə Birgə Bəyannamədə yazılanların icrasına başlamalıdır. Əslində, Prezdent İlham Əliyev həm də bunun mesajını verdi. Yəni Azərbaycan sülh naminə kağız üzərində yazılmayanları edirsə, Ermənistan yazılanları etməlidir.

Kağız üzərində yazılan Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu və ya qısaca TRIPP-dir. O marşrut ki, onunla bağlı barəsində söz açdığımız Birgə Bəyannamədə xüsusi müddəa var. O marşrut ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək. Nəhayət, o marşrut ki, Ermənistan ərazisindən keçəcək. Bu yerdə Prezident İlham Əliyevin Gürcüstanda ölkənin Baş naziri İrakli Kobaxidze ilə mətbuata bəyanatındakı bir fikrə diqqət yetirək: "Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim".

Bəli, sülhü möhkəmləndirmək üçün onun bütün komponentlərini Cənubi Qafqazda yaranmış yeni vəziyyətin şərtlərinə uyğunlaşdırmaq lazımdır. İndiki məqamda Gürcüstana ona görə təşəkkür düşür ki, öz ərazisindən Bakı–İrəvan ticarətinə şərait yaradır və bu, ölkənin regional barış naminə çalışmasıdır. Ermənistan da buna görə Gürcüstana təşəkkür edir, ya etmir, öz işidir. Amma məlumdur ki, baş nazir Nikol Paşinyan müxtəlif beynəlxalq platformalarda dəfələrlə Prezident İlham Əliyevə təşəkkürünü çatdırıb. Sözümüz ondadır ki, Ermənistan rəhbərliyi yalnız təşəkkürlə kifayətlənməməli, əsas məsələyə keçid almalıdır. Əsas məsələ isə TRIPP-in fəaliyyətə başlaması, daha doğrusu, işinin təmin olunmasıdır.

Ümumiləşdirmə apararaq, bir daha belə qənaətə gəlmək olar ki, Azərbaycan üçün regional siyasi-strateji xətt sülhün prioritet seçilməsi üzərindədir. Dövlətimizin başçısı barışı strateji məqsəd daşıyan mühit kimi irəli sürür, fikirləri ilə regionun münaqişə zonasından əməkdaşlıq məkanına keçməsinin vacibliyini vurğulayır. Hər halda, ölkəmizin başçısı əbəs yerə dünyadakı ağır siyasi və hərbi vəziyyəti misal gətirmir. Bu yanaşma Azərbaycanın özünü regional lider və təşəbbüskar aktor kimi təqdim etməsidir. Yəni Prezident İlham Əliyev sülh ritorikasından həm siyasi, həm də iqtisadi layihələrin legitimləşdirilməsi üçün bəhrələnməni vacib sayır. Hesab edirik ki, bütün bunlar Gürcüstan tərəfindən ciddi dərk edilir. Həm də ona görə ki, bu ölkə Azərbaycanla birgə regionun dünyaya açılımında müstəsna pay sahibidir. Ona görə də dövlətimizin başçısı vurğulayır: "Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir".

Ermənistan da regional düzəndə təmsil olunmalıdır. Söhbət TRIPP-lə gerçəkləşəcək düzəndəki iştirakçılıqdan gedir. Ölkənin başqa yolu varmı? Yox. Başqa yola, eyni zamanda, ona görə ehtiyac yoxdur ki, onu Ermənistan 2020-ci ilədək gedib. Gedib və heç bir fayda görməyib, inkişafdan geri qalıb. Başqa sözlə desək, işğalçılıq siyasəti ölkəyə xeyir yox, böyük zərərlər qazandırıb. İndi isə sülh şəraitinin verdiyi imkanlardan bəhrələnmə zamanıdır. Prezident İlham Əliyevin təbirincə desək, imkan əldən verilməməlidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Macarıstan Arazqırağının dirçəlişinə qoşuldu



(əvvəli 1-ci səhifədə)

Qeyd edilən fərqli yanaşma 2020-ci ildə təməli qoyulan və 2023-cü ildə Azərbaycan dövlətinin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi ilə yekunlaşan zəfər fonunda xarici tərəfdaşların diplomatik dəstəyinin praktiki müstəviyə keçməsini simvolizə edir. Cənubi Qafqazda müəyyənləşən nizam xarici ölkələrin mövqelərini dəqiqləşdirməsini tələb edirdi, məhz Macarıstan atdığı bu addımla regionda uzunmüddətli mövcudluq iddiasını ortaya qoymuş oldu. Rəsmi Bakı xarici diplomatiyanı proseslərə cəlb etməklə azad olunmuş bölgələrin diplomatik toxunulmazlığını qlobal güclərin dəstəyi vasitəsilə ən yüksək həddə çatdırır.

Macarıstan dövlətinin Qarabağ zonasında həyata keçirilən irimiqyaslı layihələrə siyasi cəhətdən qoşulması şübhəsiz yüksək səviyyəli diplomatik gedişdir. Şərqi Zəngəzur regionu ilə yanaşı, Cəbrayılın əhəmiyyəti regional tranzit sistemlərinin siyasi təhlükəsizliyinin qorunması aspektindən çox böyükdür. Lakin məsələnin strateji tərəfi Avropa İttifaqına daxil olan vacib bir ölkənin məhz işğaldan azad edilmiş torpaqlarda açıq şəkildə Azərbaycanın qanuni hüquqlarını siyasi rıçaqlarla müdafiə etməsidir. Macarıstan hökuməti beynəlxalq təzyiqlərə rəğmən müttəfiqlik prinsiplərinə sadiq qalaraq qlobal platformalarda Bakının haqlı mövqeyini müdafiə edən əsas dayaq güclərindəndir.

Həmin addım Avropa daxilindəki fərqli və bəzən qərəzli yanaşmalar fonunda Macarıstanın müstəqil xarici siyasət kursunu nümayiş etdirir. Əsasən Ermənistanın havadarları tərəfindən aparılan anti-Azərbaycan xarakterli kampaniyalara qarşı ən tutarlı diplomatik cavab məhz nüfuzlu xarici dövlətlərin Qarabağın bərpasına maliyyə ayırması hesab edilməlidir. Digər ölkələr məsələyə ehtiyatla yanaşdığı halda, Macarıstanın açıq siyasi iradə nümayişi Cənubi Qafqazın yeni reallıqlarının qeyd-şərtsiz təsdiqidir. Qərb mərkəzli müəyyən təsisatların əsassız hesabatlarına baxmayaraq, Avropa daxilindən gələn güclü dəstək Azərbaycanın apardığı xarici siyasət vektorunun mükəmməlliyini növbəti dəfə təsdiqləmiş olur.

Məsələnin fərqli qlobal ölçüsü bilavasitə Macarıstanın Türk Dövlətləri Təşkilatında tutduğu müşahidəçi statusu ilə sıx bağlıdır. Macarıstan rəhbərliyi uzun müddətdir ki, Avropa ilə Asiya arasında geosiyasi, həmçinin tarixi körpü rolunu oynamağa çalışır. Türk dünyasının vahid siyasi mərkəzə çevrilməsi prosesində həmin dövlətin rolu səciyyəvi xarakter daşıyır. Soltanlı kəndinin bərpasında iştirak qərarı, əslində, TDT çərçivəsində mövcud olan sıx inteqrasiyanın fiziki reallığa çevrilməsini sübut edən mühüm siyasi xətlərdəndir.

Təşkilatda müşahidəçi kimi yer alan Macarıstanın Şərqi Zəngəzur və Qarabağ zonasında mövcudluğu TDT-nin Avropaya inteqrasiyası istiqamətində atılmış möhtəşəm sinerjidir. Türk dünyasının vahid blok formasında çıxış etməsi qlobal idarəetmə sistemində yaranmış xaos şəraitində müdafiə, təhlükəsizlik və strateji məsləhətləşmələr baxımından beynəlxalq tərəziyə böyük təsir göstərir. TDT-nin güclü siyasi, geopolitik xəttə çevrilməsi məhz belə təməlqoyma mərhələlərində reallaşır. Avrasiya materikində cərəyan edən çətin proseslər fonunda qeyd edilən yanaşma türkdilli arealın siyasi sərhədlərinin kifayət qədər genişləndiyini əyani şəkildə göstərir.

***

Hazırkı mərhələdə Qarabağın dirçəldilməsi, sadəcə, infrastruktur təşəbbüsü olmaqdan çıxaraq dövlətlərin etibarlılıq sınağına çevrilib. Macarıstan diplomatiyası hadisələrin gedişatını düzgün qiymətləndirərək Cənubi Qafqazdakı güc balansının şərtsiz şəkildə Azərbaycanın xeyrinə dəyişdiyini yaxşı dərk edir. Rəsmi dairələr həmin reallığı yalnız müşahidə etmir, eyni zamanda, aktiv siyasi iştirakçı qismində prosesin düz mərkəzində dayanır. Budapeştin Şərqi Zəngəzura öz nişanını sancması simvolik olaraq çox incə, coğrafi dəqiqliklə hesablanmış strateji vizyona əsaslanır.

Ərazi mühüm tarixi keçidlərin, həmçinin cənub sərhədlərindəki təhlükəsizlik dəhlizlərinin yaxınlığında qərarlaşıb. Xarici dövlətin həssas coğrafiyada siyasi iradəsinin möhkəmlənməsi regionda sabitliyin dönməz xarakter almasını təmin edən qüdrətli diplomatik sipərdir. Qərb ölkələrinin müxtəlif manipulyasiyalarla regiona müdaxilə etməyə çalışdığı məqamda, Macarıstan tərəfinin Azərbaycanla mütləq həmrəylik sərgiləməsi bütün pozucu ssenariləri alt-üst edir. Avropa İttifaqı daxilindəki radikal dairələrin rəsmi Bakıya qarşı qərəzli qətnamələr qəbul etdiyi mürəkkəb siyasi şəraitdə nümayiş olunan qətiyyətli duruş ədalətin yanında olmağın əsl formulasını təqdim edir.

Belə mürəkkəb xronologiya altında, rəsmi diplomatik dəstəyin maddi və konseptual formada Şərqi Zəngəzurda təcəssüm tapması dağıdıcı qüvvələrin təxribatçı cəhdlərini neytrallaşdırır. Təsadüfi deyil ki, sözügedən müttəfiqlik həm də regiondankənar qüvvələrin bölgəyə yerləşmək cəhdlərinə qarşı çəkilmiş diplomatik sədd sayılır. Azərbaycanın uğurlu diplomatiyası sayəsində Şərqi Zəngəzur qlobal sülh zonasına transformasiya olunur.

Bu qərar Azərbaycan dövlətinin xarici siyasət prioritetlərinin nə qədər düşünülmüş və uzaqgörən olduğunu nümayiş etdirən nümunədir. Hər hansı xarici qüvvənin prosesə fərqli maraqlar prizmasından yanaşmadığını, ideoloji, siyasi və strateji tərəfdaşlıq amillərinin hakim olduğunu görmək kifayət qədər asandır. Macarıstanın qeyd edilən qrantı ayırması, əslində, Avropanın tam mərkəzindən Şərqi Zəngəzura uzanan möhkəm geopolitik dəstəyin rəsmiləşən imzasıdır.

Bu cəsarətli gediş, eyni zamanda, Türk Dövlətləri Təşkilatının təsir hüdudlarının təkcə Mərkəzi Asiya və Qafqazla məhdudlaşmadığını, Şərqi Avropaya qədər uzanan nəhəng qlobal siyasi mərkəzə çevrildiyini təsdiqləyir. Qarabağ nüfuzlu dövlətlərin, xüsusən Macarıstan kimi ardıcıl xarici siyasi xəttə malik sadiq tərəfdaşların diplomatik təmsilçiliyi sayəsində beynəlxalq sülhün və strateji balansın qorunduğu sarsılmaz qalaya çevrilir. Avrasiyanın siyasi mənzərəsi yenidən yazılarkən Azərbaycanın formalaşdırdığı yenilməz müttəfiqlik modelləri regionun gələcək onilliklərdəki təhlükəsizliyinin mütləq qarantı olaraq qalacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# "Türk axını"nı kim hədəfə alıb?

**Avropanın siyasi xəritəsi son dövrlər enerji təhlükəsizliyi və geosiyasi rəqabətin yaratdığı yeni gərginlik xətləri ilə yenidən cızılır. Prosesdə Macarıstan xüsusi nümunə kimi ön plana çıxır. Uzun illər hakimiyyətdə olan Viktor Orban və islahat çağırışları ilə çıxış edən yeni siyasi qüvvələr arasındakı mübarizə seçkiqabağı vəziyyəti xeyli mürəkkəbləşdirir. Mövcud qarşıdurma tədricən regionda enerji marşrutları, Rusiya–Qərb münasibətləri və seçki proseslərinin legitimliyi kimi daha geniş kontekstin bir hissəsinə çevrilir.**



Bu günlərdə Rusiya qazını Avropaya daşıyan "Türk axını" qaz kəmərinin Serbiya hissəsində partlayıcı maddələrin aşkar olunması sözügedən mürəkkəb kontekstin növbəti epizodlarından biri kimi yadda qaldı. Hadisə, eyni zamanda, siyasi narrativlərin necə formalaşdırıldığını və seçici davranışına təsirin hansı səviyyəyə çatdığını göstərdi. Macarıstanın baş naziri Viktor Orban bildirdi ki, onu hadisə barədə Serbiya Prezidenti Aleksandar Vuçiç məlumatlandırıb. Bunun ardınca Orban sosial şəbəkə hesabında insidentlə əlaqədar araşdırmanın davam etdiyi və ölkənin müdafiə şurasının təcili iclasının çağırıldığı barədə paylaşım etdi.

Xarici işlər naziri Peter Siyarto iclasın yekunlarına dair videomüraciətində bildirdi ki, Macarıstan, Rusiya, Türkiyə və Serbiya "Türk axını" qaz kəmərinin mümkün hücumlardan mühafizəsini gücləndirmək barədə razılığa gəliblər. Onun sözlərinə görə, Serbiya və Türkiyənin energetika nazirləri, həmçinin Rusiyanın energetika nazirinin birinci müavini ilə telefon danışığı aparılıb: "Biz razılaşdıq ki, kəmər fiziki olaraq hər zamankından daha etibarlı şəkildə qorunmalıdır, çünki ona hücumlar getdikcə tez-tez baş verir. Biz sıx əlaqələr saxlamaq barədə razılığa gəldik. Hər bir tərəf öz töhfəsini verəcək və bütün Avropa boyu "Türk axını" boru kəmərinin qorunması üçün qəti tədbirlər görəcək".

Avropa üçün enerji heç vaxt sadəcə iqtisadi məsələ olmayıb. Xüsusilə Ukrayna müharibəsindən sonra enerji anlayışı siyasi və təhlükəsizlik gündəminin əsas sütununu təşkil edir. Rusiya qazının Avropaya nəqli üçün istifadə olunan marşrutlar, o cümlədən Balkanlar üzərindən keçən "Türk axını" xətti artıq geosiyasi təsir aləti kimi dəyərləndirilir. Ona görə də Serbiya ərazisində aşkar edilən partlayıcılar təsadüfi hadisə kimi görünmür. Bu halda Serbiya lideri Vuçiç tərəfindən səsləndirilən "kritik infrastruktur üçün təhdid" ifadəsi, əslində, daha geniş mesajı ehtiva edir. Vuçiçin fikirləri bir daha təsdiqləyir ki, regionda enerji xəritəsi üzərində gedən mübarizə yeni və daha riskli mərhələyə qədəm qoyur. Bir məqamı da qeyd edək ki, əgər bu partlayıcılardan istifadə olunsaydı, nəticələr siyasi baxımdan da "dağıdıcı" olardı. Qaz axınının dayanması Macarıstan kimi ölkələr üçün ciddi enerji böhranı yarada, eyni zamanda, Avropa daxilində enerji siyasəti ilə bağlı mövcud fikir ayrılıqlarını daha da dərinləşdirə bilərdi.

"Türk axını"nın region üçün əhəmiyyəti son dərəcə böyükdür. Maraqlıdır ki, Macarıstan mediasında insidentlə bağlı yayımlanan xəbərlərdə "Şimal axını" qaz kəmərlərinin partladılması xəbəri də xatırladılır. Çünki Almaniya məhkəməsinin nəticələrinə əsasən, diversiyada xarici sifariş çərçivəsində hərəkət edən Ukrayna tərəfinin iştirakı mümkün hesab olunur. Qaz infrastrukturuna qarşı hücumlar və ya təhdidlər daha geniş geosiyasi qarşıdurmanın tərkib hissəsinə çevrilir.

Daha bir məqamı qeyd edək ki, ölkədə parlament seçkilərinə cəmi bir həftə qalmış belə bir insidentinin baş verməsi təsadüfi sayılmır. İstər-istəməz "saxta bayraq" əməliyyatı ehtimalı yenidən gündəmə gəlir. Müxalifətin əsas simalarından biri olan Peter Maqyar bu ehtimalı açıq şəkildə dilə gətirərək iddia edib ki, belə hadisələr seçicilərdə qorxu yaratmaq və mövcud hakimiyyətin "təhlükəsizlik təminatçısı" obrazını gücləndirmək üçün istifadə oluna bilər. Tarix göstərir ki, təhlükəsizlik böhranları çox vaxt siyasi hakimiyyətlər tərəfindən legitimliklərini möhkəmləndirmək üçün istifadə olunub. Çünki qorxu hissi seçici davranışına birbaşa təsir edir, qeyri-müəyyənlik və risk şəraitində insanlar adətən dəyişiklikdən daha çox sabitliyi seçirlər. Ona görə də müxalifət Orban və onun rəhbərlik etdiyi "Fidesz" partiyasının məhz bu narrativ üzərində qurulmuş kampaniya apardığını düşünür. Ukraynadakı müharibə və onun regiona mümkün təsirləri də Macarıstan üçün ekzistensial təhlükə kimi təqdim olunur. Bu çərçivədə hakimiyyət əleyhdarları hesab edirlər ki, Orban özünü təcrübəli və güclü lider kimi göstərərək riskləri idarə edə biləcək yeganə fiqur olduğunu vurğulayır. Ona görə Magyar və onun tərəfdarları elektoratı daha çox iqtisadi durğunluq və korrupsiya kimi məsələlərə yönəltməyə çağırır.

Yeri gəlmişkən, ABŞ və Rusiyanın prosesə dolayısı ilə təsir göstərmək cəhdləri haqqında iddialar vəziyyəti daha da mürəkkəbləşdirir. Donald Trampın Orbana verilən açıq dəstək və eyni zamanda, Rusiya ilə əlaqəli dezinformasiya şəbəkələri barədə yayılan məlumatlar seçkilərin beynəlxalq əhəmiyyətini artırır. Bu, daha geniş tendensiyanın göstəricisidir. Seçkilər artıq qlobal güclər arasında rəqabətin bir hissəsinə çevrilir. Bu rəqabət isə bəzən ənənəvi diplomatik vasitələrdən kənara çıxaraq kəşfiyyat əməliyyatları, informasiya manipulyasiyası və hətta təxribat ssenariləri ilə müşayiət olunur.

Ümumiyyətlə "saxta bayraq" əməliyyatları iddiası anlayışı tarixdə dəfələrlə istifadə olunub. Ona görə də Macarıstanda baş verən hadisə ilə bağlı belə iddiaların səsləndirilməsi təəccüb doğurmamalıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

Viktor Orban və partiyası üçün bu insident, eyni zamanda, ikiqat risk daşıyır. İlk növbədə vəziyyətin gərginliyi 12 aprel parlament seçkiləri ərəfəsində xüsusilə artıb. Həmin seçkilərdə baş nazir Orbanın partiyası "Fidesz"in mövqeyi ölkədə və cəmiyyətdə uzun illər sonra ilk dəfədir ki, nəzərəçarpacaq dərəcədə zəifləyib. Bir tərəfdən, bu insident enerji marşrutlarının nə qədər həssas olduğunu göstərdi və avtomatik olaraq təhlükəsizlik sistemi, regional koordinasiya və Macarıstanın enerji modelinin dayanıqlılığı barədə gündəmə gətirdi.

Müxaliflər hadisəni seçkiqabağı siyasi manipulyasiya kimi təqdim edir ki, bu da Orbanın rəhbərlik etdiyi hökumətin etimadına ciddi zərbə vurur. Onlar həm də insidentdən istifadə edərək hakimiyyətin kritik infrastrukturlara nəzarət edə bilmədiyini və ya seçkiqabağı qorxu yaradaraq əlavə səs toplamağa çalışdığını deyirlər. Sözügedən təbliğat baş nazir Orban üçün risk yaradıb, onu cəmiyyətə şübhə, seçkiqabağı qorxu atmosferi yaradan, xalqın qorxusunu manipulyasiya edərək öz postunu qoruyan lider kimi təqdim edir. Müxalifət hökumətə qarşı həm də "təhlükəsizlik məsələlərində axsama var" kimi əks arqument əldə edib və bu tezis seçki kampaniyasının əsas elementinə çevrilib. Orban və partiyası isə insidenti "Macarıstan xarici təzyiq altındadır, ölkənin suverenliyi və sabitliyi yalnız Orban kimi güclü liderlə təmin oluna bilər" arqumenti ilə çıxış edirlər.

İnsident Macarıstan üçün geosiyasi təsirlər də yaradır. "Türk axını" ətrafında baş verən insident daha geniş mənada Macarıstanın regional dayanıqlılığını sual altına alır. Macarıstan son illər xarici və enerji siyasətini maksimum praqmatik yanaşma üzərində qurub. Bu cür risklər isə hakimiyyət üçün həm Avropa tərəfdaşlarından, həm də daxili siyasi rəqiblər tərəfindən təzyiq yaradır. Bir sözlə, hadisə bir neçə kritik məsələlərdə, təhlükəsizlik, enerji, hökumətə etimad və seçkiqabağı mübarizədə narahatlıqlar yaradıb.

# Daxili parçalanma və regional təhlükəsizlik riskləri

## *Ermənistanda parlament seçkiləri ərəfəsində siyasi gərginlik artır*

**Hakimiyyət və müxalifət arasında münasibətlər kəskin ideoloji və iqtisadi qarşıdurma müstəvisinə keçib. Baş nazir Nikol Paşinyanın "Demokratik Ermənistan" və "Regionda sülh" platformasına alternativ olaraq, Samvel Karapetyanın rəhbərlik etdiyi "Güclü Ermənistan" bloku və digər müxalif qüvvələr "İqtisadi təhlükəsizlik və Rusiya ilə strateji ittifaq" modelini təklif edirlər. Bu rəqabət, sadəcə, hakimiyyət uğrunda mübarizə deyil, ölkənin gələcək onilliklər üçün xarici siyasət kursunun müəyyənləşdirilməsi prosesidir.**



Karapetyanın rəhbərlik etdiyi müxalifət cinahı Paşinyan administrasiyasını ölkəni "iqtisadi intihara" sürükləməkdə ittiham edir. Onlar iddia edirlər ki, Rusiya ilə münasibətlərin soyuması Ermənistanı ucuz enerji resurslarından məhrum edəcək, kənd təsərrüfatı ixracını dayandıracaq və yüz minlərlə mövsümi işçinin gəlir mənbəyini itirməsinə səbəb olacaq. Müxalifət liderləri Paşinyanın "Avropa xəyalları"nın reallıqda "soyuq mənzillər və boş soyuducular" vəd etdiyini bildirərək, sosial narazılığı siyasi dəstəyə çevirməyə çalışırlar.

İqtisadi göstəricilər Ermənistanın Rusiyadan kritik asılılığının davam etdiyini təsdiqləyir: ölkənin xarici ticarət dövriyyəsinin təxminən 35 faizi, qaz idxalının isə 80 faizdən çoxu məhz Rusiyanın payına düşür. Karapetyan bu rəqəmlərə istinad edərək Paşinyanın Qərbə yönəlmə cəhdlərini "iqtisadi sarsıntıya yol açan avantüra" kimi qiymətləndirir: "Dost Rusiyanı regionumuzdan sıxışdırıb çıxarmaq nəyə lazımdır? Onun varlığı Ermənistanın digər güc mərkəzləri ilə əməkdaşlığına heç vaxt mane olmayıb".

Karapetyanın qənaətinə görə, uğurlu siyasət üçün "siyasi çeviklik və sağlam düşüncə" kifayətdir. O, baş naziri həmvətənlərinin rifahına biganə qalmaqda və insanları uydurma müharibə təhdidləri ilə qorxudaraq hakimiyyəti əldə saxlamağa çalışmaqda günahlandırır: "Biz bu kiçik qrupu kənarlaşdıracaq və regionun bütün ölkələri, eləcə də qlobal güc mərkəzləri ilə balanslı dostluq münasibətləri quracağıq. Gürcüstan və Ukrayna nümunələri göz önündədir. Bizə yeni müharibələr lazım deyil. Paşinyana səs vermək yoxsulluq, düşmənçilik və iqtisadi çöküşə səs verməkdir. Biz isə güclü iqtisadiyyat, birlik və uzunmüddətli sülh vəd edirik".

Nikol Paşinyan administrasiyası isə yaxınlaşan seçki marafonunda əks-hücum strategiyasının mərkəzinə müxalifəti "keçmişin qalıqları" və "müharibə partiyası" kimi etiketləmək taktikası qoyub. Baş nazir Robert Koçaryan, Serj Sarkisyan və Samvel Karapetyan kimi fiqurları vahid "revanşist blok" olaraq təqdim edir. Onun əsas arqumenti ondan ibarətdir ki, bu qüvvələrin hakimiyyətə qayıdışı Azərbaycanla davam edən sülh prosesini sabotaj edəcək və Ermənistanı yeni, daha dağıdıcı hərbi fəlakətə sürükləyəcəkdir. Seçicilərə "Real Ermənistan" konsepsiyasını təklif edən Paşinyan keçmiş rəhbərləri 30 il boyu xalqı "status-kvo" və "miatsum" illüziyaları ilə aldatmaqda, real dövlətçilik imkanlarını qurban verməkdə günahlandırır. Bu arqument Paşinyanın kampaniya nitqlərinin leytmotivinə çevrilib və seçicilərə "sülh və təhlükəsizlik" motivi ilə müraciət kimi təqdim edilir.

Hadisələrin bu fonunda hər iki tərrəfin çatışmayan tərəfləri də var. Müxalifət düşərgəsindəki dərin daxili bölünmələr bu siyasi mənzərəni daha da mürəkkəbləşdirir. Onun vahid cəbhədən və tək namizədlə çıxış edə bilməməsi, cəmiyyətin tərəddüd edən hissəsində etimadsızlıq yaradır. Bu dağınıqlıq Paşinyan administrasiyası üçün həm siyasi manevr imkanı, həm də "alternativsizlik" imici yaratmaq üçün sığorta funksiyasını yerinə yetirir.

Nikol Paşinyanın komandası isə iqtisadi diversifikasiyanın yeganə yolunu Avropa İttifaqı və ABŞ-dan gələn maliyyə yardımlarında, habelə Qərb bazarlarına çıxış vədlərində görür ki, bu da seçki öncəsi müəyyən narahatlıqlar yaradır. Çünki Qərb investisiyalarının gözlənilən sürətlə daxil olmaması və Avropa bazarının Ermənistanın kənd təsərrüfatı məhsulları üçün hələ də əlçatanlığının zəifliyi Paşinyanın zəif nöqtəsinə çevrilir. Bu iqtisadi boşluq beynəlxalq güclərin ölkəyə təsir imkanlarını artıraraq seçkilərin geosiyasi xarakterini kəskinləşdirir. Rusiyaya öz hərbi bazası və enerji rıçaqları vasitəsilə Paşinyanın "Qərbə qaçış" cəhdini önləməyə, Cənubi Qafqazda zəifləmiş mövqelərini bərpa etməyə imkan verir. Qarşı tərəfdə isə ABŞ və Aİ Ermənistanı demokratik islahatlara görə dəstəkləyir, ona "Sülh kəsişməsi" kimi regional layihələr və hərbi-təhlükəsizlik sahəsində alternativ platformalar təklif edir. Amma hələlik təklifdən o yana keçmir.

Bunlar daxili qeyri-sabitlik isə regional təhlükəsizlik üçün ikiqat risk daşıyır. Birincisi, müxalifətin hakimiyyəti ələ keçirmək naminə istifadə etdiyi populist və aqressiv ritorika Ermənistan cəmiyyətində yanlış ehtimallar yaradır. "İtirilmiş mövqelərin bərpası" kimi qeyri-real vədlər sülhə qarşı radikal müqaviməti stimullaşdırır ki, bu da rəsmi İrəvanın sülh müqaviləsi üzrə danışıqlarda manevr imkanlarını daraldır və prosesi illərlə ləngidə bilər. İkincisi, idarəolunmaz siyasi gərginlik fonunda hakimiyyətin və ya revanşist qüvvələrin diqqəti daxili problemlərdən yayındırmaq, yaxud rəqibini zəif göstərmək üçün sərhədyanı təxribatlara əl atma ehtimalını artırır.

Azərbaycan üçün bu şəraitdə əsas hədəf beynəlxalq hüquq çərçivəsində əldə olunmuş razılaşmaların, xüsusilə delimitasiya prosesinin və regional kommunikasiyaların (Zəngəzur dəhlizi daxil olmaqla) açılması layihələrinin geridönməzliyini təmin etməkdir. Ermənistandakı böhran fonunda Azərbaycan həm hərbi hazırlığını ən yüksək səviyyədə saxlamalı, həm də beynəlxalq müstəvidə Ermənistanın üzərinə götürdüyü öhdəlikləri xatırladan preventiv diplomatiya yürütməlidir. Bu, təkcə milli təhlükəsizliyin deyil, həm də Cənubi Qafqazın transmilli nəqliyyat və enerji xəritəsinin sabitliyinin təminatıdır.

Mövzu ilə bağlı **politoloq İlqar Hüseynli** XQ-ya bildirdi ki, Ermənistanda 7 iyun



parlament seçkilərinə doğru gedən proses, sadəcə, daxili siyasi rəqabət deyil, Cənubi Qafqazın növbəti onilliklərdəki təhlükəsizlik arxitekturasını müəyyən edəcək mərhələdir: "Bakı üçün prioritet məsələ Ermənistanda kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq, əldə olunmuş razılaşmaların və regional kommunikasiyaların açılması layihələrinin geridönməzliyini təmin etməkdir. Ermənistan cəmiyyəti anlamalıdır ki, onların seçimi yalnız siyasi lider seçimi deyil, həm də iqtisadi təcrid ilə regional inteqrasiya arasında bir seçimdir.

Ermənistan cəmiyyətinin qarşıdan gələn seçkilərdə verəcəyi qərar təkcə bu ölkənin iqtisadi rifahını və ya Rusiya–Qərb seçimini deyil, həm də Cənubi Qafqazda uzunmüddətli sülhün, yeni kommunikasiya xətlərinin açılmasının və regional sabitliyin gələcək konfiqurasiyasını müəyyən edəcəkdir. Ermənistanın ya regional əməkdaşlığa inteqrasiya edərək suveren inkişaf yolunu seçəcəyi, ya da daxili çəkişmələr və xarici güclərin təsir dairəsində qalaraq təcrid olunmuş vəziyyətini davam etdirəcəyi məhz bu siyasi proseslərin nəticəsindən asılı olacaqdır".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Məğlub ölkəyə nicat gətirəcək sülh sınağı

**Cənubi Qafqazda çox vaxt məkanın özü siyasi mesajın daşıyıcısına çevrilir. İrəvanın da Avropa Siyasi Birliyinin (ASB) VIII sammitinə ev sahibliyi etməsi onun özünü hansı siyasi koordinatlarda yerləşdirmək istədiyini göstərən simvolik və strateji addımdır.**



Ermənistan uzun illər təhlükəsizlik baxımından bir geosiyasi dayağa – Rusiyaya söykənmişdi. Lakin son illər baş verən proseslər, xüsusilə regional münaqişədən sonrakı reallıqlar və qlobal güc balansındakı dəyişikliklər İrəvanı yeni axtarışlara sövq edib. ASB sammiti məhz bu axtarışların institusional ifadəsi kimi çıxış edir. Baş nazir Nikol Paşinyanın sammitin “böyük siyasi əhəmiyyət daşıdığı” ilə bağlı ifadəsinin arxasında daha mürəkkəb siyasi hesab dayanır.

Burada əsas analitik düyün yaranır: İrəvan bu sammiti beynəlxalq imicini yaxşılaşdırmaq üçünmü istifadə edir, yoxsa onu daxili və xarici siyasətdə real dönüş nöqtəsinə çevirməyə hazırlaşır? Əgər məsələ yalnız imicdirsə, onda Ermənistan “kiçik dövlət diplomatiyası” modelinə uyğun hərəkət edir – böyük platformalarda görünmək, siyasi diqqət qazanmaq və özünü beynəlxalq gündəmdə saxlamaq. Belə olan halda sammit qısamüddətli nüfuz dividendləri gətirə bilər, lakin uzunmüddətli strateji nəticələr doğurmaz.

Amma əgər İrəvan bu platformanı transformasiya aləti kimi görürsə, vəziyyət köklü şəkildə dəyişir. Bu, o demək olardı ki, Ermənistan artıq regional siyasətdə daha praqmatik xəttə keçməyə, qonşularla münasibətləri funksional əsasda qurmağa və ən əsası, postmünaqişə reallıqlarını qəbul edərək yeni təhlükəsizlik modelinə inteqrasiya olunmağa hazırdır. Məhz bu nöqtədə “sülh sınağı” anlayışı aktuallaşır. Çünki sammiti Ermənistanın, eyni zamanda, regiona – xüsusilə Azərbaycana ünvanlanmış siyasi siqnalı kimi dəyərləndirə bilərik.

### “Sülh sınağı” nə deməkdir?

ASB-ni İrəvan sammitində əsas söhbət daha dərin məqamdan – Ermənistanın postmünaqişə dövründə siyasi davranış modelini necə formalaşdıracağından gedir. Cənubi Qafqazda artıq yeni status-kvo formalaşıb və bu reallıq əvvəlki illərin siyasi düşüncə çərçivəsini faktiki olaraq sıradan çıxarıb. Bu şəraitdə əsas məsələ reallığı necə idarə etməkdir. Ermənistan son dövrlər sülh gündəliyinə sadiqlik nümayiş etdirməyə çalışır. Lakin diplomatiyada söz ilə əməl arasındakı məsafə bəzən çox böyük olur və məhz bu məsafə siyasi etimadın əsas ölçü vahidinə çevrilir.

Burada əsas analitik sual ortaya çıxır: Ermənistan doğrudanmı yeni regional reallığı daxili və xarici siyasətində əsas xətt kimi qəbul edib? Sualın cavabı hələlik natamamdır. Regional kommunikasiyaların açılması məsələsində Ermənistanın hansı praktik addımları atmağa hazır olduğu, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə nə qədər konstruktiv yanaşdığı və ən əsası, sülh müqaviləsinə doğru siyasi iradə nümayiş etdirib-etdirmədiyi bu sammitdən sonra daha aydın görünəcək. Əgər İrəvan bu məsələlərdə prinsipial və ardıcıl mövqe ortaya qoya bilsə, o zaman sammit Ermənistan üçün diplomatik uğurdan daha artıq məna kəsb edəcək: bu, ölkənin strateji kursunun dəyişdiyini göstərən siqnal kimi qəbul olunacaq. Əks halda, yaranan mənzərə fərqli olacaq: beynəlxalq platformada səsləndirilən sülh mesajları ilə reallıq arasındakı uyğunsuzluq görünən hala gələcək.

### Bakı prosesi necə dəyərləndirir?

Bakı bu prosesi daha çox siyasi niyyətlərin yoxlanıldığı mərhələ kimi oxuyur. Çünki postmünaqişə dövründə əsas problem artıq siyasi etimadın formalaşmasıdır və bu etimad yalnız konkret addımlar üzərindən qurula bilər. Azərbaycanın gözləntiləri prinsip etibarilə yeni deyil,



lakin mövcud mərhələdə daha konkret və ölçüləbilən xarakter alıb. Bakı uzun müddətdir ki, münasibətlərin normallaşmasını hüquqi çərçivəyə salacaq sülh müqaviləsinin imzalanmasını prioritet kimi irəli sürür. Əgər bu tədbir tərəflər arasında dialoqu intensivləşdirərsə və konkret nəticələrə doğru hərəkət müşahidə olunarsa, o zaman onun real geosiyasi çəkisi formalaşa bilər. Digər mühüm məsələ regionda kommunikasiyaların açılmasıdır. Orta Dəhlizin qlobal əhəmiyyətinin artdığı bir dövrdə Zəngəzur istiqaməti artıq daha geniş iqtisadi və geosiyasi kontekst daşıyır. Bakı üçün burada əsas gözlənti siyasi razılaşmaların praktik mərhələyə keçməsidir. Çünki kommunikasiya xətləri qarşılıqlı asılılıq mühiti formalaşdıraraq uzunmüddətli sabitliyin əsasını qoyur.

Amma bütün bunların üzərində dayanan daha fundamental bir məsələ var – siyasi ritorikanın transformasiyası. Azərbaycan üçün Ermənistanın keçmiş münaqişə narrativindən tam uzaqlaşması həlledici əhəmiyyət daşıyır. Əgər ritorika dəyişməz qalarsa, istənilən razılaşma kövrək olacaq.

***

İrəvanda keçiriləcək ASB sammiti, əslində, daha geniş geosiyasi oyunun fraqmentidir. Burada iştirak edən aktorların hər biri bu platformanı öz strateji məqsədləri üçün istifadə etməyə çalışır. Ermənistan və Azərbaycan üçün bu sammit birbaşa siyasi nəticələr doğura biləcək hadisədirsə, böyük güclər üçün təsir zonalarının yenidən formatlaşdırıldığı bir alətdir. Avropa bu prosesdə nə qazanmağa çalışır? Avropa İttifaqı son illər Cənubi Qafqaza münasibətdə daha fəal siyasi xətt formalaşdırmağa başlayıb.

Enerji təhlükəsizliyi, nəqliyyat marşrutlarının şaxələndirilməsi və Şərq qonşuluğunda sabitlik kimi faktorlar Brüsseli regiona daha dərindən cəlb edir. İrəvanda sammit keçirməklə Aİ faktiki olaraq mesaj verir ki, Cənubi Qafqaz artıq onun siyasi dialoq məkanının kənarında deyil. Eyni zamanda, Avropa üçün bu platforma vasitəçilik rolunu gücləndirmək baxımından da əhəmiyyətlidir. Ermənistan–Azərbaycan münasibətlərində dialoq üçün əlavə kanalların yaradılması Brüsselə regionda “sabitləşdirici aktor” kimi mövqelənmək imkanı verir.

### Moskva üçün rəqabət ünvanı

Digər tərəfdən, bu proses Moskvanın diqqətindən kənarda qala bilməz. Burada növbəti analitik sual ortaya çıxır: Rusiya bu dinamikanı necə oxuyur? Mövcud reallıq göstərir ki, Kreml bu cür təşəbbüsləri öz təsir dairəsinə alternativ mexanizmlər kimi qiymətləndirir. Tarixən, Cənubi Qafqaz Rusiyanın prioritet geosiyasi məkanlarından biri olub və bu regionda hər hansı yeni aktorun fəallaşması avtomatik olaraq rəqabət elementi yaradır.

Moskva üçün ASB kimi formatların genişlənməsi təsir imkanlarının nisbi daralması kimi qəbul edilə bilər. Xüsusilə Ermənistanın bu platformalarda fəal iştirakı Kremlin ənənəvi müttəfiq modeli baxımından suallar doğurur. Çünki bir tərəfdən İrəvan yeni tərəfdaşlıqlar qurmağa çalışır, digər tərəfdən isə mövcud təhlükəsizlik arxitekturasından tam şəkildə uzaqlaşmaq imkanları məhduddur. Nəticədə, ortaya belə bir mənzərə çıxır: hər kəs bu sammitdən nəsə qazanmağa çalışır, lakin əsas məsələ kimin nəyi nə qədər davamlı şəkildə əldə edə biləcəyidir.

Nikol Paşinyan hökumətinin qarşısında duran əsas dilemma zahirən sadə görünür, lakin onun nəticələri həm Ermənistanın daxili siyasi gələcəyinə, həm də regionun geosiyasi arxitekturasına birbaşa təsir edə biləcək qədər mürəkkəbdir. Söhbət siyasi davranışın mahiyyətindən gedir. Ermənistan uzun müddət müxtəlif güc mərkəzləri arasında manevr edərək öz təhlükəsizlik modelini qorumağa çalışıb. Lakin postmünaqişə dövrü bu manevr imkanlarını daraldıb və indi daha aydın, daha konkret seçimlər tələb edir. Maraqlıdır ki, Ermənistan beynəlxalq platformalarda səsləndirdiyi sülh mesajlarını real siyasətə çevirə biləcəkmi?

Əgər İrəvan bu istiqamətdə ardıcıl və prinsipial xətt seçərsə, o zaman ASB sammiti Ermənistan üçün diplomatik dönüş nöqtəsi kimi tarixə düşə bilər. Bu halda ölkə regionda yeni əməkdaşlıq modelinin iştirakçısına çevrilə, iqtisadi və nəqliyyat layihələrindən daha geniş fayda əldə edə və ən əsası, təhlükəsizlik mühitini konfrontasiyadan əməkdaşlığa doğru dəyişə bilər. Bu ssenari Ermənistanın geosiyasi mövqeyini də gücləndirər, onu aktiv aktora çevirər.

Lakin alternativ ssenari də istisna deyil və o, daha çox risklərlə müşayiət olunur. Əgər səsləndirilən sülh mesajları praktiki addımlarla dəstəklənməzsə, o zaman yaranan ziddiyyət daha da dərinləşəcək. Belə olan halda İrəvan sammiti nə qədər genişmiqyaslı və diqqətçəkən olsa belə, onun siyasi çəkisi simvolik səviyyədən yuxarı qalxmayacaq. Ermənistan isə yenidən geosiyasi qeyri-müəyyənlik zonasına sürüklənə bilər – nə tam şəkildə yeni tərəfdaşlıqlara inteqrasiya olunmuş, nə də əvvəlki təhlükəsizlik sisteminə güvənə bilən bir vəziyyətə.

Son olaraq qeyd edək ki, əgər Ermənistan bu mərhələdə aydın və ardıcıl seçim edə bilsə, regionda qarşılıqlı asılılığa əsaslanan yeni əməkdaşlıq modeli formalaşa bilər. Əks halda, qeyri-müəyyənlik davam edəcək və bütövlükdə regionun inkişaf potensialını məhdudlaşacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Sarkisyanın siyasi nekroloqu

## *“Respublika” partiyasının seçkiyə qoşulmaması gücsüzlüyün etirafıdır*

**İyunun 7-də Ermənistanda keçiriləcək növbəti parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasına hələ rəsmən start verilməsə də, siyasi qüvvələr artıq qeyri-rəsmi şəkildə təbliğata başlayıblar. Baş nazir Nikol Paşinyan rəhbərlik etdiyi “Mülki müqavilə” partiyasının rəhbər şəxsləri, nazirlərlə birgə bölgələrə səfərlər edir, seçicilərlə görüşlər keçirir. Bu günlərdə ölkənin ikinci prezidenti, Azərbaycana qarşı qanlı etnik separatizmin və işğalçı müharibənin əsas iştirakçılarından olan “Hayastan” blokunun namizədi Robert Koçaryan da tərəfdarları ilə görüşlər keçirir. O, ənənəvi ritorikasına sadiq qalaraq Paşinyan hakimiyyətini “bacarıqsız” adlandırır.**



Bütövlükdə, seçkilərdə hansı qüvvələrin iştirak edəcəyi əsasən dəqiqləşib. Bura N.Paşinyanın başçılığı altında hakim “Mülki müqavilə” partiyası, R.Koçaryanın “Hayastan” bloku (blokda Erməni İnqilabi Federasiyası – “Daşnaksütyun” və Sevak Xaçatryanın rəhbərlik etdiyi sağ mərkəzçi “İrəli” partiyası cəmləşib), oliqarx Samvel Karapetyanın “Güclü Ermənistan” (bu bloku “Birləşmiş ermənilər” və “Yeni dövr” partiyası yaradıb) daxildir. Oliqarx Qaqik Çarukyan “Ermənistan üçün təkliflər” təşəbbüsünü irəli sürərək prosesdə iştirakını bəyan edib. Seçkilərdə, həmçinin keçmiş ombudsman Arman Tatoyanın “Birlik qanadları” təşəbbüsü və birinci prezident Levon Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresi də iştirak edəcək. Erməni Milli Konqresi baş nazirliyə Levon Zurabyanın, “Yeni qüvvə” partiyası isə İrəvanın sabiq meri Ayk Marutyanın namizədliyini irəli sürüb.

Ölkənin üçüncü prezidenti, separatçı əməllərdə və işğalçılıqda R.Koçaryandan heç də geri qalmayan Serj Sarkisyanın partiyası isə parlament seçkilərində iştirak etməyəcəyini bəyan edib. Keçmiş prezidentin rəhbərlik etdiyi “Respublika” partiyası hərtərəfli müzakirədən sonra bu qərara gəlib. Açıqlanan məlumatda bildirilib ki, müxalifət qüvvələrinin səslərinin parçalanmasının qarşısını almaq üçün seçkilərdə iştirak etməmək qərarı verilib. Bununla belə, S.Sarkisyan tərəfdarlarını müxalifət qüvvələrinə səs verməyə çağırıb. O, R.Koçaryan blokunun qarşıdakı parlament seçkilərində uğur qazanmasında maraqlı olduğunu bildirib.

***

Sarkisyanın partiyasının məlum qərarı Ermənistanda müzakirələrə yol açıb. O cümlədən media bu qərarın verilməsinin səbəblərini hərtərəfli təhlil edir. Belə yazılardan biri analitik məqalələr üzrə ixtisaslaşmış “ArmenianReport” saytında yerləşdirilib. “Respublika” partiyası və Sarkisyan: kamuflyaj, yoxsa nekroloq?” sərlövhəli məqalədə oxuculara “Heç düşündünüzmü, “Respublika” partiyası niyə seçkilərdə müstəqil iştirak etmir?” sualı ünvanlanıb. Qeyd edilib ki, “Respublika” Partiyasının iyunda keçiriləcək parlament seçkilərinə öz siyahısı ilə qatılmamaq qərarı sıradan təşkilati və ya seçkiqabağı xəbər hesab oluna bilərdi, əgər bunun arxasında erməni cəmiyyətinin çox yaxşı xatırladığı bir tarix dayanmasaydı: “Əvvəlcə qeyd edək ki, “Respublika” partiyasının iyunun 7-də keçiriləcək parlament seçkilərində birbaşa iştirak etməyəcəyi bir neçə gün öncə məlum olub. Bu qərar partiyanın icra orqanının iclasında qəbul edilib. İclasda “Respublika”nın seçkilərdə iştirakı məsələsi müzakirə olunub və geniş təhlildən sonra partiyanın seçkilərdə “birbaşa formatda” iştirak etməməsi barədə qərar verilib. Qərarın əsaslandırılması və partiyanın sonrakı addımları isə yaxın günlərdə keçiriləcək 18-ci qurultayda açıqlanacaq.

Əslində, daha hansı əsaslandırmaya ehtiyac var? “Respublika” Serj Sarkisyanın partiyasıdır. Onun onillik hakimiyyəti ölkənin kollektiv yaddaşında elə dərin izlər buraxıb ki, heç bir siyasi rebrendinq bunu silə bilməz. Partiyanın “birbaşa formatda iştirak etməmək” barədə qərarı isə qəsdən qeyri-müəyyən ifadədir, manevr üçün yer saxlayır. Amma yaxın günləri və respublikaçıların hansısa izahını gözləməyə dəyməz: Ermənistan siyasətinin “riyaziyyatı” çoxdan hər şeyi Sarkisyanın əvəzinə izah edib”.

Bildirilib ki, 2018-ci il dekabrın 9-da keçirilən növbədənkənar parlament seçkilərdə, “məxməri inqilab”ın yaratdığı ümumxalq inkarı dalğasında “Respublika” partiyası 5 faizlik baryeri aşa bilmədi: “Bir vaxtlar hakim olmuş, inzibati resurslara, loyal məhkəmələrə və işlək repressiv maşına sahib olan bu partiya dövlət himayəsindən məhrum olan kimi uduzdu. O vaxtdan 8 il keçib, amma mahiyyətcə heç nə dəyişməyib – sadəcə, Sarkisyanın şəxsi reytinqi o qədər aşağı düşüb ki, onun seçkilərdə iştirakı artıq hər hansı siyasi məna daşımır. Müstəqil siyahı isə açıq və sənədləşdirilmiş yeni bir fiasko demək olardı. Gözlənilən qurultayı bu qərara yalnız partiya-prosedur bəzəyi vuracaq”.

Müəllif yazır ki, Sarkisyanın adı Ermənistanın 2018-ci ilin yazından bəri uzaqlaşama çalışdığı bütün neqativlərlə bağlıdır: “Bura dövlət aparatına hopmuş korrupsiya, kabinetlərə yaxınlığın qaydaları dəyişdirdiyi oliqarxik idarəçilik, 2020-ci ildə faciə ilə nəticələnən ordudakı tənəzzül, kütləvi miqrasiya – insanların səs vermək imkanı olmadıqda “ayaqları ilə necə səs verdiyinin” ən bariz göstəricisi və nəhayət, Ermənistanın Moskvanın tam asılılığında olan dövlətə çevrilməsi daxildir. Elə bir asılılıq ki, Sarkisyan bunu nə gizlədirdi, nə də ondan çəkinirdi, əksinə, strateji yol kimi təqdim edirdi. İnsanlar bütün bunları unutmayıblar. Məhz buna görə RPA başqasının siyahısının kölgəsinə çəkilir”.

Bildirilir ki, blok strategiyası yeganə çıxış yoludur: “Sarkisyan öz adamlarını başqa ad altında parlamentə salmağa çalışacaq, “Respublika” partiyasının toksik brendini koalisiya abreviaturasında “əritməyə” cəhd edəcək. Texniki baxımdan bu mümkündür və 2021-ci il seçkiləri bunu göstərdi. Lakin son 8 ildə həm inqilab, həm müharibə, həm də acı təcrübələr yaşamış Ermənistan seçicisi artıq siyasi kamuflyajlara qarşı dayanıqlı immunitet qazanıb. Sarkisyan hər blokda tanınır – soyadlar, simalar, ritorika, əlaqələr vasitəsilə. Sual yalnız budur: bu tanınma nəticədə neçə mandat “qazana” bilər?”

Qeyd edilib ki, qərarın məhz indi – seçkilərə 2 ay qaldığı bir vaxtda verilməsi də təsadüfi deyil. “Bu, uzaqgörən strategiya deyil, sadəcə, faktın partiya proseduruna bükülmüş etirafıdır. “Respublika” partiyası seçkilərdə müstəqil iştirak etmir, çünki belə iştirak nəticəni yalnız bir cür izah edərdi: üçüncü prezident üçün yekun siyasi nekroloq kimi. Blok isə ən azı “mövcudluq illüziyası” və parlamentdə bir neçə yer qazanmaq şansı verir. Dünənə qədər Ermənistan siyasətinə təkbaşına yön verən bir partiya üçün bu, əlbəttə ki, triumf deyil. Bu, sadəcə səssiz etirafdır: bir epoxa başa çatıb – və bu dəfə geri dönüş hüququ olmadan”, – deyə məqalənin sonunda bildirilib.

Bu fikirlərə yalnız onu əlavə etmək qalır ki, Sarkisyanın siyasi səhnədən çəkilməsi, sadəcə, seçim taktikasının deyil, uzun illər ölkəni uçuruma aparmış idarəçilik modelinin iflasının təsdiqidir. Hakimiyyətinin bütün mərhələlərində o, şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutdu və Ermənistanı həm daxildə, həm də regionda dalana dirədi. Bu gün onun partiyasının seçkilərdən qaçması təsadüfi deyil. Cəmiyyət korrupsiyanın, özbaşınalığın və avantürist qərarların müəllifini geri qaytarmaq niyyətində deyil.

Sarkisyanın siyasi fiqur kimi çoxdan dəyərdən düşməsinin ən mühüm səbəblərindən biri də Azərbaycanla münasibətləri illərlə düşmənçilik üzərində qurmasıdır. O, separatizmi alətə çevirərək regionda gərginliyi davamlı şəkildə qidalandırdı və nəticədə Ermənistanı uzunmüddətli zərərli qarşıdurmanın girovuna çevirdi. Məhz onun dövründə atılan yanlış addımlar həm Ermənistanın hərbi məğlubiyyətinə, həm də beynəlxalq nüfuzunun çökməsinə gətirdi.

Bu gün Ermənistan cəmiyyətinin ona göstərdiyi etimadsızlıq əslində, tarixin gecikmiş ədaləti, Azərbaycanın ərazi bütövlüyünü tanımağa yönəlmiş siyasətlərin müəllifinə verilən obyektiv qiymətdir.

***Səxavət HƏMİD***
***XQ***

# İrəvanın “üçüncü ölkə” arzusu puç olur

## *Moskva Ermənistan dəmir yolunun idarəçiliyini əldən vermək istəmir*

**Qazaxıstan hazırda Ermənistanın dəmir yollarına dair Rusiyaya məxsus konsessiyanın alınması ilə bağlı hər hansı danışıqlar aparmır. Bu barədə “İnterfaks-Qazaxıstan” agentliyinə həm “Qazaxıstan Dəmir Yolları” Səhmdar Cəmiyyətindən, həm də ölkənin Nəqliyyat Nazirliyindən məlumat verilib.**



Qazax dilində abreviaturası KTJ (“Kazakstan temir jolı”) olan səhmdar cəmiyyətdən agentliyin sorğusuna verilən cavabda deyilir: “KTJ-yə Qazaxıstan tərəfinin Ermənistan dəmir yollarının idarə olunmasına dair Rusiya konsessiyasını əldə etməsi ilə bağlı hər hansı rəsmi sənəd daxil olmayıb”. Nəqliyyat Nazirliyindən də bildirilib ki, “bu günə olan məlumata görə, Qazaxıstan tərəfinin Ermənistan dəmir yollarına dair Rusiyaya məxsus konsessiyanın alınması istiqamətində danışıqlar aparılmır”.

Məlumat üçün bildirək ki, konsessiya dövlətllə özəl şirkət arasında bağlanan əməkdaşlıq modelidir. Bu model çərçivəsində dövlətə məxsus təbii sərvətlər, dövlətin mülkiyyətində olan sənaye müəssisələri, infrastruktur obyektləri və ya xidmət sahələri müəyyən müddətə istismar üçün özəl sektora verilir. Buna dair razılaşma, müqavilə imzalanır. Ermənistanın dəmir yolları şəbəkəsinin idarəetməsi 18 ildir ki, “Cənubi Qafqaz Dəmir Yolları” (CQDY) Qapalı Səhmdar Cəmiyyətinin əlindədir. CQDY isə “Rusiya Dəmir Yolları” ASC-nin 100 faizlik törəmə şirkətidir. 2008-ci il fevralın 13-də İrəvanda “Rusiya Dəmir Yolları” ASC ilə Ermənistan Respublikası arasında dövlətə məxsus “Ermənistan Dəmir Yolları” QSC-nin idarəetməsinin “Cənubi Qafqaz Dəmir Yolları” QSC-yə verilməsi barədə konsessiya müqaviləsi imzalanıb.

İndi isə Ermənistan hakimiyyəti dəmir yollarının konsessiya idarəçiliyinin həm Ermənistan, həm də Rusiya ilə dost münasibətləri olan üçüncü ölkəyə verilməsini istəyir. Baş nazir Nikol Paşinyan 2026-cı ilin fevralında ölkə dəmir yolunun müəyyən hissələrinin konsessiyasını Rusiya və Ermənistana dost olan bir dövlətə, xüsusən də Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri və ya Qətərə satmağı nəzərdən keçirdiklərini bildirmişdi. Paşinyan az sonra belə bir təklifi Rusiya tərəfinə təqdim etmiş və bunu Ermənistan dəmir yolu şəbəkəsinin Rusiya tərəfindən idarə olunması şəraitində Ermənistanın rəqabət üstünlüklərindən məhrum olması ilə əsaslandırmışdı. Qeyd etmişdi ki, Rusiya tərəfindən idarə olunduğu üçün Ermənistan dəmir yolu şəbəkəsindən istifadə etmək perspektivindən imtina edən ölkələr var. Paşinyan Rusiyanın razılıq verəcəyi təqdirdə, Qazaxıstanın bu konsessiyanı əldə etməsinə Ermənistanın etiraz etməyəcəyini bildirmişdi. Ermənistanın Baş naziri martın 26-da yenidən bu məsələyə qayıtmış, əvvəllər Rusiyaya təqdim etdiyi təklifə istinad edərək, Ermənistan dəmir yollarının konsessiya idarəçiliyinin üçüncü ölkəyə verilməsi təklifindən danışmışdı. Həmin gün hökumət iclasından sonra keçirdiyi brifinqdə ölkəsinin dəmir yolu şəbəkəsinin Qazaxıstan tərəfinin idarəçiliyinə verilməsi ilə bağlı müzakirələrin aparıldığı barədə məlumatların doğru olub-olmadığına münasibət bildirən Paşinyan demişdi ki, Rusiya ilə Ermənistan arasında Qazaxıstan şirkətinin hər iki ölkə üçün məqbul olduğu barədə qarşılıqlı anlaşma olsa, etiraz etməzlər: “İndi danışıqlar bir az fərqli gedir, çünki rusiyalı tərəfdaşlar hələ “yaxşı, gəlin bunu edək” deməyiblər. Belə ideyalar mövcuddur, amma onlar yalnız ideyalardır”. Paşinyan qeyd etmişdi ki, bir neçə gün əvvəl Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı Ermənistanın dəmir yolu ilə bağlı məsələ müzakirə olunub. Lakin o, bu məsələdə yenilik olmadığını, iş prosesinin davam etdiyini əlavə etmişdi.

***

Ancaq Moskva CQDY-dəki konsessiyasını heç kəsə güzəştə getmək niyyətində deyil. Hələ fevral ayında ölkənin Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Ermənistan hakimiyyətinin dəmir yolu idarəetməsində Rusiyanı əvəz etmək istəyini “üzərində işlənilməmiş həll yolu” adlandırmışdı. Şoyqu TASS-a verdiyi müsahibədə demişdir: “Digər ölkələrin dəmir yollarını idarə etmək səriştəsini qiymətləndirməyəcəm, amma əminliklə deyə bilərəm ki, başqa bir şirkətin Ermənistanda uzun müddətdir yaxşı şərtlərdən uzaqda effektiv şəkildə fəaliyyət göstərən Rusiya dəmir yolu daşıyıcısını tam əvəz edə bilməsi ehtimalı azdır”.

Şoyqu xatırlatmışdı ki, CQDY təxminən, 20 ildir investisiyalarla bağlı müddəalar da daxil olmaqla, konsessiya müqaviləsinin müddəalarını məsuliyyətlə yerinə yetirir. Onun sözlərinə görə, bu müddət ərzində Rusiyanın Ermənistan dəmir yolu sisteminə, o cümlədən dəmir yolu nəqliyyatına yatırdığı investisiyaların həcmi 30 milyard rubldan çox qiymətləndirilir: “İndi isə Nikol Paşinyan Ermənistanın dəmir yollarının Rusiya şirkətinə güzəştə getməsinin potensial tərəfdaşları qorxutduğunu, regional layihələrə mane olduğunu və Ermənistanın dəmir yolu şəbəkəsinə nəzarəti həm Rusiya, həm də Ermənistan üçün dost bir ölkəyə ötürməyi düşündüyünü deyir. Diplomatik olaraq desək, belə düşünülməmiş qərarlar adi Ermənistan vətəndaşlarının ödəməli olacağı eyni dərəcədə təhlükəli təcrübələrə səbəb ola bilərmi? Təxminən 20 il ərzində qurulan sistem bir gecədə, sadəcə, çökə bilər”.

Aprelin 1-də keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirmişdi ki, Moskva Ermənistan dəmir yollarının konsessiya idarəçiliyinin Qazaxıstana verilməsi ilə bağlı İrəvanla danışıqlar aparmır. Onun sözlərinə görə, martın 30-da Rusiyanın nəqliyyat naziri Andrey Nikitin bildirib ki, Ermənistan dəmir yollarının konsessiya idarəçiliyinin Qazaxıstana verilməsi barədə Moskva nə İrəvanla, nə də Astana ilə danışıqlar aparır: “Nəzərə almaq lazımdır ki, bu, profil qurumun rəhbəri tərəfindən verilən açıqlamadır. Mən də xatırlatmaq istərdim ki, Ermənistanla 2008-ci ildə imzalanan müqavilənin müddəti 30 ildir və daha 10 il müddətinə uzadıla bilər. Uzun illərdir ki, “Cənubi Qafqaz Dəmir Yolları” QSC bu müqavilənin şərtləri məsuliyyətlə icra edir. Rusiyanın Ermənistanın dəmir yollarının infrastrukturuna qoyduğu investisiyanın həcmi 30 milyard rubldan çox olub”.

***

İndi isə Qazaxıstan tərəfinin də belə açıqlama ilə çıxış etməsi göstərir ki, İrəvanın arzuladığı “üçüncü ölkə modeli” real siyasi gündəliyə çevrilmir. Paşinyan hakimiyyəti nə qədər çalışsa da, Ermənistanın dəmir yolu şəbəkəsinin idarəçiliyini Rusiyanın əlindən almaq, yaxud onu üçüncü tərəfə ötürmək cəhdləri kağız üzərində qalır. Qazaxıstanın bu istiqamətdə heç bir danışıqlar aparılmadığını rəsmən bildirməsi Kremlin mövqeyi ilə üst-üstə düşür. Astana heç vaxt Rusiyanın iradəsinə zidd addım atmaz, xüsusilə də strateji nəqliyyat infrastrukturu kimi həssas sahədə. Bu, Paşinyanın planının əsas dayaqlarından birinin çökməsi deməkdir. Ermənistan rəhbərliyi ümid edirdi ki, Rusiyanın razılığı ilə də olsa, dəmir yolu konsessiyasını Qazaxıstana ötürməklə həm Moskvanın təsirini zəiflədəcək, həm də özünü alternativ tərəfdaşlara açıq ölkə kimi təqdim edəcək. Lakin nə Qazaxıstan bu yükü üzərinə götürmək istəyir, nə də Rusiya buna yaşıl işıq yandırmağa hazırdır.

Moskvanın mövqeyi kifayət qədər sərt və aydındır: CQDY-yə yatırılan milyardlarla rubl, 20 ilə yaxın qurulmuş idarəçilik sistemi və dəmir yolunun strateji əhəmiyyəti heç bir halda üçüncü tərəfə güzəştə gedilməyəcək. Şoyqunun, Zaxarovanın açıqlamaları və indi də Astanadan verilən cavab göstərir ki, Paşinyanın “konsessiya manevri” siyasi reallıqla toqquşub. Ermənistan hakimiyyəti nə qədər təkliflər irəli sürsə və nə qədər “dost ölkə” axtarsa da, bu layihənin həyata keçməsi mümkün görünmür. Beləliklə, İrəvanın Rusiyanı sıxışdırmaq cəhdi yenə nəticəsiz qalır və Ermənistan dəmir yollarının gələcək taleyi hələ uzun müddət Moskvadan asılı olacaq.

***S.HƏMİD***
***XQ***

# Hay diasporunun “ayı” xidməti




## *Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurası “1915-ci il soyqırımı” ilə bağlı milli səfərbərlik elan edib*

**Dünyanın müxtəlif ölkələrindəki erməni diaspor təşkilatları siyasi təzyiq mexanizminə çevirdikləri növbəti ritualı həyata keçirirlər. Söhbət 1915-ci il hadisələrinin 111-ci ildönümü münasibətilə “əzabkeş xalqın sağalmayan yaralarına” göz yaşı axıtmaq, “günahkarları cəzalandırmaq, hayları tarixi torpaqlarına qaytarmaq üçün” dünyaya car çəkmək xəstəliyindən gedir. Əvvəlki illərdə olduğu kimi, bu dəfə də Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurası (CCAF) kampaniyaya fon verən statusundadır.**

Bu bədnam qurum “ümummilli erməni səfərbərliyi” üçün beş səbəb açıqlayıb. Həmin səbəblərlə tanışlıq erməni lobbisinin bölgədə və dünyada dəyişmiş reallığa uyğunlaşa bilmədiyini ortaya qoyur. Formal olaraq “səfərbərlik” tədbirləri Osmanlı İmperiyasında bir əsrdən çox əvvəl baş vermiş hadisələrin ildönümünə həsr olunsa da, mahiyyət etibarilə anti-Azərbaycan siyasi manifestini təmsil edir. Məqsədləri uydurma “tarixi yaddaş” pərdəsi altında suveren dövlətə qarşı məqsədyönlü kampaniya aparmaqdır.

CCAF-ın “aprel tezislərinə” nəzər yetirək. Birinci tezis “tarixi yaddaş borcunu yerinə yetirmək”dir. Hər hansı bir xalqın öz tarixini unutmamaq hüququnu kim əlindən ala bilər ki? Heç kim. Fəqət burada problem bu yaddaşın necə instrumentallaşdırılmasındadır. Bir diaspor sənədindən digərinə miqrasiya edən “bir milyon yarım qurban” tarixi müzakirədən ayrılaraq siyasi ritorikalı təzyiq alətinə çevrilib. Bernard Lyuis, Günter Lyui kimi fransız əsilli tarixçilər bu rəqəmin yenidən araşdırılmasının vacibliyinə diqqət çəkiblər. Onlar qeyd edirlər ki, etnik toqquşmaların qurbanlarını qıtlıq, epidemiya və Anadolunun müsəlman əhalisinə eyni dərəcədə təsir edən hərbi əməliyyatlarla qarışdırırlar. Amma ermənilər hadisələrə istənilən elmi və ya tarixi yanaşmanı qəti şəkildə rədd edirlər. Məhz bu səbəbdən tarixi yaddaş ehkama, ehkam isə siyasi silaha çevrilir.

“Erməni soyqırımının inkarına qarşı mübarizə” adlanan ikinci tezisdə Azərbaycan və Türkiyə “təftişçi təbliğat” və “irqçi nifrət ritorikasında” ittiham edilir. Müasir Azərbaycanı 1915-ci il hadisələri ilə əlaqələndirmək cəhdi bölgənin tarixindən bixəbər auditoriya üçün nəzərdə tutulmuş məqsədyönlü manipulyasiyadır. Tezisin məzmunu adamı intellektual çirkinliyi ilə heyrətləndirir. Türkiyəyə gəlincə isə Ankara dəfələrlə hər iki tərəfin arxivlərini araşdırmaq üçün tarixçilərdən ibarət birgə komissiya yaradılmasını təklif edib. Türkiyə Baş Qərargah Arxivləri (ATASE) 1915-ci il hadisələri ilə bağlı bütün sənədlərə girişi təmin edir. Buna baxmayaraq, Ermənistan və erməni diasporu bu təklifi ardıcıl olaraq rədd edir. Axı arxivlərin açılması hayların diasporları və lobbistləri üçün diqqətlə qurulmuş paradiqmanı məhv olması təhlükəsini yaradır. Onlar üçün bir tərəf yalnız qurban, digər tərəfin isə cəllad kimi təqdim olunması sərfəlidir.

Gələk 3-cü tezisin üzərinə. “Artsaxa ədalət” bəlkə də düşünülmüş paradiqmanın ən biabırçı elementidir. Burada iddia olunur ki, “Türkiyə–Azərbaycan tandemi” 2023-cü ildə guya Qarabağda “etnik təmizləmə” həyata keçirib, 120 mindən çox erməni oranı tərk etməyə məcbur olub. Əvvəlcə onu nəzərə çatdıraq ki, beynəlxalq hüquq heç vaxt “Artsax” kimi bir qurum tanımayıb. Necə olur ki, Ermənistan 27 il BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymayanda haqlı olur, Azərbaycan antiterror tədbirləri çərçivəsində beynəlxalq səviyyədə tanınmış ərazisi üzərində öz suverenliyini tam bərpa edəndə diaspor onu “soyqırımı” elan edir?

Dördüncü tezis – “girovların azad edilməsi” ayrıca təhlilə layiqdir. Çünki burada terminoloji əvəzləmə kulminasiya nöqtəsinə çatır. Bakı məhkəməsi tərəfindən məhkum olunanlar Azərbaycan dövlətinə və onun vətəndaşlarına qarşı ağır cinayətlərdə ittiham olunan separatçı rejimin keçmiş rəhbərləri və hərbi komandirlərdir. Onların arasında qondarma “dqr” rejiminin “prezidentləri” adlandırılan şəxslər, silahlı müqavimətin təşkilində iştirak edən və qanunsuz silahlı birləşmələrə komandanlıq edənlər də var. Onları “əsir” adlandırmaq vəziyyəti qəsdən qanuni çərçivədən kənara çıxarmaqdır. Dünyanın istənilən ölkəsinin öz ərazisi daxilində separatizm və terrorizmdə ittiham olunanları mühakimə etmək hüququ var.

Sonuncu, 5-ci tezis isə artıq şablonlaşmış iddiadır: “Ermənistanı onu təhdid edən Azərbaycandan qorumaq”. Burada məqsəd Ermənistanı daim xarici müdafiəyə ehtiyacı olan əbədi qurbana çevirməkdir. İddia olunur ki, “Artsax”ın ilhaqı”ndan sonra Prezident İlham Əliyev “açıq şəkildə Ermənistanı hədələyir”. Amma bu zaman elementar reallıq “unudulur” ki, regionda sülh gündəliyinin əsas təşəbbüskarı məhz Bakıdır. Bunun fonunda məntiqli sual yaranır: “Rəsmi İrəvanın burada mövqeyi necədir?” Məlum olduğu kimi, Ermənistan hakimiyyəti diaspor təşəbbüslərindən uzaqlaşır, onları hakimiyyətin təsir edə bilmədiyi muxtar fəaliyyət kimi təqdim edir. Ancaq bu yanaşma getdikcə daha az inandırıcı olur. Vaşinqtonda Ermənistan sülh sazişi layihəsini parafladı və Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə tanıdı. Əgər bu addımlar səmimidirsə, o zaman İrəvan diaspor təşkilatlarının imzalanmış sənədlərin ruhuna və hərfinə birbaşa xələl gətirən fəaliyyətini birmənalı və açıq şəkildə pisləməlidir. Yoxsa sülh sazişlərini imzalamaq və eyni zamanda beynəlxalq səviyyədə tanınmış sərhədlərin bərpasını “etnik təmizləmə” və qanuni cinayət təqiblərini “əsirlik” adlandıran diasporaya səssizcə göz yummaq mümkün deyil.

Belə məlum olur ki, “təcavüzkar” Azərbaycan, “cəllad” Türkiyə olmasa, bütün konstruksiya öz mənasını itirir. Bununla yanaşı, onilliklər boyu bu feyk-ideologiya üzərində karyera quranlar siyasi nüfuzunu itirir. CCAF, ANCA, Hay Dat və onlarla oxşar təşkilatlar yalnız münaqişə (hətta xəyali formada) mövcud olduğu müddətcə mövcuddur. Onlar üçün sülh ekzistensial təhlükədir.

...Aprelin 24-də yenə şamlar yandırılacaq, alovlun və “nisgilli” çıxışlar ediləcək, siyasi bəyanatlar veriləcək, “öz müqəddaratını təyinetmə hüququ”, “tarixi ədalət”, “doğma yurda qayıdış” tələbləri səslənəcək. Azərbaycan növbəti dəfə “təcavüzkar” adlandırılacaq, onun öz ərazisində qanuni hərəkətlərinə “cinayətlər” damğası vurulacaq. İntəhası, reallıq bunların hamısından üstün və amansızdır: Qarabağ Azərbaycandır, Vaşinqtonda sənədlər imzalanıb, sülh prosesi irəliləyir və ərazi revizionizmi nə qədər yalançı matəmlə örtülsə də, revizionizm olaraq qalır. İndi erməni diaspor təşkilatları və Ermənistan dövləti fundamental seçim qarşısındadır: ya yeni reallıq çərçivəsində gələcəyi qurmaq, ya da mifologiyadan yapışaraq özünüaldatmaqda davam etmək...

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Dünyanın müxtəlif ölkələrindəki erməni diaspor nümayəndələri, xüsusilə də Fransadakılar hələ də xəstə və köhnəlmiş zehniyyətlərindən əl çəkməyiblər. Görünür, son beş ildə baş verən hadisələr, gedən proseslər bunlara dərs olmayıb. Fransanın özünə gəldikdə isə deyə bilərik ki, on doqquzuncu əsrdə bu ölkə Almaniya ilə müharibə aparırdı. Amma sonra barışdı, indi də Avropa İttifaqında yanaşıdırlar. Yaxud İkinci Dünya müharibəsindən sonra Yaponiya ABŞ-ı özünə düşmən elan etmişdi. Hazırda müttəfiq ölkələrdir, ABŞ-ın Yaponiya ərazisində hərbi bazası yerləşir. Çünki geosiyasi maraqlar qalan bütün məsələləri üstələyir. Onlar reallıqla uyuşan və öz maraqlarına cavab verən addımları atmaqdan çəkinmirlər.

Fransadakı erməni diasporu nəyə nail olmaq istəyir? Əslində, sevinməlidirlər ki, Ermənistan onilliklərlə düşdüyü dalan vəziyyətindən çıxmaq şansı əldə edib. Azərbaycan və Türkiyə ilə münasibətlərini nizama salmağı planlaşdırır. Dünyaya açıq, qonşuları ilə əməkdaşlıqda qərarlı, inkişafa yönələn real Ermənistan onları sevindirməlidir. Bunun əvəzində həmin diaspor nümayəndələri fantastik xülyalarla yaşamaqda davam edirlər. Axı görürlər ki, Ermənistanın özündə vəziyyət dəyişir, sağlam fikirli, praqmatik siyasətçilər ortaya çıxırlar. Hər halda, indiki hakimiyyətin reallıqdan çıxış edərək, Azərbaycanla münasibətləri normallaşdırmaq istədiyinin fərqindədirlər. Hesab edirəm ki, bunlar müəyyən dərəcədə idarə olunan qüvvələrdir. Siyasi cəhətdən nüfuzlu, maliyyə cəhətdən zəngin ermənipərəst dairələr Azərbaycana və Türkiyəyə mesajlar göndərməkdə maraqlıdırlar. Məqsədləri türkiyəfobiya və azərbaycanofobiya isterikası ilə münasibətlərin gərginləşməsinə nail olmaqdır. Bu isə çoxdan sönmüş ocağın külü ilə oynamağa bənzəyən faydasız cəhddir...

# Gürcüstanla strateji tərəfdaşlıq yüksələn xətlə inkişaf edir



**Azərbaycan və Gürcüstan qonşu, dost ölkələr olmaqla yanaşı, həm də strateji tərəfdaşdırlar. Hazırda ölkələrimiz bir çox sahələrdə olduğu kimi, enerji və nəqliyyat-logistika üzrə də uğurla əməkdaşlıq edirlər. Eyni zamanda, Gürcüstan Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 6-da Gürcüstana dövlət səfəri də əməkdaşlığın inkişaf perspektivləri baxımından mühüm əhəmiyyət daşıyır. Səfər çərçivəsində Prezident İlham Əliyevlə Gürcüstan Prezidenti Mixeil Kavelaşvili arasında Tbilisidə keçirilən təkbətək görüş zamanı Azərbaycan–Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb. Qeyd olunub ki, ötən müddətdə ölkələrimiz arasında əməkdaşlıq müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, “yaşıl enerji”, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf edib. Söhbət əsnasında Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulanıb, onların strateji və iqtisadi əhəmiyyəti qeyd edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin mətbuata bəyanatlarında isə əməkdaşlığın mövcud vəziyyəti və perspektiv imkanlardan bəhs olunub. Prezident İlham Əliyev bəyanatında bildirib ki, Gürcüstan və Azərbaycan, hər zaman olduğu kimi, yenə də bir yerdədir. Gürcü və Azərbaycan xalqlarının əsrlər boyu dostluq, qardaşlıq şəraitində yaşadıqlarını xatırladan dövlətimizin başçısı həmin ənənələrin bu gün də davam etdirildiyini vurğulayıb.

Dost Gürcüstanda müsbət sərmayə iqliminin mövcudluğuna toxunan Prezident İlham Əliyev bir çox investorların, o cümlədən Azərbaycan investorlarının bu ölkəyə böyük maraq göstərdiklərini bildirib. Qeyd olunub ki, bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulub. Yeri gəlmişkən, dövlətimizn başçısı bəyanatında dost ölkəyə səfəri çərçivəsində həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparıldığını bildirib.

Azərbaycanla Gürcüstanın iqtisadi sahədə böyük uğurlar əldə etdiklərini xatırladan dövlətimizin başçısı iki ölkə arasında ticarət əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Bu da təsadüfi deyil. Təkcə onu qeyd etmək kifayətdir ki, bu ilin ilk 2 ayının yekunlarına əsasən, Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 214, 4 milyon dollar təşkil edib. Bu da Gürcüstan ölkəmizin xarici ticarət tərəfdaşları sırasında 5-ci yerdə qərarlaşması deməkdir.

Məlum olduğu kimi, Gürcüstan və Azərbaycan Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayırlar. Prezident İlham Əliyev çıxışında, həmçinin Azərbaycanın energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atdığını diqqətə çatdırıb: “Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır”.

Bununla yanaşı, tarixi İpək Yolunun üstündə yerləşən Azərbaycan və Gürcüstan bir sıra nəqliyyat-logistika layihələrinin də fəal iştirakçıları kimi tanınır. Mətbuata bəyanatında bu vacib məqama toxunan Prezident İlham Əliyev bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlərin aparıldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı Orta Dəhlizin Azərbaycan və Gürcüstan üzərindən keçdiyini xatırladaraq bu marşrutu ölkələrimiz üçün əsas nəqliyyat damarı kimi xarakterizə edib və hazırda bunu genişləndirmək üçün əlavə səylər göstərildiyinə diqqət çəkib.

Gürcüstanın Baş nazir İrakli Kobaxidzenin mətbuata bəyanatında səsləndirdiyi fikirlər də ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsindən xəbər verir. Baş nazir ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf etdiyini vurğulayaraq Azərbaycanın dövlət başçısı İlham Əliyevin şəxsi səylərini və iştirakını yüksək dəyərləndirib.

Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın bütöv region üçün yeni perspektivlər açdığını bildirən İ.Kobaxidze deyib ki, qlobal geosiyasi dəyişikliklər Orta Dəhlizin vacibliyini, o cümlədən Qara Dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırır: “Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq”.

Göründüyü kimi, ölkələrimiz arasında iqtisadi münasibətlərin perspektivi olduqca yüksəkdir. Heç şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana növbəti səfəri çoxtərəfli əməkdaşlığa təkan verəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri iki ölkə arasında iqtisadi münasibətlərinin inkişafına mühüm töhfə verən, strateji əməkdaşlığı daha da dərinləşdirən əhəmiyyətli hadisə kimi qiymətləndirilməlidir. Bu səfər həm regional, həm də qlobal kontekstdə xüsusi strateji məna daşıyır. Onun iqtisadi təsirlərinə nəzər saldıqda, ilk növbədə, enerji əməkdaşlığının genişlənməsi diqqət çəkir.

Belə ki, neft və qaz ixracının artırılması, Avropanın enerji təchizatında Azərbaycanın rolunun gücləndirilməsi, eləcə də yeni enerji marşrutlarının, o cümlədən “yaşıl” enerji ixracı imkanlarının müzakirəsi bu səfərin əsas istiqamətləri sırasında yer alır. Bu proses Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki mövqeyini daha da möhkəmləndirir.

Digər mühüm istiqamət nəqliyyat və logistika sahəsidir. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin potensialının artırılması, bu dəhlizin rəqabət qabiliyyətinin yüksəldilməsi mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə yükdaşımaların genişləndirilməsi də regional ticarət dövriyyəsinə ciddi təkan verə bilər. Bu baxımdan Gürcüstan limanlarının imkanlarından daha geniş istifadə olunması Azərbaycanın tranzit potensialını artırır və hər iki ölkəni Avropa–Asiya ticarətində mühüm logistik mərkəzlərdən birinə çevirir.

Ticarət dövriyyəsinin artması da diqqətəlayiq məqamlardandır. Ötən ilin yekunlarına əsasən, iki ölkə arasında ticarət dövriyyəsi 880 milyon dollara yaxın olub ki, bu da əvvəlki illə müqayisədə, təxminən, 9 faiz artım deməkdir. Ümumilikdə, Azərbaycan–Gürcüstan ticarət münasibətləri müsbət dinamika ilə inkişaf edir və bu sahədə hər il artım müşahidə olunur. Qarşılıqlı ixrac və idxalın genişlənməsi, xüsusilə kənd təsərrüfatı və sənaye məhsulları sahəsində əməkdaşlığın dərinləşdirilməsi yeni layihələrin həyata keçirilməsinə əlverişli zəmin yaradır.

Bununla yanaşı, Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi də artmaqdadır. Bu, gürcü biznesinin də Azərbaycana marağını gücləndirir, birgə müəssisələrin yaradılması, sənaye və logistika zonalarının inkişafı üçün yeni imkanlar açır.

Əsas diqqət yetirilməli istiqamətlərdən biri də rəqəmsal və kommunikasiya infrastrukturunun genişləndirilməsidir. Bu sahədə əməkdaşlıq rəqəmsal ticarətin inkişafına, data tranzitinin genişlənməsinə və ümumilikdə, iqtisadi fəaliyyətin şaxələndirilməsinə xidmət edir. Eyni zamanda, turizm sektorunda əməkdaşlığın gücləndirilməsi də qarşılıqlı səfərlərin və iqtisadi əlaqələrin artmasına müsbət təsir göstərir.

Bütün bunlar ölkələrimizin regiondakı siyasi nüfuzunun artmasına və iqtisadi inteqrasiyanın dərinləşməsinə xidmət edir. Nəticə etibarilə, bu səfər Azərbaycan–Gürcüstan münasibətlərini yalnız ikitərəfli müstəvidə deyil, bütövlükdə, regionun iqtisadi arxitekturası çərçivəsində yeni strateji mərhələyə yüksəldir. Xüsusilə enerji və logistika sahələrində əməkdaşlığın genişlənməsi gələcəkdə hər iki ölkənin Avrasiya ticarətində daha mühüm rol oynamasına şərait yaradır.

*Ümumdünya Şəhərsalma Forumu*

**Azərbaycan növbəti dəfə qlobal müzakirələrin mərkəzinə çevrilir. Paytaxt Bakı 2026-cı ildə dünyanın ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumuna (WUF13) ev sahibliyi etməyə hazırlaşır. Son aylarda bu istiqamətdə atılan addımlar göstərir ki, ölkəmiz bu missiyaya sadəcə, təşkilatçı kimi deyil, həm də yeni şəhərsalma modelinin müəllifi kimi yanaşır.**

# Azərbaycan qlobal urbanizasiyanın yeni ünvanıdır




2026-cı ilin 17-22 may tarixlərində baş tutacaq bu nəhəng platforma üçün artıq rəsmi internet resursları istifadəyə verilib. Bakı Olimpiya Stadionu ətrafındakı hazırlıq prosesi isə şəhərin bu beynəlxalq dialoqa nə dərəcədə ciddi hazırlaşdığının vizual sübutudur.

Forumun ana xətti bəllidir: "Dünyanı mənzillə təmin etmək". Müzakirələrin yekunu olaraq qəbul ediləcək "Bakı Fəaliyyət Çağırışı" sənədi təhlükəsiz, əlçatan və dayanıqlı şəhərlərin qurulması üçün qlobal yol xəritəsi rolunu oynayacaq. Bu, Azərbaycanın təkcə öz şəhərlərini deyil, həm də qlobal şəhərsalma siyasətini formalaşdıran gücə çevrilməsi deməkdir.

Daxili arenada da yeniliklər sürətlidir. 2026-cı ilin rəsmən "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bu mövzunun dövlət siyasətinin prioritetinə çevrildiyini göstərir. Forumun təşkilati məsələləri üçün nəzərdə tutulan vergi güzəştləri və xüsusi iqtisadi mexanizmlər prosesin operativliyini təmin edir.

Artıq tədbirin texniki hazırlıq işləri çərçivəsində WUF13 Radiospektrin İdarə Edilməsi Portalı istifadəyə verilib. Yeni yaradılmış portal tədbir zamanı simsiz cihazların təhlükəsiz, fasiləsiz və koordinasiyalı şəkildə istifadəsini təmin etmək məqsədi daşıyır. Bu portal vasitəsilə akkreditə olunmuş iştirakçılar istifadə etməyi planlaşdırdıqları simsiz cihazları əvvəlcədən qeydiyyatdan keçirə və həmin cihazlar üçün müvafiq radiospektrin ayrılması ilə bağlı müraciətlərini elektron qaydada təqdim edə bilərlər. Bununla yanaşı, “WUF13.az” internet səhifəsi və Mərkəzi Rezervasiya Platforması da istifadəyə verilib.

Bu il fevral ayının sonuna olan məlumata görə, Bakıda keçiriləcək davamlı şəhərsalma üzrə BMT-nin qlobal konfransı olan WUF13-də iştirak üçün 166 ölkədən 13 000-dən çox insan qeydiyyatdan keçib. Bütün qeydiyyatdan keçmiş WUF13 iştirakçıları üçün tədbir müddəti ərzində Heydər Əliyev Beynəlxalq Aeroportu ilə təyin olunmuş şəhər nəqliyyat mərkəzləri arasında xüsusi avtobuslar işləyəcək. Həmçinin tədbir məkanı üçün nəqliyyat vasitələri ödənişsiz olacaq.

Digər tərəfdən, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) üzrə Azərbaycan Əməliyyat Şirkəti ilə "AzərEnerji" ASC arasında əməkdaşlığa dair memorandum da artıq imzalanıb. Anlaşmanın əsas məqsədi WUF13 müddətində tədbir məkanının "yaşıl enerji" ilə təmin edilməsidir. Bu təşəbbüs forumun karbon idarəetməsi və emissiyaların azaldılması üzrə öhdəliklərinin praktik icrasına xidmət edəcək, eyni zamanda, enerji istehlakından yaranan ekoloji təsirin minimuma endirilməsinə imkan yaradacaq. Sözügedən əməkdaşlıq Azərbaycanın "yaşıl enerji" və dayanıqlı inkişaf üzrə strateji hədəflərinə sadiqliyini bir daha təsdiqləməklə yanaşı, ölkənin beynəlxalq tədbirlərin ekoloji baxımdan məsuliyyətli təşkili istiqamətində artan rolunu da önə çıxarır.

Yeri gəlmişkən, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının (PA) xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X"dəki hesabında Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində "AnewZ" telekanalının Gəncə haqqında hazırlanmış süjetini paylaşıb. Videoda Gəncə Azərbaycanın zəngin tarixi-mədəni irsə malik ən qədim şəhərlərindən biri kimi təqdim olunur. Qeyd olunur ki, şəhər görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin yurdudur, elm, təhsil və ədəbiyyatın inkişafında mühüm rol oynayıb. Gəncənin əsrlər boyu İpək Yolu üzərində mühüm mərkəz olduğu, bilik mübadiləsinə və multikultural mühitin inkişafına töhfə verdiyi vurğulanır. Bundan əlavə, videoda 1918-ci ildə Gəncənin Şərqdə ilk parlamentli demokratik respublikanın paytaxtı olduğu qeyd edilir.

WUF13-ə beynəlxalq dəstək də yüksək səviyyədədir. Belə ki, Qazaxıstan Xarici İşlər Nazirliyindən bildirilir ki, ölkə WUF13-ü BMT sistemi çərçivəsində çoxtərəfli müzakirələrdə iştirak, dayanıqlı şəhər inkişafı sahəsində təcrübə və ən yaxşı praktikalar mübadiləsi, həmçinin beynəlxalq tərəfdaşlar, region ölkələri, eləcə də BMT-nin ixtisaslaşdırılmış qurumları ilə qarşılıqlı əlaqə üçün mühüm platforma kimi nəzərdən keçirir. Monqolustanın Ankarada iqamət edən, Azərbaycana akkreditə olunmuş qeyri-rezident səfiri Qombosuren Munxbayar bildirir ki, bu il Monqolustan da Azərbaycanın ev sahibliyi edəcəyi beynəlxalq tədbirlərdə, xüsusilə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında fəal iştirak etməyi planlaşdırır, ölkəsini layiqincə təmsil edərək ikitərəfli əlaqələrin gücləndirilməsini davam etdirəcək. Həmçinin Qırğızıstanın Azərbaycandakı səfiri Maksat Mamıtkanov qeyd edib ki, Qırğızıstan Azərbaycanda təşkil olunan iri beynəlxalq platformalardakı birgə işə böyük əhəmiyyət verir. 2024-cü ilin noyabrında Bakıda uğurla keçirilmiş COP29 qlobal iqlim forumu bu cür genişmiqyaslı tədbirlərin yüksək səmərəliliyini və nəticəyönümlülüyünü sübut edib. 2026-cı ilin mayında Bakı BMT-nin himayəsi altında keçiriləcək Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcək. Qırğızıstan tərəfi bu qlobal forumda iştirak edəcək. Nümayəndə heyətinə kimin rəhbərlik edəcəyi məsələsi hazırda müzakirə mərhələsindədir. Türkmənistanın Azərbaycandakı səfiri Qurbanməmmət Elyasov da Türkmən xalqının milli lideri, Türkmənistanın Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştirak edəcəyinin gözlənləndiyini bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin səlahiyyətlərini müvəqqəti icra edən İqor Qarafuliç isə hesab edir ki, konfransın hər bir aspekti Azərbaycan hökuməti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və əməliyyat şirkəti tərəfindən çox diqqətlə planlaşdırılıb: “Bu, həqiqətən də çox mühüm bir tədbirdir və biz onun keçirilməsini səbirsizliklə gözləyirik”.

İtaliyanın tanınmış "La nostra Gazzetta" saytında dərc olunan məqalədə isə deyilir ki, Azərbaycanın paytaxtı Bakı şəhəri Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının keçirilməsinə tam hazırdır. İtaliya KİV-ində bildirilib ki, Bakı şəhərinin mərkəzləşmiş nəqliyyat sistemi yalnız texniki hazırlıqla məhdudlaşmır: "Burada insanların rahatlığı, xidmətdə səmimiyyət və qonaqpərvərlik də ön plandadır. Hər bir dayanacaq, hər bir avtobus stansiyası, hər bir taksi xidməti qonaqların məmnuniyyətini qazanmaq üçün nəzərdə tutulub...”

Digər tərəfdən, Keniyanın paytaxtı Nayrobi şəhərində 8-10 aprel tarixlərində keçiriləcək 2-ci Afrika Urban Forumuna (AUF2) dəstək vermək məqsədi ilə WUF13-ün ev sahibi Azərbaycan AUF2-nin ev sahibi Keniya ilə əməkdaşlığı davam etdirir. Azərbaycanın Keniyadakı Səfirliyindən bildirilib ki, Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) vasitəsilə Azərbaycan hökuməti AUF2-nin təşkilati məsələlərinə sərf olunması üçün 50 000 ABŞ dolları məbləğində maliyyə töhfəsi edib.

Qeyd edək ki, WUF13 çərçivəsində bəzi vergi güzəştləri tətbiq ediləcək. Prezident İlham Əliyev bununla bağlı Vergi Məcəlləsinə dəyişikliyi imzalayıb. Tədbirlə əlaqədar qeyri-rezident şəxslərə bir sıra vergi azadolmaları tətbiq ediləcək. Məsələn, WUF13 çərçivəsində malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdikləri gəlirlər (gəlir vergisi üzrə azadolma), qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müqavilə əsasında qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri (mənfəət vergisi üzrə azadolma) və s. Güzəştlər tədbirin yüksək səviyyədə planlaşdırılmasının göstəricisidir.

Göründüyü kimi, son aylarda baş verənlər bir daha sübut edir ki, ölkəmiz Şəhərsalma forumunun keçirilməsini yüksək səviyyədə planlaşdırır. Beynəlxalq səviyyədə də rəsmilərin məsələyə münasibəti göstərilən səylərin doğurduğu müsbət ahəngdən xəbər verir.

***Nurlan ABDALOV***
***XQ***

## Abşeron rayonunda yeni yarımstansiya tikiləcək

**“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti (ASC) artıq bununla bağlı müvafiq işlərə start verib. Belə ki, görləcək işlər çərçivəsində Novxanı qəsəbəsi ərazisində yerləşən mövcud 6/0,4 kilovoltluq 919 saylı Paylayıcı Qurğunun əvəzinə 35/6 kilovoltluq yeni yarımstansiyanın tikintisi nəzərdə tutulur.**



“Azərişıq” ASC hazırda sözügedən işlərin icrasını həyata keçirəcək şirkəti müəyyənləşdirməkdədir. Məlumata əsasən, yeni yarımstansiyanın tikintisinin 4,1 milyon manata başa gələcəyi proqnozlaşdırılır.

## Bakı Limanında səpkili yük aşırımı artıb

**2026-cı ilin birinci rübündə “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) Bakı Limanı 423 min 124 ton səpkili yük (karbamid, kükürd) aşırıb. Bu, ötən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə, təqribən, 46 faiz çoxdur.**



ADY-dən verilən məlumata əsasən, cari ilin martında limanda 162 min ton səpkili yük aşırılıb. Bu isə əvvəlki ilin eyni dövründə qeydə alınan göstəricidən 94 faiz çox olmaqla yanaşı, aşırılmış səpkili yüklər üzrə aylıq rekord göstəricidir. Bundan əlavə, ötən ay Bakı Limanının ümumi yüklər terminalında 78 gəmi yanaşması qeydə alınıb ki, bu da rekord nəticə hesab olunur.

***XQ***

# Bakı tıxac bəlasından xilas olacaqmı?

## *Yeni yol layihələri bu problemin həllinə yönəlib*

**Bakıda nəqliyyat sıxlığı artıq təkcə gündəlik narahatlıq deyil, eyni zamanda, şəhərin sosial-iqtisadi və ekoloji davamlılığı üçün ciddi təhlükə amili kimi qiymətləndirilir. Paytaxtın sürətlə inkişafı, əhalinin getdikcə artması, şəhərətrafı yaşayış massivlərinin genişlənməsi və avtomobil sayının ildən-ilə çoxalması səbəbindən mərkəzi küçələrdə, xüsusilə də əsas magistral yollarda pik saatlar iflic vəziyyət müşahidə edilir.**



Əslində, paytaxtın nəqliyyat yükü Bakıətrafı ərazilərdən – Sumqayıt və Xırdalan şəhərləri, Müşfiqabad, 28 May, Lökbatan, Binə, Sulutəpə qəsəbələri və digər yaşayış sahələrindən hər gün minlərlə avtomobilin paytaxta daxil olması səbəbindən qaynaqlanır. Sürücülərin böyük bir hissəsi şəhər mərkəzinə getmək niyyətində olmasa da, alternativ marşrutların məhdudluğu üzündən mərkəzdən keçməyə məcbur qalır. Bu isə Bakı daxilində tıxacın miqyasının daha da artması ilə nəticələnir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) açıqladığı məlumatlar da göstərir ki, Bakı-Sumqayıt (M1), Bakı-Ələt-Qazax (M3) və Bakı-Quba-Rusiya sərhədi (M4) magistral yolları ilə hərəkət edən avtomobillər çox vaxt şəhər mərkəzindən keçmək məcburiyyəti ilə üzləşir. Bu isə paytaxtın mərkəzi küçələrində və əsas yol qovşaqlarında davamlı sıxlıq yaşanmasına gətirib çıxarır.

Bu problemin aradan qaldırılması məqsədilə "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində paytaxtın nəqliyyat sistemində şəhər mərkəzini "keçid məntəqəsi" rolundan çıxarmaq və yükü dairəvi yollarla yenidən bölüşdürmək kimi yeni strateji yanaşma tətbiq edilir. Bu məqsədlə planlaşdırılan 3 əsas strateji magistral yol layihəsindən birində – Bilgəh-Novxanı-Xırdalan (M4) xəttində hazırda tikinti işləri aparılır.

### Avtomobillər artıb, yollar dəyişməyib

**Yol hərəkəti eksperti Əzim Yusifovun** sözlərinə görə, Bakının tıxac problemi uzun illər daha çox yol çatışmazlığı və avtomobil sayının artımı ilə əlaqələndirilib. Bu çətinliyin əsasında isə daha sistemli məsələ – paytaxtın yol infrastrukturunun nəzərdə tutulan normalara uyğun qurulmaması, başqa sözlə, şəhər mərkəzinin həm şəhərdaxili, həm də şəhərlərarası tranzit hərəkətin "qovşağına" çevrilməsi amili yer alıb. Məsələn, Şimal istiqamətindən (Bilgəh, Novxanı, Sumqayıt, Abşeron) gələn sürücü Qərb istiqamətinə və ya əksinə hərəkət etmək istəyəndə bir çox hallarda şəhərin içərisinə daxil olub. Bu, tıxacın yalnız müəyyən küçələrdə deyil, bütöv şəhər sistemində domino effekti yaratması ilə nəticələnib.

Ekspertin fikrincə, yeni körpülər, tunellər və yol genişləndirmələrinin diqqət mərkəzində saxlanılması heç də tıxac probleminin həllini gerçəkləşdirmir, başqa sözlə, şəhər mərkəzini ağır tranzit yükdən azad etmir. Çünki avtomobil axını gücləndikcə yol genişləndirmə layihələrinin reallaşdırılması müsbət nəticə vermir. Dünya təcrübəsində "induksiya olunmuş tələbat" adlandırılan bu proses zamanı mövcud vəziyyət özünü qabarıq göstərir: yol genişləndirildikcə daha çox insanın avtomobildən istifadə etməsi və nəticədə tıxacın yenidən "geri qayıtması" narahatlıqla diqqət çəkir.

Ə.Yusifovun fikirlərindən belə bir qənaət hasil olur ki, Bakı üçün ən doğru yanaşma şəhər mərkəzinə daxil olmadan alternativ keçid magistrallarının yaradılmasıdır. AYNA-nın hazırda gerçəkləşdirdiyi həmin yeni layihələrdən biri olan Bilgəh-Novxanı-Xırdalan (M4) avtomobil yolu sözügedən strategiyanın bariz ifadəsidir. Bu magistralla Abşeron yarımadasının şimal-şərq hissəsini paytaxtın mərkəzinə daxil olmadan Bakı-Şamaxı-Yevlax avtomobil yolu ilə birləşdirilməsi nəzərdə tutulur.




Layihənin strateji əhəmiyyəti ondan ibarətdir ki, paytaxt ətrafında yaşayan minlərlə sürücü artıq şəhərin içindən keçmədən birbaşa Qərb istiqamətinə çıxa biləcək. Nəticədə Bakı mərkəzinə daxil olan tranzit avtomobillərin sayı azalacaq və belə bir vəziyyət tıxac probleminin həllinə müsbət təsir göstərəcək.

Texniki göstəriciləri kifayət qədər diqqətçəkən olan layihədə yolun uzunluğunun, təxminən, 29 kilometr və 6 zolaqlı olacağı planlaşdırılıb. Hazırda tikintisi davam edən magistralın 2027-ci ildə istifadəyə verilməsi nəzərdə tutulub.

Bu yol həm də Şimal və Qərb bölgələri ilə əlaqələrin sürətlənməsinə gətirib çıxaracaq. Çünki Bilgəh istiqamətindən gələn nəqliyyat axını M4 magistralına daha rahat çıxış əldə edəcək və Bakı şəhər mərkəzi bu yükdən qismən azad olunacaq. Bundan əlavə, Bilgəh – Novxanı –Xırdalan – M4 yolu yalnız tranzit axını deyil, eyni zamanda, yeni yaşayış massivlərinin inkişafını stimullaşdıracaq. Eyni zamanda, yol infrastrukturu genişləndikcə həmin ərazilər daha cəlbedici yaşayış zonalarına çevriləcək və yeni tikililərin sayı artacaq. Bu isə dövlətin şəhərətrafı inkişaf siyasətinə uyğun olaraq Bakının yükünün mərhələli şəkildə ətraf zonalara yayılmasını şərtləndirəcək.

İkinci strateji layihə Sabunçu və Sulutəpə qəsəbələri arasında dairəvi yolun inşasıdır. Bu magistralın salınmasında əsas məqsəd yarımadanın Şərq və Qərb hissələri arasında birbaşa və sürətli əlaqə yaratmaqdır. Layihənin ən önəmli məqamı isə Sulutəpə kimi sürətlə böyüyən yaşayış sahələrinin artıq Bakı mərkəzindən asılı olmadan alternativ çıxış əldə etməsidir.

Hazırda Sulutəpə sakinlərinin böyük hissəsi əsasən Bakı-Sumqayıt magistralına çıxış üçün məhdud marşrutlardan istifadə edir və bu da pik saatlarda M1 magistralında sıxlığı daha da artırır. Sabunçu–Sulutəpə dairəvi yolu isə aeroport şosesi ilə hərəkət edən nəqliyyat vasitələrinə əlavə rahatlıq gətirəcək və bölgələrarası bağlantını gücləndirəcək. Bu yolun digər mühüm üstünlüyü Bakının mərkəzi küçələrindəki yükün azalmasıdır. Çünki şərq-qərb istiqamətində hərəkət edən sürücülər artıq mərkəzi küçələrə girmədən birbaşa dairəvi yolla hərəkət edə biləcəklər. Beləliklə, bu layihə təkcə Sulutəpə üçün deyil, ümumilikdə, Bakının yol sisteminin balanslaşdırılması baxımından ciddi strateji addımdır.

Üçüncü layihə 1 saylı Bakı Dairəvi Yolunu Ziya Bünyadov prospekti ilə birləşdirəcək yeni yolun inşasını nəzərdə tutur. Bu layihə xüsusilə M1 şosesində – Bakı-Sumqayıt magistralında tıxacların azalmasına yönəlib. Çünki hazırda həmin magistralda əsas yük mərkəzə doğru istiqamətlənən nəqliyyat vasitələri və şəhərin daxilində hərəkət edən avtomobillər arasında bölünür.

Yeni bağlantı yolu ilə nəqliyyat axınları yenidən paylanılacaq, sürücülərin daha qısa alternativ marşrutlardan istifadəsinə şərait yaradılacaq. Eyni zamanda, bu layihənin icrası nəticəsində 20 Yanvar meydanına daxil olmadan Koroğlu metro stansiyasına birbaşa çıxış açılacaq. Bu, xüsusilə şəhər mərkəzinə daxil olmadan metroyadək rahat çatmaq istəyənlər, Binə, Sədərək ticarət mərkəzləri və Binə kəndi istiqamətində hərəkət edənlər, Lökbatan və ətraf yaşayış massivlərinin sakinləri üçün ciddi rahatlıq yaradacaq. Bakı-1 Dairəvi Yolu – Ziya Bünyadov prospekti bağlantısı nəticəsində, eyni zamanda, tıxacların ən ağır olduğu nöqtələrdən biri sayılan 20 Yanvar dairəsinin yükü də azalacaq.

### Yanacaq sərfiyyatı və digər xərclər azalacaq

**Yol eksperti Hüseyn Qubadov** qeyd edir ki, bu gün paytaxtda ciddi narahatlıq doğuran tıxaclar yol problemi olmaqla bərabər, həm də insanların həyat tərzinə birbaşa mənfi təsir edən sosial məsələdir. Çünki insanlar gün ərzində bəzən 1-2 saatını yolda itirir, bu da işə gecikmələrə, əlavə yanacaq xərclərinə, əsəb gərginliyinə və ümumi məhsuldarlığın azalmasına gətirib çıxarır. Yeni magistral yolların istifadəyə verilməsi ilə gediş-gəliş vaxtının, şəhər mərkəzində sürücülərin psixoloji gərginliyinin və nəqliyyat qəzası riskini azalması gözlənilir. Çünki tıxac olan ərazilərdə sürücülər daha əsəbi və diqqətsiz davranır, qəza ehtimalı çoxalır.

Nəqliyyat sıxlığı iqtisadiyyat üçün ciddi maliyyə itkisi yaradır. Tıxac zamanı avtomobilin mühərriki işlək vəziyyətdə qalır, yanacaq sərfiyyatı artır və nəticədə həm vətəndaşın şəxsi xərci çoxalır, həm də ölkənin yanacaq istehlakı artır. Bundan əlavə, tıxac yükdaşımaları və kommersiya logistikasını ləngidir. Bakıda bazarlara, ticarət mərkəzlərinə, istehsal müəssisələrinə məhsul daşıyan yük avtomobilləri də sıxlıqdan əziyyət çəkir.

H.Qubadov daha sonra qeyd edir ki, yeni yolların açılması ilə yük daşımalarının sürəti artacaq, logistik xərclər azalacaq, ticarət dövriyyəsi daha çevik olacaq. Bu isə dolayısı ilə qiymətlərin sabitləşməsinə və xidmət sektorunun daha səmərəli fəaliyyətinə müsbət təsir göstərəcək. Bununla yanaşı, tıxacın azalması nəticəsində hava da təmizlənəcək.

Avtomobillər az məsafə qət etməsinə baxmayaraq, yandırılan böyük həcmdə yanacaq hesabına havaya buraxılan zərərli qazın qarşısı alınacaq. Beləliklə, yeni magistral yolların istifadəyə verilməsi nəticəsində avtomobillərin dayanma müddəti, atmosferə atılan karbon qazı və digər tullantılar azalacaq, yanacaq sərfiyyatı aşağı düşəcək. Bu isə xüsusilə şəhər mərkəzində hava keyfiyyətinin müəyyən qədər yaxşılaşmasına şərait yaradacaq.

### Yeni yollar tıxacları aradan qaldıracaqmı?

Ekspertlərin fikrincə, yeni yol layihələrinin Bakının nəqliyyat sistemində ciddi dönüş yaradacağı gözlənilsə də, bu, tıxac probleminin tam aradan qalxması üçün yetərli sayılmır. Çünki şəhərdə avtomobil sayının çoxalması yeni yolların da yenidən yüklənməsinə səbəb olur. Buna görə paralel olaraq müəyyən addımların atılması da zəruri hesab edilir.

Bu məqsədlə ictimai nəqliyyatın keyfiyyətinin artırılması, avtobus zolaqlarının genişləndirilməsi, metro xətlərinin şəhərətrafı ərazilərə uzadılması, dayanacaq siyasətinin sərtləşdirilməsi, "park et və davam et" sistemlərinin tətbiqinin diqqətdə saxlanılması, eləcə də yol qovşaqlarında "ağıllı" idarəetmə sistemlərinin qurulmasına ciddi ehtiyac duyulur. Yəni yeni yolların salınması ilə, necə deyərlər, tıxacın əlamətləri azala bilər, ancaq problemin kökündə olan səbəblər, məsələn, avtomobildən asılılıq və şəhər planlaşdırmasının mərkəzə yönəlməsi kimi amillər sistemli şəkildə diqqətdə saxlanılmalıdır.

Bütün bunlara baxmayaraq, təqdim olunan 3 layihə Bakının nəqliyyat xəritəsində mühüm dəyişiklik vəd edir. Ən böyük üstünlük isə sürücülərin artıq şəhərin mərkəzi küçələrdən keçmədən birbaşa istiqamətlər üzrə hərəkət edə bilmələrindən ibarətdir. Məsələn, Müşfiqabad və 28 May yaşayış sahələrindən Bilgəh istiqamətinə hərəkət edən sürücülər şəhər mərkəzinə daxil olmadan Bilgəh-Novxanı-Xırdalan-M4 yolundan istifadə etmələri reallaşır, aeroport şosesi ilə hərəkət edən Sulutəpə sakinləri Sabunçu-Sulutəpə dairəvi yolundan yararlanaraq sıxlıqdan yayınır.

Eyni zamanda, Binə və Sədərək ticarət mərkəzlərindən Binə kəndinə, Koroğlu və Əhmədli metro stansiyalarına gedən Lökbatan sakinləri Bakı-1 Dairəvi Yolu – Ziya Bünyadov bağlantısı vasitəsilə rahat hərəkət edə bilirlər. Bu dəyişikliklər Bakının əsas arteriyalarında nəqliyyat axınının daha düzgün bölüşdürülməsi, tıxacların mərhələli şəkildə azalması və şəhərin daha rahat yaşana bilən mühitə çevrilməsi deməkdir.

*Vaqif BAYRAMOV*
*XQ*

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Bakıda planlaşdırılan yeni magistral yolların tikintisi nəqliyyat yükünün bir hissəsini mərkəzdən kənara yönəltmək baxımından olduqca zəruri addımdır. Lakin dünya təcrübəsi göstərir ki, tıxac problemi yalnız yol inşası ilə tam həll olunmur. Əksinə, böyük şəhərlərdə tıxacın köklü şəkildə azalması üçün paralel olaraq ictimai nəqliyyatın gücləndirilməsi, nəqliyyatın idarəetmə mexanizmlərinin yenilənməsi və şəhər planlaşdırmasının daha obyektiv hesablamalar əsaslarla qurulması tələb olunur.

Bakının tıxac problemini həll etmək üçün, ilk növbədə, ictimai nəqliyyatın keyfiyyətli və cəlbedici olması vacibdir. Çünki tıxacın əsas səbəblərindən biri şəxsi avtomobilə olan həddindən artıq asılılıqdır. İnsanlar avtobus və digər ictimai nəqliyyatı rahat, sürətli və təhlükəsiz hesab etmədikdə, məcburən şəxsi avtomobilə üstünlük verirlər. Bu isə yol yükünü artırır.

Tıxacın azalması üçün avtobus sisteminin keyfiyyətinin yüksəldilməsi də önəmli şərtlərdən biridir. Bu baxımdan avtobusların sayının artırılması, intervalın azaldılması, yeni marşrutların yaradılması və avtobus dayanacaqlarının müasir standartlara uyğunlaşdırılması prioritet istiqamətlərdir. Ən vacib məsələ isə ictimai nəqliyyatın vaxt baxımından üstün olmasının diqqətdə saxlanılmasıdır. Çünki əgər avtobus avtomobildən daha sürətli hərəkət edə bilirsə, bu, şəxsi nəqliyyatdan könüllü imtinanı şərtləndirir.

Nəqliyyat sıxlığının aradan qaldırılmasında avtobus zolaqlarının genişləndirilməsi və sərt nəzarət mexanizminin qurulması da vacib məsələlərdən biridir. Yeri gəlmişkən, son illər Bakının müəyyən küçələrində avtobus zolaqları istifadəyə verilməsi ictimai nəqliyyatın sürətinə müsbət təsir göstərib. Lakin bu zolaqlar hələ də məhdud əraziləri əhatə edir və bir sıra hallarda sürücülər tərəfindən pozulur.

Tıxac problemini kökündən azaltmaq üçün avtobus zolaqları daha geniş şəbəkəyə çevrilməli, şəhərin əsas arteriyalarını əhatə etməli, kameralarla və cərimə mexanizmləri ilə ciddi qorunmalıdır. Bu istiqamət həm də sosial baxımdan ədalətlidir. Çünki bir avtobusda 60-80 nəfər olursa, bu göstərici avtomobildə orta hesabla 1-2 nəfər təşkil edir. Deməli, avtobusun yolda üstünlüyü ictimai maraqlara daha uyğundur.

Tıxac probleminin həllində metronun inkişafı da prioritet istiqamətlərdən biridir. Bu baxımdan Bakı Metropoliteni şəhərin nəqliyyat sistemində ən sürətli və sabit vasitədir. Lakin mövcud metro xətləri şəhərətrafı zonaların böyük hissəsini əhatə etmir. Bu da Abşeron ətrafında yaşayan minlərlə insanın avtomobil və ya avtobusla mərkəzə daxil olmasına gətirib çıxarır. Halbuki tıxacın ən ağır hissəsi məhz şəhərətrafı axınlardan formalaşır.

Problemin həlli məqsədilə metro xətləri Xırdalan və Sumqayıta qədər genişləndirilməli, Binə, Mərdəkan, Zabrat, Hövsan kimi istiqamətlərə çıxış təmin olunmalı, Bakıətrafı elektrik qatarlarının (şəhər dəmir yolu) fəaliyyəti daha da gücləndirilməlidir.

Bakıda tıxacın bir hissəsi də düzgün olmayan parklanma və avtomobillərin şəhər mərkəzinə həddindən artıq daxil olması ilə bağlıdır. İnsanlar işə, alış-verişə, dövlət qurumlarına avtomobillə gəlməyə üstünlük verir və bu da mərkəzdə avtomobil sıxlığını artırır. Bu problemin həlli məqsədilə şəhər mərkəzində parklanma daha bahalı olmalı və məhdudlaşdırılmalı, icazəsiz parklanmalara qarşı sərt nəzarət gücləndirilməlidir, yolkənarı parklanma imkanları mərhələli şəkildə azaldılmalıdır. Paralel olaraq, Bakı ətrafında böyük dayanacaq zonaları yaradılmalı və insanlar həmin dayanacaqlarda avtomobili saxlayaraq metroya və ya avtobusa keçməlidir.

Müasir şəhərlərdə tıxacla mübarizədə texnologiyanın rolu çox böyükdür. Bakıda bəzi istiqamətlərdə "ağıllı" işıqforlar tətbiq edilsə də, bu sistemin tam miqyasda qurulmasına ehtiyac var. Məsələnin əhəmiyyətinə gəldikdə isə, qeyd edək ki, "ağıllı" nəqliyyat sistemləri real vaxt rejimində yol sıxlığını izləmək, işıqforların vaxtını avtomatik tənzimləmək, alternativ marşrutları sürücülərə təqdim etmək, qəza və yol bağlanmaları zamanı avtomatik yönləndirmə aparmaq kimi prinsipləri gerçəkləşdirir.

# Qayıdışın dirçəltdiyi qədim kənd

## *Ağdamın Kəngərli obasında sakinlər yurda, torpaq sahibinə qovuşub*

**Ağdamın Kəngərli kəndində ilk dəfə 2024-cü ilin sentyabrında olmuşdum. O zaman yeni yaşayış evlərinin, məktəb və uşaq bağçasının, müxtəlif təyinatlı binaların tikintisi davam edirdi. İşğal dövründə erməni vandalizminin qurbanına çevrilmiş, daşı daş üstdə qalmamış Kəngərlinin dirçəlişini qürur və heyrətlə izləmişdim.**

Heyrətimin bir səbəbi də görülən işlərin miqyası və sürəti ilə bağlı idi. Axı mənfur düşmən Ağdamın əksər kəndləri kimi, Kəngərlini də nəinki tamamilə dağıtmış, üstəlik bu yerləri mina və partlamamış hərbi sursatlarla çirkləndirərək həyat üçün təhlükəli ərazilərə çevirmişdi. Bu mənada, sıfırdan başlamaqla yeni bir yaşayış məntəqəsinin salınması elə də asan olmamalı idi. Ancaq dövlətimizin qüdrəti, xalqımızın əzmi sayəsində Kəngərli qısa müddətdə gözəlliyi ilə gözoxşayan, müasir simasına qovuşdu, əzəli sakinlərinə qucaq açaraq Böyük Qayıdışın növbəti ünvanı oldu. İndi kənddə yenidən həyat qaynayır, evlər körpə gülüşü ilə şənlənir, insan əməyi həyətyanı sahələrin bərəkətli torpaqlarına can verir. Cəmi ilyarımdan sonra Kəngərli bizi bax beləcə, yaralarını sağaltmış, qayğısız və firavan qarşıladı...




### Salam, azad və abad Kəngərli!

Ağdamın şimal-şərqində, rayon mərkəzindən 6 kilometr məsafədə salınmış yeni Kəngərlinin təməli 2022-ci il oktyabrın 4-də qoyulub. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin gedişini hər zaman xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təməlqoyma mərasimində iştirak ediblər. Kənd Ağdam–Bərdə avtomobil yolunun sağında, Birinci Qarabağ müharibəsi zamanı qanlı döyüşlərə şahidlik etmiş Uzundərə adlanan dərənin yaxınlığında yerləşir.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumata görə, Kəngərlidə birinci mərhələdə 2, 3, 4 və 5 otaqlı olmaqla 292 fərdi yaşayış evi tikilib. Mühüm sosial obyektlərin inşası da artıq tamamlanıb ki, bura inzibati bina, klub-icma mərkəzi, tibb məntəqəsi, bazar kompleksi, 484 şagird yerlik tam orta məktəb və 120 yerlik uşaq bağçası daxildir. Kəngərli məktəbi 5 blokdan ibarətdir, müasir tədris infrastrukturu ilə təmin olunub. Hazırda yeni, işıqlı sinif otaqları, laboratoriyalar, kitabxana, idman və akt zalları pedaqoji kollektivin və məktəblilərin ixtiyarındadır. Məktəbin ərazisində geniş idman meydançası salınıb və binanın damında günəş panelləri quraşdırılıb. Uşaq bağçası isə 6 qrup üçün nəzərdə tutulub. Burada qrup, musiqi, idman zalları, yataq və digər zəruri otaqlar mövcuddur. Bağçanın ərazisində oyun və istirahət sahələri yaradılıb. Məktəb və bağçanı istiliklə təmin etmək məqsədilə ayrıca qazanxana inşa edilib.

Kəndin daxili yollarının ümumi uzunluğu 11,6 kilometrdir. Elektrik, qaz, su, rabitə və kanalizasiya xətləri tam şəkildə yenidən qurulub. Hazırda Kəngərlidə 289 ailə, yəni 1236 sakin məskunlaşıb.



### Ata-baba yurduna qayıdış sevinci ...

Kəngərli müasir görüntüsü ilə yanaşı, gözoxşayan yaşıllığı, ağac və kollarla, gül-çiçəklərlə əhatələnmiş rahat kəndarası yolları ilə də qürurlana bilər. Kəndin girəcəyində iri hərflərlə adının yazıldığı dairədən, yaxınlıqdakı bazar kompleksindən başlayaraq hər yerdə ən çox diqqətimizi çəkən də məhz elə yaşıllıqlar oldu. Baharın gəlişi Kəngərlinin simasını daha da gözəlləşdirib, inanmaq olmur ki, qısa müddətdə burada bu qədər dəyişiklik, inkişaf gedib. Həyətlərdə işləyən, əkib-becərən insanları görmək qürurvericidir.

**Kəngərlilərin doğma yurdlarına qayıdışdan sonrakı güzəranlarını, günlərinin necə keçdiyini, hansı hisslər yaşadıqlarını öyrənmək üçün kəndin ilk sakinlərindən olan Marlis Səmədovun evinə qonaq olduq.**



Gələcəyimizi əvvəlcədən xəbər verməmişdik, ancaq xəbərsiz də bu kənddə hansı evin qapısını döysəydik eyni mehribanlıqla, qarabağlılara məxsus qonaqpərvərliklə qarşılanacağımıza şübhəmiz yox idi. Bizi qapıda gözləyən Marlis kişi ilə söhbətimizə də elə həyatında gördüyü işlərdən başladıq. Bildirdi ki, 2025-ci il mayın 23-də Kəngərliyə köçüblər. Gələn kimi də həyətyanı sahəsini şumlayıb, göy-göyərti, tərəvəz əkib. İllər sonra öz qapılarında bitən məhsuldan dadıblar. Bu il isə əməlli-başlı bağ salıb, 40-dan artıq meyvə ağacı əkərək diblərinə damcı suvarma sistemi çəkib.

Marlis Səmədov gördüyü işlərdən fəxrlə, ağızdolusu danışarkən, “xoşgəldin” üçün həyətə çıxan həyat yoldaşı Adilə xanım da “qoçaq kişidir”, - deyə onu təriflədi. Həqiqətən yaşı 80-nə yaxınlaşan Marlis kişinin qoçaqlığı da, gümrahlığı da, gördüyü işlər də tərifəlayiqdir. Ata-baba yurduna dönməyin sevincini bizimlə bölüşə-bölüşə həyətdə əkdiyi yoncadan biçib toyuqlarını yemlədi...

Xoş əhvali-ruhiyyədə davam edən söhbət zamanı ev sahibindən adının mənasını soruşduq. Sən demə, Marlis adını ona kommunist ideologiyasının baniləri Karl Marks, Fridrix Engels və Vladimir Leninin adlarının hərflərindən istifadə etməklə atası qoyub. Gülə-gülə dedi ki, həmin o ideologiya özünü doğrultmasa da adı həmişə onu başqalarından fərqləndirib.

### Torpaq üzə gülür...

Səmədovlar ailəsinin yaşadığı 41d nömrəli evlə tanışlıq zamanı bir daha əmin olduq ki, Kəngərlidə sakinlərin rahat yaşamaları üçün hər şey nəzərə alınıb. Müasir üslubda təmirli otaqlar, hamam, sanitar qovşağı, işıq və istilik sistemi, daimi su, sürətli internet... Bir sözlə, kəngərlilərin həm Vətən həsrətləri sona çatıb, həm də xoş güzərana qovuşublar. Çay süfrəsi ətrafında davam edən söhbət əsnasında öyrəndik ki, 43 yaşında doğma kəndindən məcburi köçkün düşən Marlis kişi indi geriyə 8 nəvənin, 2 nəticənin babası kimi qayıdıb:

– Bərdədə məktəb binasında məskunlaşmışdıq. 2013-cü ildən isə dövlət tərəfindən müvəqqəti mənzillə təmin edildik. Yəni dövlətimiz o ağır günlərimizdə bizə sahib çıxdı. Şəraitimiz yaxşı idi, ancaq Vətən bir başqadır. Çox şükür, gəldik ata yurdumuza, bu gün Qarabağın havasını udur, suyunu içir, gorgahlarımızı ziyarət edə bilirik.

Oğlumun hər ikisi ailəlidir. Əli bizimlə birlikdə bura köçüb. Onun da 2 övladı var. Bu yaxınlarda qızına toy edib, gəlin köçürdük. Bu, yeni Kəngərlinin ilk toy-büsatı idi. Oğlu Həzrət isə futbolçudur, “Sabah” klubunun ikinci komandasında oynayır. Fəxrimizdir. Bir sözlə, yenidən xoşbəxt günlərimizə geri dönmüşük. Elə hiss edirəm ki, Kəngərliyə qayıtdığımdan ömrüm də uzanıb.

**Adilə Səmədova da yeni evlərindən, şəraitlərindən, dövlətin qayğısından razılıqla bəhs etdi:**

– Elimizdən-obamızdan ötrü darıxırdım. Az qalırdı ürəyim partlasın. Kəngərlidə keçən hər günüm üçün Allaha şükürlər edirəm. Bu yaşadıqlarımız sanki şirin bir yuxudur. Allah bizə bu duyğuları bəxş edən, bizi öz ata-baba yurdumuza qaytaran Prezidentimizi qorusun, pənahında saxlasın! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Yenidən kəndimizə qayıtmaq, burada yaşamaq böyük xoşbəxtlikdir!

Adilə xanım hazırda Bərdədə məskunlaşmış oğlu Nəbinin də tezliklə Kəngərliyə köçürülməsi arzusunu dilə gətirərək qəzetimiz vasitəsilə bu istəyini aidiyyəti qurumlara çatdırmağımızı xahiş etdi. Biz də, söz verdiyimiz kimi, səhhətindəki problemlərlə bağlı yaddaş zəifliyi olan bu yaşlı ananın təkrar-təkrar səsləndirdiyi xahişi işıqlandırmağı özümüzə borc bildik.

Söhbətimizin sonunda Marlis kişi əlavə etdi ki, insan ölənə kimi doğulduğu torpağa, yurda bağlı olur. Bizə ömrümüzün ahıl çağlarında öz Vətənimizə qayıtmaq nəsib olub. Bunu möhtərəm Prezidentimiz, dövlətimiz, ordumuz edib. Bizim ən böyük vəzifəmiz isə bundan sonra əkib-becərmək, qurub-yaratmaqdır. İşğaldan azad olunmuş torpaqlarımıza sözdə yox, əməldə sahib çıxmalıyıq!

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

**Ağdam**

# Yaxın Şərqdə savaş dünya iqtisadiyyatını böhrana aparır

**Yaxın Şərqdə davam edən hərbi-siyasi gərginlik nəticəsində Hörmüz boğazı ətrafında yaranmış vəziyyət artıq qlobal iqtisadiyyat və enerji təhlükəsizliyi üçün ciddi risk mənbəyinə çevrilib. Dünyanın ən strateji su yollarından biri sayılan bu boğaz həm coğrafi, həm də iqtisadi baxımdan kritik əhəmiyyətə malikdir.**




Hörmüz boğazı Yaxın Şərqin əsas enerji istehsalçıları – Səudiyyə Ərəbistanı, İraq, Küveyt, Qətər və BƏƏ üçün əsas ixrac marşrutudur. ABŞ Enerji İnformasiya Administrasiyasının (EIA) hesablamalarına görə, 2025-ci ildə bu boğazdan gündəlik təxminən 20 milyon barel neft və neft məhsulları daşınıb ki, bu da illik hesabla 600 milyard dollar dəyərində enerji ticarətinə bərabərdir.

Son hadisələr isə bu strateji marşrutun sabitliyini ciddi şəkildə sarsıdıb. ABŞ prezidenti Donald Tramp İrana boğazı açması üçün verdiyi son müddətin başa çatdığını bildirib və mümkün hərbi müdaxilə ilə hədələyib. Bu bəyanatdan dərhal sonra enerji bazarlarında dalğalanmalar müşahidə olunub.

Qeyd edək ki, rəsmi Tehran hələ də geri çəkilmək niyyətində deyil. ABŞ-ın təhdidlərindən sonra İran rəsmiləri ABŞ-ın təkliflərini rədd edərək boğazın açılmayacağını bildirib və hərbi müdaxiləyə sərt cavab veriləcəyini vurğulayıblar. Bu ritorika regionda eskalasiya risklərini daha da artırır. ABŞ daxilində isə bu siyasət birmənalı qarşılanmır. Senator Kris Mörfi vəziyyəti “özümüzün yaratdığımız problemi həll etməyə çalışmaq” kimi qiymətləndirərək administrasiyanın yanaşmasını sərt tənqid edib.

Beynəlxalq media və analitik qurumlar bildirir ki, boğazın məhdud fəaliyyəti artıq real iqtisadi təsirlərini göstərir. “Reuters”in məlumatına görə, enerji təchizatında yaranan fasilələr bir sıra ölkələrdə böhran əlamətlərini gücləndirib. Pakistan Maliyyə Nazirliyi ölkədə yalnız 12 günlük neft ehtiyatının qaldığını açıqlayıb. Belə vəziyyətdə təhsil müəssisələri bağlanıb, dövlət qurumlarında iş rejimi məhdudlaşdırılıb, nəqliyyat vasitələrinin istifadəsinə ciddi məhdudiyyətlər qoyulub. İranın boğaz üzərində protektoratlığı və gəmilərdən rüsum toplamaq niyyəti ABŞ siyasi dairələrində narahatlıq yaradıb. Respublikaçı senator Lindsey Graham bildirib ki, Hörmüz boğazının İranın nəzarətində qalmasına imkan verilməməlidir və ABŞ bu məsələdə daha sərt mövqe tutmalıdır.

Buna baxmayaraq, Tehran bəzi tankerlərin keçidinə icazə verərək bazarı qismən sabitləşdirir. Beynəlxalq agentliklərin məlumatına görə, son günlərdə İran 20-dən çox tankerin boğazdan keçməsinə şərait yaradıb. Lakin bu, ümumi tələbatı ödəmək üçün kifayət etmir. Münaqişədən əvvəl gündəlik təxminən 130 gəmi bu marşrutdan istifadə edirdi. İran parlamenti də boğazdan keçən gəmilərdən rüsum alınmasını nəzərdə tutan qanun layihəsini müzakirə edir ki, bu da beynəlxalq hüquq baxımından ciddi mübahisələr doğura bilər.

Yeri gəlmişkən, Beynəlxalq Enerji Agentliyinin rəhbəri Fatih Birol xəbərdarlıq edib ki, hazırkı böhran 1973 və 1979-cu illərin neft şoklarını, eləcə də son illərin enerji böhranını geridə qoyacaq səviyyədədir. Onun sözlərinə görə, xüsusilə inkişaf etməkdə olan ölkələr yüksək enerji və ərzaq qiymətləri səbəbindən ciddi iqtisadi təzyiqlə üzləşəcək.

Böhran artıq Asiya və Afrikada real təsirlərini göstərir. Bir sıra ölkələrdə yanacaq çatışmazlığı gündəlik həyatı iflic edib. Hökumətlər iş rejimini qısaldıb, ictimai xidmətləri məhdudlaşdırıb, işçiləri evdən işləməyə yönəldib. Avropada isə bəzi ölkələr yanacaq məhdudiyyətləri tətbiq etməyə başlayıb. Afrikada Cənubi Sudan və Mavriki elektrik istehlakını məhdudlaşdıran tədbirlər həyata keçirib. Sloveniya yanacaq məhdudiyyəti tətbiq edən ilk Aİ ölkəsi olub.

Bir sıra Körfəz ölkələrinin alternativ marşrutları mövcud olsa da, lakin bu Hörmüzlə eyni gücə malik deyil. Səudiyyə Ərəbistanı və BƏƏ boru kəmərləri vasitəsilə neft ixracını diversifikasiya etməyə çalışsa da, qlobal bazarda təklif azalması qaçılmazdır. Ekspertlər hesab edir ki, alternativ yollar yalnız itkilərin bir hissəsini kompensasiya edə bilər.

Hazırkı şəraitdə əsas sual böhranın hansı istiqamətdə inkişaf edəcəyidir. Hərbi eskalasiya genişləndikcə, bu, bütün dünya iqtisadiyyatı üçün ağır nəticələr vəd edir. Analitiklər vurğulayır ki, Hörmüz boğazı ətrafında yaranmış vəziyyət artıq yalnız regional münaqişə deyil, qlobal enerji təhlükəsizliyinin əsas sınaqlarından biridir. Bəzi proqnozlar görə, neftin 1 bareli 150 dollara qədər yüksələ bilər. Bununla yanaşı, ərzaq qiymətləri də artmaqda davam edir. Çünki Hörmüz boğazı həmin regiondan həyata keçirilən gübrə ixracatı üçün də kritik bir marşrutdur. Hətta dünyadakı gübrə ticarətinin təxminən 30 faizdən çoxu bu boğazdan keçir.

Bu səbəbdən gübrə təchizatındakı böhran səbəbindən qiymətlərin daha da yüksələcəyi gözlənilir. Bu isə BMT-nin Ümumdünya Ərzaq Proqramının qlobal ərzaq təhlükəsizliyi ilə bağlı xəbərdarlıqlarını artırır və əlavə 45 milyon insanın kəskin aclıqla üzləşə biləcəyini göstərir. Bundan başqa, sənaye sahələri – poladdan kimyəvi maddələrə qədər qıtlıq və artan qiymətlərlə üzləşir.

Son illər qlobal enerji tendensiyaları artıq bərpaolunan enerji mənbələrinə üstünlük verir. Keçən il az karbonlu mənbələrdən istehsal olunan elektrik enerjisi ilk dəfə kömürdən əldə edilən enerjini üstələyib. “The Guardian”ın məlumatına görə, Çin və Hindistanda kömürlə işləyən elektrik enerjisi istehsalı 1970-ci illərdən bəri ilk dəfə azalıb.

Nəhayət, Hörmüz boğazı böhranı yalnız qısamüddətli enerji və iqtisadi risk yaratmır, həm də qlobal enerji siyasətində köklü dəyişikliklərin sürətlənməsinə təkan verir. Baş verən hadisələr fonunda alternativ enerji mənbələrinə investisiyalar və enerji tədarükünün diversifikasiyası indi tarixi əhəmiyyət daşıyan prioritetlər sırasına daxil olub.

*Musa BAĞIRLI*
*XQ*

# Ağdam Sənaye Parkına 150 milyon manat sərmayə yatırılıb

**İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və “Böyük Qayıdış” proqramı çərçivəsində həyata keçirilən strateji iqtisadi layihələr arasında xüsusi çəkisi ilə seçilən Ağdam Sənaye Parkı Qarabağın sənaye potensialının hərəkətə gətirilməsində mühüm rol oynayır.**



Sözügedən sənaye parkı Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Parkın yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi, eləcə də əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarətdir.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, fəaliyyətə başladığı vaxtdan indiyədək sahibkarlar tərəfindən Ağdam Sənaye Parkına 149,7 milyon manat sərmayə yatırılıb. Ötən müddətdə parkda 30 sahibkar və şirkətə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı ölkənin ikinci ən böyük sənaye parkı sayılır. Parkda indiyədək 1000-ə yaxın daimi iş yeri yaradılıb. İşə qəbul zamanı Ağdam və ətraf rayonlardan olan əhaliyə üstünlük verilir ki, bu da bölgədə məşğulluğun artmasına töhfə verir.

Hazırda parkda hazırda tikinti materiallarının istehsalı, qida sənayesi, yüngül sənaye və yüksək texnologiyalı avadanlıqların yığılması kimi müxtəlif istiqamətlər üzrə 13 müəssisə fəaliyyət göstərir. Həmin müəssisələr, həm də işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işlərini yerli xammal və məhsullarla təmin edərək xərclərin optimallaşdırılmasına töhfə verir. Burada istehsal olunan məhsullar daxili bazarda satılmaqla yanaşı, həm də ixrac edilir.

*XQ*

*Qafar Sarıvəlli – 70*

# Fırça ilə yazılan məfkurə

**Elə sənətkarlar var ki, onların yaratdığı əsərlər təkcə göz oxşamır, insanın ruhuna da güclü təsir edir, yaddaşına hopur. Qafar Sarıvəlli də məhz belə rəssamlardandır. Onun yaradıcılıq yolu rənglərin dili ilə danışan, hər tablosunda bir hekayə gizlənən sənət dünyasıdır. Bu aləmdə hər bir cizgi, rəng keçidi daxili harmoniyanın təzahürüdür. Sənətkarın fırçası, sanki, zamanı görüntüyə çevirir. Rəssam milli yaddaşın qatlarından süzülüb gələn estetik duyumu çağdaş bədii təfəkkürlə birləşdirir.**



Qafar Sarıvəllinin əsərlərində, ilk növbədə, onun öz köklərinə, vətəninə, xalqının mənəvi dəyərlərinə nə qədər dərindən və sayğı ilə bağlı olduğu aydın görünür. O, sadəcə, gördüyünü kətana köçürmür, təsvir etdiyi obrazın yaşantılarını, sevincini və kədərini izləyiciyə ötürə bilir. Onun fırçasında canlanan obrazların hər biri insan taleyindən söz açan hekayətdir, qəhrəmanın daxili dünyasından xəbər verən bitkin sənət nümunəsidir.

Sənətkarın həyat yoluna nəzər saldıqda bioqrafik məlumatlarının yığcamlığı onun şöhrət arxasınca qaçmayan təvazökar təbiətindən və bütün varlığı ilə sənətinə bağlılığından xəbər verir. 1956-cı il yanvarın 17-də Qazax rayonunun Kəmərli kəndində doğulan Qafar Sarıvəlli Azərbaycan təsviri sənətində özünəməxsus dəst-xətti ilə seçilir. Ümumilikdə, yüzdən artıq kitabın illüstrasiya müəllifi olan rəssamın yaradıcılığı müxtəlif illərdə keçirilən fərdi sərgilər və nəşr olunan 8 kataloqda geniş ictimaiyyətə də təqdim edilib. "Əliağa Şıxlinski" və "Səməd Vurğun" diplomları, 2017-ci ildə layiq görüldüyü Prezident mükafatı sənətkarın Azərbaycan mədəniyyətinə verdiyi töhfələrin yüksək dəyərinin göstəricisidir.

Qafar Sarıvəllinin yaradıcılığı beynəlxalq miqyasda da yüksək qiymətləndirilib. O, 2026-cı ildə Ankarada "Türk dünyasının fəxri mədəniyyət xadimi" adına, "Beynəlxalq qızıl ulduz" medalına layiq görülüb.

Rəssamın zəngin yaradıcılıq dünyası ilə daha yaxından tanış olmaq üçün emalatxanasına baş çəkdik. Boya və kətan qoxusunun hakim kəsildiyi bu məkanda onunla həmsöhbət olduq. Emalatxananın divarlarından asılan əsərlərin hər biri bir nağıl danışır: bəziləri sükutu ilə kədərləndirir, bəziləri isə parlaq rəngləri ilə ümid qığılcımları saçır. Elə bu təəssüratlarla da müsahibimizə ilk sualımızı ünvanladıq:

***– Qafar müəllim, əsərlərinizdə həm kədərli, həm də təntənəli məqamlar aydın seçilir. Sizi ən çox nə ruhlandırır: təbiətin gözəlliyi, yoxsa insanların taleyi?***

– Əslində, mənim üçün bu iki məfhum bir-birindən ayrılmazdır. Təbiət varsa, onun mərkəzində mütləq insan dayanır. İnsan taleyi isə özü elə bir təbiət hadisəsidir – gah fırtınalı, gah da sakit. 70 illik ömrümün 50 ilini bu sənətə həsr etmişəm. Bu illər ərzində şahidi olduğum talelər, xalqımızın yaşadığı həm ağrılı, həm də şərəfli anlar əsas mövzularına çevrilib. Mənim üçün rəssamlıq, sadəcə, kətan üzərində rənglərdən ibarət deyil, həm də insanın daxili dünyasının, onun qəlbindəki kədərin və qürurun təsviridir.

***– Deməli, rəssamlıq sizin üçün, sadəcə, bir peşə deyil, hər şeydən əvvəl, daxili dünyanızı ifadə etmək üçün mənəvi ehtiyacdır…***

– Rəssamlıq mənim üçün yaşam tərzi, duyğu-düşüncələrimi görüntüyə çevirmək üsuludur. Bu maraq məndə hələ orta məktəb illərindən, təxminən 3-4-cü siniflərdən yaranıb. Qazaxın ucqar Kəmərli kəndində böyümüşəm. Orada nə bir rəsm dərnəyi vardı, nə də kimsə xüsusi olaraq əlimdən tutub mənə şəkil çəkməyi öyrədirdi. Lakin bir neçə müəllimimin həvəsləndirməsi sənət yoluma işıq saldı. Buna görə də inamla deyirəm ki, mənim rəssam olmağım heç də təsadüf deyil.

Bəzən mənə sual verirlər: "Yenidən doğulsaydın, yenə rəssam olardınmı?". Heç tərəddüd etmədən, böyük məmnuniyyətlə "bəli" deyirəm. Seçdiyim yoldan zərrə qədər də peşman deyiləm. Çünki rəssam olmaq – dünyanı və insanı yenidən kəşf etmək deməkdir.

***– Yaradıcılığınızda portret janrına da yer verirsiniz. Bir insanın surətini yaradanda onun xarakterini, mənəvi aləmini göstərmək üçün hansı detallara diqqət yetirirsiniz?***

– Sənətə qrafik əsərlərlə gəlmişəm, rəngkarlığa xeyli sonralar keçmişəm. Ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr dövründə daha çox plakat janrına üstünlük vermişəm və bu sahədə həm respublika, həm də ümumittifaq miqyasında müxtəlif mükafatlara layiq görülmüşəm. Uzun müddət həm sənətşünaslar, həm də həmkarlarım məni məhz qrafika ustası kimi tanıyıblar. Lakin rəngkarlığa keçid etdikdən sonra portret janrı yaradıcılığımda özünəməxsus yer tutdu.

Bu illər ərzində yüzlərlə insan surəti canlandırmışam – sadə peşə sahiblərindən tutmuş tanınmış sənət və siyasət xadimlərinə qədər. İnsan siması mənim üçün anatomik cizgilərdən daha böyük məna kəsb edir. Portret çəkmək sadəcə göz-qaş təsviri deyil, simada gizlənən insan ruhunu duymaq və onu kətana köçürməkdir.

Mənim üçün ən vacib detal insanın peşəsini və daxili keyfiyyətini onun simasında əks etdirə bilməkdir. İstəyirəm ki, tamaşaçı kətana baxanda orada təkcə bir üz görməsin, həm də insanın kimliyini – onun alim, sürücü, memar, yaxud rəssam olduğunu duysun. İnsanın xarakteri onun baxışlarında, əllərinin vəziyyətində, hətta üzündəki yorğunluq və ya qürur izində gizlənir. Məhz bu görünməyən detalları üzə çıxarmağa çalışıram. Bu səbəbdən imzama bələd olanlar portretlərimdəki dəst-xəttimi dərhal tanıyırlar.

***– Yaxşı rəssam olmaq üçün təkcə fitri istedad kifayətdirmi?***

– Şübhəsiz ki, yaxşı rəssam olmaq üçün təkcə istedad, xüsusi bacarıq kifayət deyil. Hər əlinə qələm götürən şair ola bilmədiyi kimi, hər fırça tutan kəsə də rəssam demək olmaz. Bu sənət, sözün əsl mənasında, insandan böyük fədakarlıq və gərgin zəhmət



tələb edir. Mən artıq 50 ildir ki, bu sənətdəyəm. Bu yarıməsrlik yol mənə öyrədib ki, rəssamlıq sonu görünməyən, sonsuz bir ümmandır. İllər öncə yaratdığım əsərlərimə bu gün baxanda bəzən onları bəyənmirəm; düşünürəm ki, o vaxt bu detalı belə çəkərdim, bu rəngi yenidən belə işləyərdim. Bu daxili narazılıq və daim daha yaxşısını axtarmaq hissi məhz çəkilən zəhmətin hesabına başa gəlir. Sənət elə bir zirvədir ki, ora gedən yol yalnız dayanmadan çalışmaqdan və özünü təkmilləşdirməkdən keçir.

***– Sizin üçün sənətdə uğur nədir: əsərin maddi dəyər qazanması, nüfuzlu sərgilərdə nümayiş olunması, yoxsa, sadəcə, insanların yaddaşında qalması?***

– Sadaladığınız amillərin hər biri sənətkar üçün vacibdir və bir-birini tamamlayır. Rəssamın əsəri yalnız emalatxanada, dörd divar arasında saxlaması düzgün deyil. Sənət əsəri o zaman yaşayır ki, o, tamaşaçı ilə təmasda olur. Elə sərgi salonlarının da əsas mahiyyəti budur – əsəri ictimaiyyətə təqdim etmək, onun ətrafında fikir mübadiləsi yaratmaq.

Uğur təkcə fərdi nailiyyət deyil, həm də təmsil etdiyin mədəniyyəti tanıtmaqdır. Ona görə də təkcə ölkə daxilində deyil, beynəlxalq sərgi salonlarına çıxmaq, Azərbaycan təsviri sənətini xaricdə nümayiş etdirmək çox önəmlidir. Əsər sərgilənməli, müzakirə olunmalı və nəticə etibarilə insanların qəlbində, yaddaşında özünə yer tapmalıdır. Mənim qənaətimə görə, əsl sənət uğuru əsərin emalatxanadan çıxıb geniş auditoriyaya yol tapması və gələcək nəsillərə miras qalmasıdır.

***– Yarım əsrdir ki, həyatı bir rəssam gözü ilə görüb dəyərləndirir, sənətdə əks etdirirsiniz. Necə düşünürsünüz, zaman keçdikcə dünya əlvanlaşır, yoxsa saralıb-solur?***

– Mən ömrüm boyu rəngin, sazın və sözün sehrində yaşamışam. Bu üçlük yaradıcılığımın və varlığımın ayrılmaz hissəsidir. Müəllifi olduğum kitablardan birində də qeyd etdiyim bu fikir mənim həyat fəlsəfəmi tam əks etdirir: "Mən dünyanı rəngləsiz, sazsız və sözsüz təsəvvür etmirəm". Bu, sadəcə, bir ifadə deyil, mənim dünyaya baxış bucağımdır.

Demirəm ki, dünyanın rəngi dəyişir. Dünya elə həmin dünyadır, təbiət öz əzəli gözəlliyini qoruyur. Dəyişən yalnız cəmiyyət, insanların baxışlarıdır. Amma bir sənətkar üçün ilham mənbəyi olan o həqiqi dünya dəyişməz qalır. Mən bu gün də sənətə başladığım ilk günlərdəki ruh yüksəkliyi ilə çalışıram.

Əlimə fırça və ya karandaş alan kimi eyni yaradıcılıq enerjisini hiss edirəm. Çünki sənət mənim canıma, qanıma işləyib. Bu, bəzən insanın iradəsindən belə asılı olmayan daxili missiyadır. Ruhumdakı o rənglər solmadıqca, mənim üçün dünya həmişə canlı və rəngarəng qalacaq.

***– Uzun illərdir ki, bu rənglərə bulaşmış emalatxanada çalışırsınız. Maraqlıdır, portretlərini yaratdığınız qəhrəmanlarınızdan kimlər burada qonaq olublar?***

– Bu divarların hər qarışında bir xatirə yaşayır. Portretlərin orijinalları burada qalmasa da, o simaların ruhu və enerjisi buradadır. Bu məkanda Azərbaycan ədəbiyyatının və incəsənətinin neçə-neçə parlaq siması qonağım olub. İlyas Tapdıq, Zəlimxan Yaqub, Məmməd İlqar, yazıçı Nahid Hacızadə, şair Akif Səməd kimi unudulmaz şəxsiyyətləri dəfələrlə burada qəbul etmişəm. İndi yadıma düşənlər bunlardır, amma, əslində, bu siyahı çox uzundur. Jurnalistlər də tez-tez yanıma gəlirlər.

Mən bu emalatxanaya ilk addımımı atanda cəmi 32 yaşım var idi. Ömrümün yarısından çoxu, ən məhsuldar illəri məhz bu divarlar arasında keçib. Burada həm bir sənətkar kimi ucalmışam, həm də insan kimi qocalmışam.

***– Qafar müəllim, sənət yoluna yeni qədəm qoyan gənc rəssamlara tövsiyəniz nə olardı?***

– Gənc həmkarlarıma ilk və ən vacib tövsiyəm budur: rəssam olmaq istəyən şəxs, hər şeydən əvvəl, zəhmətin gücünə inanmalı, tənbəlliyi özünə yaxın buraxmamalıdır. Tez-tez övladım, nəvəm yaşında gənclər emalatxanamın qapısını döyüb eyni sualı verirlər: məndən rəssam olarmı? Mən onlarda bu sənətə bağlılığın dərəcəsini duymağa çalışıram. Çünki rəssamlıq ötəri həvəs deyil, sönməyən daxili yanğıdır.

Həqiqi sənətkar yeri gələndə ac-susuz qalmağı bacarmalı, amma sənətindən bərk yapışmalıdır. Gənclərə həmişə deyirəm ki, mən ölməmək xatirinə pendir-çörək yeyərəm, amma bu sənəti heç vaxt buraxmaram prinsipi ilə yaşamışam. Sənət fədakarlıq tələb edir. Əgər bir gəncdə sarsılmaz iradə yoxdursa, çətinliklər qarşısında geri çəkiləcəksə, bu yola çıxmaq mənasızdır.

***– Əsərlərinizə diqqət yetirərkən maraqlı bir məqam nəzərdən qaçmır: palitranızda Azərbaycan bayrağının üç rəngi, sanki, bir ruh kimi çırpınır. Bu rənglərin tablolarınızda müxtəlif şəkildə cilvələnməsi estetik seçimdir, yoxsa rəmzi məna daşıyır?***

– Şübhəsiz ki, bu rənglərin hər biri dərin rəmzi məna daşıyır. Mənim üçün sənətdə milli kimlik və dövlətçilik rəmzləri estetik meyarlardan daha daha uca anlayışdır. Buna görə də əsərimin çoxunda bayrağımızın rənglərindən – göy, qırmızı və yaşıldan bilərəkdən istifadə etmişəm. İstər qrafika və rəngkarlıq əsərlərində, istərsə də plakat janrında müəllifin azərbaycanlı olduğu dərhal duyulmalıdır. Sənətkarın milli kimliyi onun yaratdığı hər bir cizgidə, hər bir rəng çalarında özünü büruzə verməlidir. Lakin bəzən bu rənglərin kətan üzərində hakimiyyəti özümdən aslı olmadan baş verir. Kompozisiyanı tamamlayıb kənardan baxanda görürəm ki, yenə həmin üç rəng daha çox qabarır, ön plana çıxır. Düşünürəm ki, bu daxili ehtiyacdan doğur.

***– Məşhur "Yanıq Kərəmi" tablosunda, sanki, musiqinin söylədiyi faciəni rənglərlə ifadə etmisiniz. Ümumiyyətlə, musiqi və aşıq sənəti yaradıcılığınızda nə dərəcədə rol oynayır?***

– Mənim sənət dünyamın kökləri doğulub boya-başa çatdığım Qazaxın İncədərəsinə bağlıdır. Gözümü açandan orada tanınmış şairlər, yazıçılar və xüsusilə saz-söz sənətinin ustadlarını görmüşəm. Bu mühit yaradıcılığıma təsir edib; əsərlərimdə aşıq surətləri həmişə xüsusi yer tutur.

Bu sənətkarlar arasında mənə ən çox təsir edən, duyğularımı qanadlandıran, 40 ildən artıq dostluq etdiyim aşıq Ədalət Nəsibov olub. Məşhur "Yanıq Kərəmi" tablosu da məhz bu dostluğun və onun zəngin daxili dünyasına bələd olmağımın bəhrəsidir. Mən "Dədə Ədalət"in simasında musiqinin o yanğılı ruhunu 2000-ci ildə kətana köçürmüşəm.

Çoxları bu əsəri mənim yaradıcılığımın "şah əsəri" hesab edir. Hətta sənətşünaslar yüksək qiymətləndirərək ensiklopediyaya da daxil ediblər. Açığı, mən özümə qarşı hər zaman tələbkar olmuşam. Vaxtilə bu mövzuya yenidən qayıtmaq, Ədalətin obrazını fərqli çalarlarda yaratmaq istəyirdim. Lakin ustad dünyasını dəyişəndən sonra fikrimdən daşındım. Bəlkə, nə vaxtsa qismət olar, bu mövzuya yenidən qayıdaram, amma hələ ki, o tablonun daşıdığı mənəvi yük mənim üçün ən yüksək zirvədir.

***– Bəs özünüzün "şah əsərim" deyə biləcəyiniz bir tablonuz varmı?***

– Ustad Aşıq Ədalətin obrazını canlandırdığım "Yanıq Kərəmi" tablosu sənət aləmində yüksək qiymətləndirilsə də, mən hələ ən böyük əsərimi yaratdığımı düşünmürəm. Məncə, şah əsərim hələ yol gəlir. O, hazırda beynimdə dolaşan, ruhumda yetişən bir ideyadır. Ömür vəfa etsə, mütləq doğulacaq. Düşünürəm ki, hər bir sənətkarın daxilində hələ yaradılmamış bir şah əsərin intizarı yaşayır.

***– Qafar müəllim, səmimi söhbət, sənət dünyanıza bələdçilik üçün sağ olun. Sizə cansağlığı və yaradıcılığınızda uğurlar arzulayırıq. Ümid edirik ki, ruhunuzda böyütdüyünüz o şah əsər tezliklə kətana köçərək Azərbaycan təsviri sənətinin ən parlaq incilərindən birinə çevriləcək.***

*Elenora HƏSƏNOVA*
*XQ*

*Zəfər yolçuları*

# Şəkinin Aprel şəhidləri



**2016-cı ilin Aprel döyüşlərində 1994-cü ildən sonra Azərbaycan tərəfi ilk dəfə işğal olunmuş ərazilərdə uğur qazandı. Ancaq qazanılan uğurlar heç də asan əldə olunmadı; bu nailiyyətlər vətən uğrunda canını fəda edən igid oğulların qanı və həyatı bahasına başa gəldi. 2016-cı ilin aprelində cəbhə xəttində baş verən ağır və gərgin döyüşlər zamanı Azərbaycan Ordusu 89 şəhid verdi.**



Vətən qurbanları arasında Şəki torpağının yetirdiyi 3 igid – Elnur İsgəndərov, Orxan Hümmətov və Vüqar Süleymanov da var idi. Ötən 10 ildə onlar Azərbaycan xalqı üçün daha da əziz, doğma olublar. Bu gün onları tanıyan, sevən təkcə ailələri, doğmaları olduğu halda bu gün bütöv bir xalq, milyonlarla Azərbaycan vətəndaşıdır.

2016-cı il Aprel döyüşləri zamanı, 27 yaşında şəhidlik zirvəsinə ucalan baş leytenant Elnur İsgəndərovun ölümündən sonra layiq görüldüyü "Vətən uğrunda" medalı 21 may 2016-cı il tarixində onun yeganə övladı, 6 aylıq oğlu Elman İsgəndərovun sinəsindən asılmışdı. Bu gün isə həmin körpə böyüyüb atasına layiq övlad kimi yetişir.

1 iyun 1989-cu il tarixdə Şəkidə, müəllim ailəsində anadan olmuş Elnur







atasının çalışdığı Şəki şəhər 11 saylı tam orta məktəbdə təhsil həyatına başlayıb, 2006–2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin müdavimi olub. 2010-cu ildən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlılar bölməsində xidmətə başlayan Elnur İsgəndərov 2016-cı il aprelin 2-də, döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına həlak olub.

Aprelin 11-də onun cənazəsi əllərində Azərbaycan bayraqları daşıyan böyük bir izdihamın "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları altında dəfn olunub. Elnurun qəbri dəfn olunduğu qəbiristanlıqda ilk şəhid məzarı idi. 2020-ci ildə Vətən müharibəsi zamanı Şəkinin ilk şəhidi yenə də 11 saylı orta məktəbin məzunu – Elşən İbrahimov idi. Elşən də eyni qəbiristanlıqda dəfn olundu. Onun ardınca isə məzarlar bir-bir artdı. Bu gün artıq həmin qəbiristanlıq "Şəhidlər" kimi tanınır. Vətən uğrunda canlarını fəda etmiş igidlər yan-yana uyuyur.

Şəkinin ikinci Aprel şəhidi gizir Orxan Hümmətov (1992–2016) 4 noyabr 1992-ci ildə Kiş kəndində anadan olub. 2 aprel 2016-cı ildə 23 yaşında, Azərbaycan – Ermənistan təmas xəttində baş vermiş döyüşdə qəhrəmancasına həlak olub. Aprelin 5-də doğma kəndində dəfn edilib. Ölümündən sonra III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunub.

20 yanvar 1993-cü ildə Böyük Dəhnə kəndində doğulmuş əsgər Vüqar Süleymanov da Aprel döyüşləri zamanı qəhrəmancasına həlak olub. 2015-ci ildə Bakı Slavyan Universitetini bitirib Vətənə əsgəri borcunu ödəmək üçün hərbi xidmətə yollanmışdı. 23 yaşında şəhid oldu. Onun da arzuları yarımçıq qaldı.

Vətən şəhidlərinin arzuları qazandıqları Aprel qələbəsinin açdığı qapıdan keçərək 2020-ci ilin payızında Qarabağ zəfərinə çevrildi. Bütün şəhidlərimizin intiqamı alındı, onların narahat ruhu əbədi dinclik tapdı.

*Zəminə RƏSULOVA,*
*Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi*

# Zaqatala – aqrar islahat məktəbi



**Vaqif Şabanovu uzun illərdir tanıyıram. Dəfələrlə görüşmüşük. Zaqatala DAİM-in direktoru, təcrübəli mütəxəssisdir.**

Son söhbətimizdə kənd təsərrüfatı sahəsində qazanılan uğurlardan həvəslə söhbət etdi. Fərəhlə bildirdi ki, ümummilli lider Heydər Əliyevin tapşırığı ilə MDB məkanında ilk olaraq torpaq islahatı Azərbaycanda məhz Zaqataladan başlamışdır. Bu Ulu öndərin zəhmətsevər zaqatalalılara göstərdiyi etimadın və dəyərin göstəricisi idi.

O vaxtdan Zaqatala fermerləri ilbəil həm bitkiçilik, həm də heyvandarlıq sahəsində uğurlu nəticələr əldə ediblər. Rayonda 2025–2026-cı təsərrüfat ili üzrə payızlıq səpin yekunlaşıb. Taxılçı fermerlər tərəfindən sahələrdə 3434 hektar arpa, 4834,3 hektar buğda keçən illə müqayisədə 100,4 faiz olmaqla taxıl səpini aparılıb.

Keçən il rayon üzrə 2025-ci ildə 144 kümçüyə 450 qutu ipəkqurdu paylanılıb. Əvvəlki illə müqayisədə məhsuldarlıq 106.3 faiz təşkil edib. Tədarük edilmiş baramanın məhsul subsidiyası və alış dəyəri 210614,8 manat olmaqla tam şəkildə kümçülərin fermer kartlarına köçürülməsi təmin edilib.

Rayonda 21 fermer tərəfindən tütünçülük üzrə əsasən Virciniya növü olmaqla 93 parsel üzrə cəmi 403 ha sahədə tütün məhsulu əkilib, kompleks aqrotexniki qaydalarla becərilərək 808,4 ton quru tütün tədarük edilib.

Rayonda əsas ixracyönümlü məhsul 20190,4 hektar təşkil edən, o cümlədən 16481 hektar bar verən fındıqçılıq təsərrüfatlarıdır. Artıq bu sahədə mövsümi aqrotexniki tədbirlər aparılıb, budama, təmizləmə, üzvi və mineral gübrələrin verilməsi işləri davam etdirilib.

Eyni zamanda, fındıq və digər bitkilərin əsas zərərvericilərindən olan qəhvəyi mərmər bağacığına qarşı mexaniki və kimyəvi mübarizə tədbirləri, həmçinin fermerlərin maarifləndirilməsi istiqamətində işlər davam etdirilib. Keçən ilin oktyabr-dekabr ayları ərzində rayonun Maqov, Danaçı, Aşağı Çardaxlar, Üçüncü Tala, Çobankol, Aşağı Tala, Car, Zəyəm, Muxax, Yuxarı Tala, Əliabad, Kebeloba, Lahıc, Yuxarı Çardaxlar, Mazıx və digər kənd inzibati ərazi dairələrində qəhvəyi mərmər bağacığına qarşı həm kimyəvi, həm də mexaniki mübarizə tədbirləri aparılıb. Qeyd edilən tədbirlər rayonun digər ərazilərində də davam etdirilib. Zaqatala Rayon İcra Hakimiyyətində Kənd Təsərrüfatı Nazirliyinin rəhbər şəxsləri icra başçısı Mübariz Əhmədzadə ilə geniş müzakirə aparıb, eləcə də rayonun inzibati ərazi nümayəndələri və bələdiyyələrinin iştirakı ilə qəhvəyi mərmər bağacığına qarşı mübarizə mövzusunda konfrans keçirilib.

Rayonda heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması istiqamətində "Süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın verilməsi Qaydası"na uyğun olaraq hesabat ilində 12 süni mayalanma mütəxəssisi tərəfindən 6469 baş mal-qara süni yolla mayalandırılıb, 4276 baş sağlam buzov doğulub. Süni mayalanma nəticəsində doğulmuş buzovların DAİM-in mütəxəssisləri tərəfindən mütəmadi olaraq fərdi təsərrüfatlarda monitorinqi həyata keçirilib. Bununla yanaşı, onlar süni mayalama yolu ilə doğulan buzovlara görə subsidiya almaq məqsədilə müraciət edən fermerlərə lazımi köməklik göstəriblər.

Zaqatala rayonu üzrə 22 min 146 fermer EKTİS-də qeydiyyatdan keçmişdir. 2024–2025-ci təsərrüfat ilində 10179 nəfər fermer 18776 hektar sahə üzrə 27187 əkin və çoxillik əkmələr üzrə bəyan etmişdir. Fermerlər verilən əkin bəyanları üzrə bütün müraciətləri göndəriblər. 2025–2026-cı təsərrüfat ili üçün 12,9 min bəyan sahəsi üzrə 7,2 min fermer tərəfindən 19,9 min payızlıq əkin və çoxillik əkmələr, ondan 3 min 544 bəyan payızlıq əkin, 16 min 356 bəyan çoxillik əkmələr üzrə edilib. Mütəxəssislər tərəfindən payızlıq və çoxillik əkmələr üçün əkin bəyanları üzrə monitorinq aparılmışdır. Monitorinqin nəticələrinin sistemə işlənməsi təmin edilib.

Hesabat dövrü ərzində 811 kənd təsərrüfatı texnikası növbəti texniki baxışdan keçirilib, 245 yeni texnika dövlət qeydiyyatına alınıb. 7 istismara yararsız kənd təsərrüfatı texnikası qeydiyyatdan çıxarılıb. Rayonda mövcud kənd təsərrüfatı texnikalarının yeni və müasir texnika və qoşqularla əvəzlənməsi ilə bağlı maarifləndirilmə tədbirləri davam etdirilib.

Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri tərəfindən rayonun bitkiçilik və heyvandarlıq sahələrinin intensiv inkişafını təmin etmək üçün kənd təsərrüfatı kooperativlərinin və iri fermer təsərrüfatlarının yaradılması və inkişafı məqsədilə fermerlərlə maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilib.

Vaqif Şabanov sonda bildirdi ki, Zaqatala fermerləri cari ildə daha böyük uğurlara imza atacaqlar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Zaqatala**

# Kəndin inkişafı yeni peşələr tələb edir

**Aprelin ilk günlərində Cəlilabad və Lənkəran Dövlət Peşə Təhsil Mərkəzlərinə (DPTM) infoturlar təşkil olunub.**

Səfərdə elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, nazirliyin nümayəndələri, Peşə Təhsili üzrə Dövlət Agentliyinin əməkdaşları, media rəhbərləri və jurnalistlər iştirak edirdi. İnfoturun məqsədi peşə təhsili sahəsində həyata keçirilən yeniliklərin, regionlarda müasir tədris imkanlarının və peşə təhsili alan tələbələr üçün yaradılmış şəraitin ictimaiyyətə daha geniş təqdim edilməsi, eləcə də peşə təhsilinin təşviqindən ibarət olub.

Görüşlər bir növ "Açıq qapı günü"nü xatırlatsa da, təqdim olunan mənzərə daha geniş aspekti əhatə edib. Bu, əsl mənada dəyişən təhsil sisteminin canlı nümayişi idi. İnfoturun iştirakçıları Cəlilabaddakı TPM-də yaradılmış maddi-texniki baza, tədris emalatxanaları, laboratoriyalar, maldarlıq ferması ilə tanış olublar. Bu çərçivədə tələbələrin qazandıqları bacarıqlar, onların real iş mühitinə hazırlanması və peşə təhsilinin tətbiqyönümlü xarakteri əyani şəkildə nümayiş etdirilib.

Qeyd edilib ki, Dövlət Peşə Təhsil Mərkəzləri də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradır. Cəlilabadda ən müasir infrastrukturla təchiz olunan DPTM-nin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.

Burada qənnadı-şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner və proqramçı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobil təmiri çilingəri, sürücü, mebelçi istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılır. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanır.

Lənkəranda isə yenidənqurmadan sonra 7 korpusdan ibarət olan kompleks formalaşıb. Ərazidə 53 nəfərlik yataqxana binası inşa edilib. Cari tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Turizm, kənd təsərrüfatı, sənaye, xidmət, İT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir. DPTM-də yeni maddi-texniki baza formalaşdırılandan sonra bir çox müasir ixtisaslar, o cümlədən elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma, binaların tikintisi və istismarı, elektrik xətlərinin, günəş panellərinin




quraşdırılması və təmiri üzrə mütəxəssis və texnik ixtisasları tədris olunur.

CNC dəzgahlarının yerləşdiyi emalatxanalar, avtotəmir sahələri, kulinariya korpusları və "təlim-qonaq evi" modeli peşə təhsilinin artıq köhnə "usta-şagird" formatından çıxaraq müasir sistemə çevrildiyini açıq şəkildə göstərir. Burada tələbələr yalnız öyrənmir, eyni zamanda, real iş mühitini simulyasiya edən şəraitdə təcrübə qazanırlar.

İnfotur çərçivəsində çıxış edən nazir müavini Kənan Kərimzadə DPTM-nin əhəmiyyətini xüsusi vurğulayaraq deyib ki, son illərdə istifadəyə verilən 5 belə peşə təhsil müəssisəmiz var. Bütün bunlar Prezident İlham Əliyevin regionlara, elm və təhsil sisteminə çox böyük bir töhfəsidir. 2030-cu ilədək ölkəmizdə ən azı 30-a yaxın, yüksək infrastruktura malik, məzmunu yenilənmiş, maliyyələşməsi müəyyən mənada dəyişmiş peşə təhsili mərkəzləri yaradılması nəzərdə tutulur.

Göründüyü kimi, peşə təhsili artıq gələcəyin texnologiyalarına uyğunlaşır və əmək bazarının real tələblərinə cavab verir. Tədrisin həm nəzəri, həm də praktiki aspektlərinin vəhdət təşkil etməsi bölgələrdə peşə təhsilinə marağı artırır.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndəsi Gültac Rəsulovanın təqdim etdiyi statistika da DPTM-lərin önəminin artdığını aşkar göstərib. Belə ki, müraciət edilən ixtisaslar arasında xidmət sahələri, həm də dərhal məşğulluq yaradan aşbazlıq, dərzilik, bərbərlik və s. öncül yer tutur. Həm 9 illik təhsil bazasından, həm də tam orta təhsil bazasından qəbul aparılır. Ümumilikdə isə qəbulun təxminən 58 faizini qısamüddətli proqramlar (yəni 6 aydan 1 ilə qədər) tutur. Eyni zamanda, peşə təhsilində qadınların iştirakı da diqqət çəkir. Dayə, mikrobioloq, moda-dizayn, proqram təminatçısı ixtisaslarının seçimində onlar üstünlük təşkil edirlər.

Cəlilabad və Lənkəranda keçirilən infoturlar bir daha sübut etdi ki, peşə təhsili artıq "ikinci seçim" deyil. Müasir infrastrukturu, praktikyönümlü tədrisi və əmək bazarına uyğun ixtisasları ilə bu sahə gənclər üçün real və perspektivli yol kimi formalaşır.

***

İnfoturların ertəsi günü Lənkəranda Milli Məclisin Elm və təhsil komitəsinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Regionlarda peşə təhsili: imkanlar və perspektivlər" mövzusuna həsr olunan forum keçirilib.

Forumda regionlarda peşə təhsilinin mövcud vəziyyəti qiymətləndirilib, bu sahədə inkişaf istiqamətləri, yeni yanaşmalar və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı məsələləri müzakirə olunub. Panel müzakirələrində müvafiq dövlət qurumlarının nümayəndələri, təhsil ictimaiyyəti və digər maraqlı tərəflərin iştirakı ilə regionlarda ixtisaslı kadr hazırlığının gücləndirilməsi, eləcə də dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi kimi mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov belə bir inam ifadə edib ki, forum regionlarda peşə təhsilinin rolunun gücləndirilməsi, mövcud imkanların dəyərləndirilməsi və əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli platforma rolunu oynayacaq.

***Ə.ƏLİYEV***
***XQ***

# Şəhid anası, biz də sənin oğlunuq

**Bəzən elə sual olur ki, sadə görünür, amma içində bir ömürlük ağrı yatır: "Necəsən?". Əslində, bu sual hamıya verilə bilər. Amma razılaşaq ki, bir şəhid anasına veriləndə tamam başqa anlamda səslənir. Çünki şəhid anasının "yaxşıyam" deməyə dili gəlməz, "pisəm" deməyə isə qüruru yol verməz. Onun qəlbində həm kədər var, həm də nikbinlik. Həm başı ucadır, həm də ürəyi yaralı…**



Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov Göycəli kəndində Tovuz döyüşlərinin şəhidi – çavuş Vüqar Sadıqovun anası Zeynəb Sadıqovanın evinə baş çəkəndə də bu hissləri keçirdi, onun sağlamlıq durumu, müalicəsinin gedişi və ailənin digər qayğıları ilə yaxından maraqlandı.

Əslində, bu cür görüşlər təkcə bir ziyarət deyil. Bu, bir qapının döyülməsi ilə verilən böyük bir mesajdır: "Siz unudulmamısınız". Şəhid ailələri üçün ən qiymətli məqamlardan biri də məhz budur - unudulmamaq, yad edilmək, halının soruşulması, dərdinin dinlənilməsi. Çünki Vətən üçün can verən oğulların ocağında qalan nisgil heç vaxt tam sönmür.

Seymur Orucov şəhid anasını ziyarətində bildirdi ki, dövlətimiz hər zaman şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının yanındadır. Bu isə o deməkdir ki, şəhidlərimizin əmanəti olan ailələrə diqqət və qayğı göstərmək həm mənəvi borcdur, həm də vətəndaşlıq məsuliyyətidir. Onda şəhidlər də əbədiyyət ünvanında daha rahat uyuyarlar.

Xatırladaq ki, 2020-ci il iyunun 12-də Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində baş vermiş Tovuz döyüşlərində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu çavuş Vüqar Lətif oğlu Sadıqov əsl hünər nümunəsi göstərib. O, xeyli sayda düşmən texnikasını və canlı qüvvəsini məhv edib və şəhadətə qovuşub. Ölümündən sonra "İgidliyə görə" medalına layiq görülən 33 yaşlı Vüqarın 3 övladı Vətənə əmanət qalıb...

Görüş zamanı Zeynəb ana şəhid ailələrinin daim diqqətdə saxlanılmasına, onların sosial müdafiəsinin gücləndirilməsinə görə minnətdarlığını bildirdi və göstərilən səhiyyə xidmətlərindən razılığını ifadə etdi. O dedi ki, əlbəttə, bir ana üçün övlad acısını heç nə azaltmır. Amma qayğı, diqqət, səmimi münasibət o ağır dərdin içində insana bir az təsəlli verir.

Ağstafa nümunəsi bir daha göstərdi ki, biz şəhidlərimizi yalnız anım günlərində xatırlamamalıyıq. Onların ailələrini, analarını, atalarını, doğmalarını hər zaman yad etməliyik. Çünki şəhidin adı Vətənin yaddaşıdırsa, onun ailəsi də həmin yaddaşın ən müqəddəs parçasıdır.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

# Ümmügülsümün "qızıl"ları

**Biləsuvar şəhər 4 saylı tam orta məktəbin şagirdi Ümmügülsüm Ruhullayeva son 3 ay ərzində qazandığı möhtəşəm nailiyyətlərlə diqqət mərkəzindədir. Məktəbin direktoru Elşən Ağazadənin bildirdiyinə görə, 10 yaşlı Ümmügülsüm qısa müddətdə 9 medal qazanaraq həm məktəbin, həm də Azərbaycanın adını beynəlxalq səviyyədə layiqincə təmsil edib. Onun uğurları arasında beynəlxalq və respublika səviyyəli nüfuzlu olimpiadalarda əldə etdiyi yüksək nəticələr xüsusi yer tutur.**



O, səhhətindəki müəyyən problemlər səbəbindən məktəbə getmədən, evdə təhsil alır. Bununla belə, qazandığı uğurlar onun əzminin və istedadının bariz nümunəsidir.

Məktəbli soydaşımız Beynəlxalq Mathxcel Riyaziyyat Olimpiadasında qızıl medal qazanaraq final mərhələsində iştirak etmək üçün ABŞ-ın Los-Anceles şəhərinə vəsiqə əldə edib. Eyni zamanda, Lütfizadə adına Fuzzy Riyaziyyat Olimpiadası və Riyaziyyat-Məntiq Olimpiadasında qızıl medala layiq görülüb, sonuncuda 100 faiz nəticə göstərib.

Bundan başqa, o, Elm və Təhsil İnstitutunun keçirdiyi riyaziyyat olimpiadasında da 100 faiz nəticə ilə qızıl medal və planşet mükafatı qazanıb. Paskal və FISO riyaziyyat olimpiadalarında gümüş, Kopernik riyaziyyat olimpiadasında isə bürünc medal əldə edib.

Anası Vəfa Nuralıyeva bildirdi ki, bu nəticələr Ümmügülsümün zəhmətinin, güclü iradəsinin və elmə olan sevgisinin bariz nümunəsidir. Onun sözlərinə görə, qızının kiçik yaşlarından riyaziyyata və məntiqə olan marağı zaman keçdikcə daha da güclənib. Hələ 1-ci sinifdə oxuyarkən yaşı uyğun gəlməsə də, istedadı onu "Kenquru" olimpiadasına aparıb və o, bu imkandan uğurla yararlanaraq ilk nailiyyətini qazanıb.

Ümmügülsüm Ruhullayeva hazırda öz biliklərini daha geniş auditoriya ilə bölüşmək məqsədilə kitab çap etdirməyə də hazırlaşır.

Gənc istedad bu günlərdə – aprelin 4-də keçirilən növbəti beynəlxalq olimpiadada da iştirak edib. Uğurlu nəticə əldə edəcəyi təqdirdə, Sinqapurda keçiriləcək növbəti mərhələdə mübarizəsini davam etdirəcək.

***XQ***

*Yaqub Zurufçu – 70*

# Ayrılıqları aşıb keçən nəğməkar

**Yaqub Zurufçu 1956-cı il aprelin 8-də Təbrizdə doğulub, ABŞ-da vətəndaşlıq alıb, sonra Bakıda yaşayıb və milli musiqi ifaçılığını zənginləşdirib. Azərbaycanın Əməkdar artisti fəxri adına layiq görülən vətənpərvər sənətçi milli musiqimizi Avropada, Cənubi və Şimali Amerikada, Afrikada, hətta uzaq Yaponiya və Avstraliyada uğurla təbliğ edərək, milyonlara sevdirə bilib.**

Onun səsi ilk dəfə məşhur “Cücələrim” mahnısı ilə Təbriz radiosunda efirə veriləndə 7 yaşı vardı. Gənclik illərində oradakı yerli televiziyada “Evləri var xana-xana”, “De, gülüm gəlsin, ay nənə”, “Dilbər” mahnılarını ifa etməsi ilə tanınaraq sevilib. Möhürünü vurduğu mahnı isə “Ayrılıq” olub.



**Məni ağladandan gülüş istərəm,
Uzaq düşənimlə görüş istərəm,
Hasarı yıxmağa yürüş istərəm,
Ayrılıq, ayrılıq, aman ayrılıq,
Hər bir dərddən olar yaman ayrılıq…**

Xatırlayırıq ki, sözləri Fərhad İbrahimiyə, musiqisi Əli Səlimiyə aid olan, illər öncə Fatma Qənnadinin, Rəşid Behbudovun, Lütfiyar İmanovun və başqalarının oxuduğu həmin mahnını 1989-cu ildə ilk dəfə Azərbaycana gələn Yaqub Zurufçu Bakının Azadlıq meydanında həmrəylik çağırışı kimi səsləndirəndə dəniz kimi dalğalanan izdiham göz yaşları içərisində nəqəratını xorla təkrarlayırdı. Mahnının son notlarına çatanda isə 33 yaşlı Yaqub bəy kütlənin qarşısında diz çökməklə daha da ucaldı.

Onu da qeyd edək ki, hələ 1985-ci ildə Almaniyada konsert zamanı Rəşid Behbudov Gülağa Məmmədovun təklifi ilə söz verilən Yaqubun ifasında “Ayrılıq” mahnısına heyranlıqla qulaq asıb və gənc müğənnini elə səhnədəcə bağrına basaraq deyib: “Daha arxayınam ki, məndən sonra davamçım var”. Yaqub Zurufçu uzun illər xaricdə yaşasa da, bir çox ölkədə Azərbaycan mahnılarından ibarət 30-dan çox musiqi albomu işıq üzü görüb və sevə-sevə alınaraq dinlənilib.

Ulu öndər Heydər Əliyev də gözəl səs sahibinin böyük pərəstişkarı idi. Ümummilli lider Klivlenddə müalicə olunarkən onu ziyarət edən Yaqub Zurufçu böyük şəxsiyyətin sevdiyi mahnıları pianoda özü çalaraq, ustalıqla ifa edib. Sonra Bakıya qayıdan dahi rəhbər Prezident Administrasiyasında Yaqub bəyi qəbul edərək ona olan rəğbətini dilə gətirmişdi: “Mən səni, sənin sənətini çox sevirəm. Təbiidir, səni məndən başqa da Azərbaycanda çoxları, hamı sevir. Çünki sən Azərbaycanın o ağır illərində xalqımıza öz mahnılarınla, öz sənətinlə çox qürur vermisən, mənəvi dayaq olmusan!”.

Dünyanı başa-baş gəzsə də, hər zaman Bakı həsrəti ilə yaşayan Yaqub Zurufçu bu arzusuna çatandan sonra ABŞ vətəndaşı olmaqla yanaşı, 15 iyul 2009-cu ildən Azərbaycan vətəndaşlığı da alıb və bütün xalqın doğmasına çevrilib. Qarabağın azad olunmasını arzulayan və bu müqəddəs amala tezliklə nail olunması üçün özünün sənətkar töhfəsini verən görkəmli sənətkar Müdafiə Nazirliyinin təşkilatçılığı ilə hərbçilərimizin vətənpərvərlik ruhunun daha da gücləndirilməsi məqsədilə 35 hərbi hissədə geniş konsert proqramı ilə çıxış edib. Daim şəhid məzarlarını ziyarətə gedib, onların ailələrinə yardım göstərib. Həzin mahnıları ilə şəhid analarının yanan qəlbinə su çiləyib.

Yaqub Zurufçunun 2019-cu ilin payızında Bakıda, Heydər Əliyev Sarayında təşkil olunan solo-konserti böyük anşlaqla keçib və yaddaşlara yazılıb. Orada dahi Üzeyir bəyin əsərlərini, Bülbülün, Rəşid Behbudovun repertuarlarından klassik mahnıları, bütöv Azərbaycana, doğma Təbrizə və Bakıya həsr edilmiş musiqi əsərlərini məharətlə səsləndirib. Bu, onun 65 yaşı ərəfəsində böyük auditoriya qarşısında son hesabat konserti olub. Daha sonra Yaqub Zurufçu əslən güneyli olan Xalq şairi Söhrab Tahirin məşhur “Daha” şeirinin motivləri əsasında 2 hissəli klip layihəsi üzərində işləyib:

**İki bölünməkdən elə qorxmuşam,
Çöpü də ikiyə bölmərəm daha...**

Hələ 30 il əvvəl Xudafərin körpüsü üzərindən xalqımızın birlik əzmini ifadə etmiş “Ayrılıq” adlı ilk klipin davamı olacaq bu layihə Yaqub Zurufçunun xəstəliyi üzündən yarımçıq qalsa da, ondan sonra 11 yaşlı istedadlı oğlu Atillanın iştirakı ilə tamamlanıb.

Vətən müharibəsində möhtəşəm qələbəmizdən sonra yaşadığı qısa dövrdə Yaqub Zurufçu öz çıxışları ilə qəhrəman oğul və qızlarımıza sənətkar minnətdarlığını öz mahnıları ilə ifadə edib. Bu ifalar Vətəndə qürbət taleyi yaşayan sənətkarın, sanki, vida nəğmələri olub.

***Ə.DOSTƏLİ***
***XQ***

# Neftçi alim, şair və diplomatın yubiley mərasimi





**Dünən Yazıçılar Birliyinin Natəvan klubunda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi, Azərbaycanın Gürcüstandakı sabiq səfiri, şair Hacan Hacısoyun 80 illik yubileyi qeyd olundu. Yubilyarın “Var ilə yoxun arası” və akademik Rafiq Əliyevlə birgə yazdığı “Neftçıxarmada qeyri-səlis məntiq” kitablarının təqdim olunduğu toplantıda şairin qələm dostları, alimlər, ziyalılar iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə Yazıçılar Birliyi sədrinin müavini Rəşad Məcid açaraq Hacan müəllimi yubileyi münasibətilə təbrik etdi və bildirdi ki, hələ 10 il əvvəl təmsil etdiyi qurumda onun 70 illik yubileyini qeyd etmək haqqında qərar qəbul olunub. Lakin təvazökar alim bundan imtina edib. Rəşad Məcid diplomat-şairi Yazıçılar Birliyinin sədri Anar və katib Çingiz Abdullayevin də adından təbrik etdi.

ADNSU-nun professoru, texnika elmləri doktoru Rafiq Əliyev ilk öncə uzun illərdən bəri çiyin-çiyinə çalışdığı Hacan müəllimin yüksək mənəvi keyfiyyətlərə malik alim olduğunu qeyd etdi. Onun sözlərinə görə, tanıdığı müddətdə həmkarını həmişə başı uca gəzdiyini görüb və inanır ki, bundan sonra da bu üstünlüyünü qoruyub saxlamağı bacaracaq. Rafiq müəllimin fikrincə, Tanrı insana adətən verdiklərini balanslı şəkildə verir. Çox nadir insanlar var ki, onlara çox şeylər qismət olur. Bunlar Tanrının sevgisinə tuş gələn insanlardır. Hacan Hacısoy da məhz belə insanlardandır ki, Tanrı ona həm yüksək insani keyfiyyətlər, həm elm, həm diplomatik qabiliyyət, həm də şairlik istedadı verib. Bütün bunlardan başqa, Hacan müəllim olduqca təvazökar, alicənab insandır. Onun bu keyfiyyətləri gündəlik təmaslarda aydın nəzərə çarpır və ona böyük hörmət qazandırır.

Hacan müəllimin yaradıcılığı haqqında söz açan natiq əlavə etdi ki, yubilyar üç kitabın müəllifidir. Türkiyədə çap olunub, Atatürk mükafatına layiq görülüb. O, azad düşüncəli, müstəqil fikirli, ədəbiyyatda öz yolu olan şairdir.

Sonra tədbirin aparıcısı, Yazıçılar Birliyi poeziya şöbəsinin müdiri İbrahim İlyaslı Hacan Hacısoyun poeziyası haqqında bir qədər məlumat verərək bildirdi ki, insanın çox şeyləri – mükafatları, müəyyən statusları ola bilər. Amma şair üçün ən yaxşı təqdimat onun şeirləridir. Ona görə də Hacan müəllimi tanımaq üçün insana müdriklik aşılayan şeirlərini oxumaq kifayətdir.

Görkəmli alim, AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru Südeyf İmamverdiyev əsasən Hacan Hacısoyun diplomatik fəaliyyəti üzərində dayanaraq onun ölkəmiz üçün çətin bir dövrdə Gürcüstanda səfir olduğunu, işlədiyi müddətdə Azərbaycanı layiqincə təmsil etdiyini bildirdi. Onun sözlərinə görə, çox yaxından tanıdığı Hacan müəllim öz Vətəninə, dövlətinə və xalqına qəlbən bağlı olan bir insandır və bu müqəddəs amallara həmişə sədaqətlə xidmət edib.

Bundan sonra ADNSU-nun müəllimləri, YAP-ın təmsilçici Zəkiyyə xanım, eləcə də Zəlimxan Məmmədli, tənqidçi Ramiz Göyüşov, şair Rəfael Tağızadə, şair-naşir Elçin İsgəndərzadə, Şahismayıl Şəmmədoğlu və digərləri çıxış edərək şairi 80 illik yubileyi münasibətilə təbrik etdilər.

Bildirildi ki, Hacan Hacısoy diplomat kimi nə qədər müdrik fəaliyyət göstərmişdisə, şeirlərində də bir o qədər incə və məsuliyyətlidir. Onun əsərləri ilə tanış olduqca vətənpərvər, milli-mənəvi dəyərləri uca tutan və təbliğ edən, sözün qədrini bilən, ondan məharətlə istifadə etməyi bacaran bir şairlə tanış olursan. Onun şeirlərində heç zaman artıq sözə rast gəlməzsən. Məhz bu xüsusiyyətlərinə görədir ki, Azərbaycanın müstəqillik illərində qarşılaşdığı ağır problemlər, Vətən ağrıları, Qarabağın işğalı şairin şeir və poemalarında ayrıca bir yer tutur. Onun şeirlərindən aydın olur ki, xalqımıza qarşı törədilən ədalətsizliklərlə barışmır, torpaqlarımızın işğalına dözə bilmir, hər dəqiqə əlinə silah götürüb vuruşmağa hazırdır. Torpaqlarımıza qarşı təcavüz onu nə qədər ağrıdırsa, Qarabağın azadlığa qovuşması, ədalətin bərpası şairi ürəkdən sevindirir. Nəticədə isə nikbin poetik nümunələr yaranır.

Biz də “Xalq qəzeti” olaraq şair, diplomat, alim Hacan Hacısoyu 80 illik yubileyi münasibətilə təbrik edir, həyatında və yaradıcılığında uğurlar arzulayırıq!

***Paşa ƏMİRCANOV***
***XQ***

# Özbəkistanda yeni azərbaycanşünaslıq mərkəzi

**Daşkənd İqtisadiyyat və Pedaqoji Universitetində Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi çərçivəsində XX əsr türkoloji elminin görkəmli nümayəndəsi, özbəkəsilli Azərbaycan alimi Xalid Səid Xocayevin adını daşıyan azərbaycanşünaslıq mərkəzi açılıb. Burada Azərbaycan dili və mədəniyyəti ilə daha yaxından tanışlıq, elmi müzakirələr və birgə layihələr həyata keçiriləcək.**



Mərkəzin açılış mərasimində Azərbaycan Respublikası Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov bildirib ki, Xalid Səid Xocayev Azərbaycan və Özbəkistan xalqları üçün ortaq elmi və mənəvi dəyərdir. Həyatının böyük hissəsini Azərbaycanda elmi fəaliyyətə həsr etmiş və türkoloji elmin inkişafına mühüm töhfələr vermiş alimlərdən biridir.

Görkəmli alimin irsi Türk dünyasının ortaq elmi yaddaşının mühüm hissəsi kimi qiymətləndirilməlidir.

Yeni türkoloji ocaq Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyətini əks etdirən kitablar, fotomateriallar və müxtəlif tədris vəsaitləri ilə təmin olunub.

***XQ***

*Yeni nəşrlər*

# Türkoloji Qurultayın 100 illik yubileyinə sanballı töhfə

**AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin tarixi Bakı qurultayının 100 illik yubileyi münasibətilə ərsəyə gətirdiyi “1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda” adlı fundamental əsəri işıq üzü görüb.**




Dilçilik İnstitutunun Elmi şurasının qərarı ilə çap olunan kitabın elmi məsləhətçisi akademik İsa Həbibbəyli, elmi redaktoru akademik Nizami Cəfərov, rəyçisi Türk Dil Qurumunun başqanı professor Osman Mertdir.

Azərbaycan Prezidenti İlham Əliyevin I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında 22 oktyabr 2025-ci il tarixli sərəncamının mətni ilə açılan kitab “Elm və təhsil” nəşriyyatında işıq üzü görüb.

Tədqiqatın annotasiyasında müəllif Nadir Məmmədli əsərin ərsəyə gəlməsində, 1 əsr öncə baş vermiş mühüm tarixi hadisənin siyasi, iqtisadi, sosial və mədəni mənzərəsini geniş əks etdirən qiymətli arxiv sənədlərinin sistemli şəkildə araşdırılmasında göstərdikləri dəstəyə görə professor Əsgər Rəsulova, Elmira Ələkbərovaya, Lamiyə Həsənovaya və digər arxiv cəfakeşlərinə minnətdarlığını bildirib.

Əsərin təsirli bədii-publisistik üslubda qələmə alınmış giriş mətnində qeyd olunur ki, 1926-cı ilin bir qış axşamında İsmailiyyə binasında yanan gur işıqlar Bakının səmasını işıqlandırıb və I Türkoloji Qurultay mənəvi dünyamızda öz sözünü deyərək tarixə yazılıb. Küçə boyunca asılmış bayraqlar, “Yeni həyat – yeni yazı!”, “Yaşasın yeni türk əlifbası!” kimi şüarları, əlvan şarlar, bir sözlə, əsl bayram ovqatı vardı. İçəridə isə başqa bir aləm vardı.

Qısası, İsmailiyyə binası bu dəfə sadəcə möhtəşəm memarlıq abidəsi deyildi, Türk dünyasının gələcəyi haqqında söz açılan, tarix yazılan bir məbədə çevrilmişdi. Orada yüzlərlə alim, yazıçı, pedaqoq və siyasətçi bir araya gəlmişdi. Uzaq diyarlardan – qardaş məmləkətlərdən buraya gələnləri təkcə elm sevdası deyil, əlifbalarının, dillərinin gələcək taleyi ilə bağlı parlaq amal, məslək birləşdirmişdi. Bütün bunlar Türk dünyasının ruhuna köklənən, gələcəyinə ünvanlanan çağırışın cazibə qüvvəsini göstərirdi...

Əsərdə həmin dövrün tarixi şəraiti, 100 il keçməsinə baxmayaraq, tədqiq olunmayan arxiv sənədləri və mətbuat materiallarının xronoloji ardıcıllıqla transkripsiyası, seçmə tərcümələr və elmi şərhlər verilib. İrihəcmli nəşrdə qurultayın protokolları, məruzə və çıxış mətnləri, rəsmi teleqramlar, eləcə də müvafiq komissiyaların sənədləri birbəbir yer alıb.

Əsərdə tarixi Bakı məclisinin sovet məkanında türk dillərinin gələcək inkişafı, yazı sisteminin transformasiyası və mədəni inteqrasiya mexanizmləri ilə bağlı strateji qərarların formalaşdırıldığı rəsmi platforma kimi hərtərəfli təhlil edilir, onun tarixi-funksional mahiyyəti, türkoloji istiqamətdə yaratdığı mədəni nəticələr də sistemli şəkildə araşdırılır.

Professor Nadir Məmmədli 828 səhifəlik nəşrdə təkcə hadisələrin ardıcıllığını əks etdirməyi deyil, eyni zamanda, bunun arxasında dayanan tarixi-siyasi məzmunu, ideoloji istiqamətləri analitik şəkildə açıqlamaq kimi qarşısına məqsəd qoyub və əminliklə deyə bilərik ki, ağır və şərəfli araşdırmanın öhdəsindən uğurla gəlib.

Xatırladaq ki, Türkoloji Qurultayın yubileyi ərəfəsində professor Nadir Məmmədli kitabın bir sıra epizodlarını “Xalq qəzeti”nin oxucularına təqdim edib.

Akademik nəşr sayılan “1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda” kitabı dilçilər, ədəbiyyatçılar, tarixçilər, tələbə-filoloqlar, türkoloji araşdırmaçılar üçün zəngin və dəyərli mənbədir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Qaxda yerli yazarlarla görüş



**Azərbaycan Yazıçılar Birliyi Şimal-Qərb Regional Bölməsi və Qax Rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Qax rayonundan olan şair və yazıçılarla görüş keçirilib. Qax RİH başçısı Elvin Paşayevin də qatıldığı tədbirdə şəhid ailələri, rayon ziyalıları və ictimaiyyəti, xüsusilə mədəniyyət, təhsil və səhiyyə sahəsində çalışan ziyalılar iştirak ediblər.**

Azərbaycan Yazıçılar Birliyi Şimal-Qərb Regional Bölməsinin sədri Əlmaniz Ələkbərli Qax rayonunda ilk dəfə belə geniş tərkibdə görüş keçirildiyini qeyd edib. Azərbaycanda həmişə saza, sözə, şair və yazıçılara dövlət qayğısı olub. Bu gün təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasət uğurla davam etdirilir.

Bölmə sədri bildirib ki, bu gün yubileyi qeyd olunanlar arasında 65 yaşını tamamlayan Azərbaycan, Gürcüstan və Rusiya Yazıçılar birliklərinin üzvü, tərcüməçi-jurnalist Giya Paçxataşvili də var. O, gürcü millətinin nümayəndəsi olmasına baxmayaraq, Azərbaycan dilini daha yaxşı bildiyinə görə ana dilimizdən digər dillərə şeirlər tərcümə edir. Mən onu həmişə böyük azərbaycanlı adlandırıram. İkinci yubilyarımız yazıçı-dramaturq, rejissor, şair, 70 yaşlı Osman Ümmandır. Bu məclisdə onun yenicə işıq üzü görmüş “Sev Qadını” şeirlər kitabını da oxuculara təqdim edirik. Üçüncü yubilyarımız 60 yaşlı Pərvanə Həşimova isə Tasmalı kənd tam orta məktəbində dərs hissə müdiri, tanınan ədəbiyyatçıdır. Dördüncü yubilyarımız isə 60 yaşlı Sevinc Sabirqızıdır, BDU-nun biologiya fakültəsini bitirməsinə və bu sahədə işləməsinə baxmayaraq, şeir yazmaq həvəsi onda uşaqlıqdan olub. “Bir kəndim vardı mənim” adlı ilk şeirlər kitabını bu gün oxucularımıza təqdim edirik.

Daha sonra yubilyarların həyat və yaradıcılığını əks etdirən videoçarx təqdim edilib. Onların şeirlərinə bəstələnmiş mahnıların, qiraətçilər Sevinc Abakarova və Aytən Ziyadovanın ifasında şeirlərin səsləndirilməsi tədbirə xüsusi rəng qatıb.

Qax RİH başçısı Elvin Paşayev yubilyarları təbrik edərək Azərbaycanda həmişə söz adamlarına, şair və yazıçılara xüsusi diqqət və qayğının olduğunu vurğulayıb. Sonda yubilyarlara fəxri fərman və hədiyyələr verilib.

***XQ***

*Sənətkar və zaman*

# Abidələrdə əbədiləşən milli dəyərlər

## *Müsahibimiz Xalq rəssamı Natiq Əliyevdir*



**Emalatxanada hökm sürən sükut beynimdə dolaşan sualları min yerə haçaladı. Əslində, tamamlanmamış işlər, yonulmaqdan yorulmuş daşlar, hələ adını tapmamış fikirlər bu səssizlikdə dil açıb çox şeydən danışırdı. Daşın sərtliyində, metalın soyuqluğunda gizlənən ideyalar heykəltəraşın daxili aləmindən, sənət dünyasından xəbər verirdi.**

Biz də bu dünyanın qonağı olduq. **Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Natiq Əliyevlə** onun yaradıcılıq yolu, rəhbərlik etdiyi ali təhsil müəssisəsində tədris prosesində həyata keçirilən yeniliklər, estetik düşüncə modelinin formalaşdırılması və müasir çağırışlar barədə danışdıq.

***– Natiq müəllim, söhbətimizə sənətə gəlişinizdən başlayaq. Sonu görünməyən ümmana bənzəyən sənət dünyasında özünüzü necə tapdınız?***

– Bəzən narahat, düşüncəli, bəzən də susqun və ümidli. Bu sehirli aləm məni özünə doğru elə astaca çəkdi ki, sözün açığı, heç hiss etmədim. Fərqinə varanda anladım ki, bu ümmana hər kəs öz sahilindən baxır və fərqli dərinlik görür. Bu dərin qatlara enmək, sərt dalğaların hücumuna tab gətirmək isə sənin istedadından, bacarığından asılıdır.

Hələ uşaq ikən atam məndə bu sənətə həvəs oyatmışdı. O, evimizdəki keramik fiqurlara baxıb plastilindən nəsə düzəldir, biz də qardaşımla ona qoşulurduq. Bir müddət sonra müstəqil şəkildə kiçik fiqurlar hazırlamağa başladım. Valideynlərim bu sənətə həvəsimi görüb məni Bakı Şəhər Pionerlər Sarayında heykəltəraşlıq dərnəyinə yazdırdılar. Orada Anna İvanovna adlı müəllimdən dərs alırdım.

8-ci sinfi bitirəndən sonra sənədlərimi Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə verdim. Amma imtahanlardan keçmədim. Bu, mənim üçün əlbəttə, gözlənilməz zərbə oldu və eyni zamanda, başa düşdüm ki, nəyəsə nail olmaq üçün ciddi çalışmaq lazımdır. Heykəltəraş olmaq istəyim o qədər güclü idi ki, ilk addım uğursuz olsa da, ruhdan düşmədim. Növbəti il əla qiymətlərlə qəbul olundum, hətta imtahanlarda yüksək nəticə göstərdiyimə görə məni televiziya verilişinə də dəvət etmişdilər. Oxuduğum 4 ildə seçdiyim sənətin sirlərinə yiyələndim. Qrupumuzun rəhbəri Xalq rəssamı Arif Qazıyevdən bu sahənin dərinliklərini öyrəndim.

1978-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gənclərinin aparıcı ali rəssamlıq məktəblərinə göndərilməsi məqsədilə xüsusi proqram həyata keçirilirdi. Proqram çərçivəsində Sankt-Peterburqda yerləşən Vera Muxina adına Ali Rəssamlıq Məktəbinə qəbul olundum. Qeyd edim ki, bu təhsil ocağı hazırda Baron Ştiqlitz adına Ali Rəssamlıq Akademiyası kimi fəaliyyət göstərir.

***– Əzim Əzimzadə adına Rəssamlıq Məktəbi və Sankt-Peterburq Akademiyasında təhsil sənət yolunuza necə işıq saldı?***

– Vera Muxina adına Ali Rəssamlıq Məktəbində oxumaq asan deyildi. Buna baxmayaraq, təhsil aldığım illər yüksək göstəricilərlə yadda qaldı. SSRİ-də yaradıcı tələbələr üçün nəzərdə tutulmuş ən yüksək mükafata – "Lenin təqaüdü"nə layiq görülmüşdüm. Bu təqaüd yalnız üçüncü kursu bütün fənlər üzrə əla qiymətlərlə tamamlayan və ictimai fəaliyyətilə fərqlənən tələbələrə verilirdi. Həmin dövrdə bir neçə namizəd vardı, lakin mənim seçilməyimdə əsas rol oynayan amillərdən biri böyük məsuliyyət tələb edən abidə üzərində çalışmağım idi.

Söhbət 1985-ci ildə açılışı reallaşan, İkinci Dünya müharibəsi illərində həlak olmuş müəllim, həkim və tələbələrə həsr edilən memorial kompozisiyadan gedir. Abidənin memarlıq hissəsinin müəllifi həmin ali məktəbin rektoru, Rusiya Federasiyasının Əməkdar memarı Yakov Nikolayeviç Lukin, heykəltəraşı isə mən idim. Qeyd edim ki, orada peşəkar heykəltəraşlığın əsaslarını daha mükəmməl öyrənməyim mənim inkişafıma, öz yolumu seçməyimə böyük təkan verdi.

***– Deyirlər, heykəl daşdan və ya tuncdan yox, ideyadan yaranır. Bir abidəni yaradarkən sizi daha çox nə düşündürür?***

– Təbii ki, əsər yaranmamışdan əvvəl müəyyən ideya ortaya çıxır. Çünki ideya, forma haqqında düşüncələr olmadan mükəmməl əsər yaratmaq olmaz. Bir şəxsiyyətin obrazını yaradarkən, ilk növbədə, onun cəmiyyətdəki yeri, rolu, nailiyyətləri haqqında geniş məlumata malik olmalısan ki, bütün bunları heykəlin dili ilə ifadə edə biləsən. Axı, bu, tablo deyil ki, orada təbiəti, rəngləri göstərəsən. Heykəlin dili məhdud olsa belə, imkanlar genişdir: daxili aləmin açılması, zahiri görünüşün verilməsi və s.

Yaratdığın obraz yalnız zahirən deyil, daxilən də insanın özünü əks etdirməlidir. Bu mənada, mütləq insanın daxili aləmini heykəlin dili ilə ifadə etməyi bacarmalısan. Əgər bunu edə bilməsən, detalları oxşatsan belə, şəxsiyyətin obrazını yüksək səviyyədə yaratmaq mümkün deyil. Əlbəttə, bunun üçün zaman, təcrübə və peşəkarlıq tələb olunur.

***– Bəs daxili səs formaya çevrilə bilirmi?***

– Bəli, əslində, bütün yaradıcılıq bunun üzərində qurulub. İnsanın hiss və düşüncələri, tərəddüdləri, intuisiyası əvvəlcə səssiz yaranır. İnsan bu hissləri ifadə etməyə başladığı an daxili səs ədəbiyyatda sözə, rəssamlıqda rəngə və xəttə, musiqidə səsə, heykəltaraşlıqda isə daşda formaya çevrilir. Hətta demək olar ki, bütün sənət, ədəbiyyat və yaradıcılıq məhz bu görünməz səsin görünən formaya keçidindən yaranır. İnsanın daxilindəki səs, sadəcə, düşüncə deyil, hisslərin, xatirələrin, təcrübələrin, qorxuların və arzuların ifadəsidir. İnsan onu, ilk növbədə, özü "eşidir" və elə bu məqamda daxili səs formaya can atır.

Maraqlıdır ki, daxili səsin formaya çevrilməsi yalnız sənət sahəsinə aid deyil. Gündəlik həyatda da insan fikrini ifadə edərkən, qərar verərkən, hətta susarkən belə, bu prosesi yaşayır. Sadəcə, sənətdə bu proses daha şüurlu və daha dərin olur. Çünki sənətkar daxili səsini mümkün qədər dəqiq və təsirli şəkildə formaya salmağa çalışır. Amma daxili səs heç vaxt tam şəkildə ifadə olunmur, bir hissəsi deyilməmiş qalır. Bəlkə də yaradıcılığın davamlılığını təmin edən də məhz budur – insan daim içində qalanı ifadə etməyə, ifadə etdiyini isə yenidən dərk etməyə çalışır. İnsan daxilində eşitdiyini təqdim edərkən yalnız göstərmir, eyni zamanda ona həyat verir.

İncəsənətdə yaradıcılıq prosesinə müxtəlif yanaşmalar mövcuddur. Bəzən rəssama konkret mövzu verilir və o, bu mövzuya uyğun forma axtarır. Xüsusilə monumental heykəltəraşlıqdan söhbət gedirsə, seçilən forma mütləq şəkildə əsərin ucaldılacağı məkanla uzlaşmalıdır. Burada material seçimi, məzmun və ölçü vəhdət təşkil etməli, heykəl ətraf mühitlə tam bir harmoniya yaratmalıdır.

"Dəzgah heykəltəraşlığı" adlandırdığımız sərbəst işlərdə isə yanaşma tamamilə fərqlidir. Müasir heykəltəraşlıqda, xüsusən də abstrakt sənətdə mövzu artıq öz önəmini itirir, forma ön plana çıxır. Lakin formanı tapmaq üçün insanın düşüncə tərzində, baxış bucağında ciddi təkamül baş verməlidir. Sənətkar çox oxumalı, çox görməli və daim düşünməlidir ki, fikirlərini məhz forma vasitəsilə ifadə edə bilsin. Bu, hazır mövzu üzərində işləməkdən qat-qat çətindir.

İndiki dövrdə kreativ yanaşma xüsusi səy tələb edir. İnternet əsri bizə dünyanın istənilən nöqtəsindəki sənət proseslərini izləmək imkanı verir; rəssamların etdikləri yenilikləri görürük. Bu rəqabətli və zəngin mühitdə öz sözünü demək üçün təkcə əllə deyil, həm də zehinlə çalışmaq, düşüncədə və yanaşma tərzində köklü dəyişikliklər etmək vacibdir. Əsl sənət elə beynimizdəki o fəlsəfəni tapmaqdan başlayır.

***– Ulu öndər Heydər Əliyevin ilk ayaqüstü heykəlini siz yaratmısınız. Bu, şəxsi istəyiniz idi, yoxsa dövlət sifarişi?***

– Ümummilli lider Heydər Əliyev dünyasını dəyişdikdən sonra onun Kiyev şəhərində abidəsinin ucaldılması mənə tapşırıldı. Bu məqsədlə Kiyev şəhərinə yollandım. Həmin vaxt nə eskiz vardı, nə də hazır layihə. Yalnız abidənin qoyulacağı yer göstərildi və işləməyə başladım. Eskizlər hazırlandı, layihə formalaşdı. Memarlıq hissəsini ukraynalı memar Vladimir Skulski, heykəltəraşlıq hissəsini isə mən yerinə yetirdim.

Təbii ki, hər monumental işin ilk mərhələsi bədii şurada müzakirə olunur, heç bir abidə eskiz təsdiq olunmadan birbaşa ucaldılmır. Əvvəl gil materialda işlənir, çünki gildə düzəliş etmək, forma üzərində çalışmaq daha asandır. Mənim hazırladığım abidə 11 nəfərdən ibarət bədii şuraya təqdim olundu. Şuranın tərkibində olan memar və heykəltəraşlar işi yüksək qiymətləndirdilər və qeyd etdilər ki, uzun müddətdir belə bir fundamental iş təqdim olunmayıb.

Abidə bürüncə keçirildikdən sonra quraşdırılma mərhələsinə başladıq. Açılışda Prezident İlham Əliyevin də iştirak edəcəyi bildirilmişdi. Səfir mənə "əgər iş bəyənilsə, sizi Prezidentə təqdim edəcəyik" dedi. Onun bu sözü məsuliyyətimi və həyəcanımı daha da artırdı, çünki həmin vaxta qədər Ulu öndərin ayaqüstü abidəsi işlənməmişdi. Sağlığında Naxçıvanda 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüyünə görə büstü qoyulmuşdu. Fəxri Xiyabanda isə abidə hələ ucaldılmamışdı.



Prezident və birinci xanım mərasimə təşrif buyurduqdan sonra tədbir daha rəsmi, daha təntənəli məzmun aldı. Ukrayna tərəfi də yüksək səviyyədə təmsil olunurdu. Mən isə bütün bu proses boyu daxilən həyəcan yaşayırdım. Gözləyirdim ki, məni təqdim edəcəklər, müəllifi kimi Prezidentin qarşısına çıxacağam. Bu, mənim üçün böyük imtahan idi. Nəhayət, mənə Prezident İlham Əliyevlə görüşmək qismət oldu. Dövlət başçısı çox dəyərli sözlər söylədi. Bu qiymət mənim üçün həm böyük şərəf, həm də yaradıcılıq məsuliyyətini bir daha dərk etmək idi. Çünki hamının tanıdığı, hörmət bəslədiyi, rəğbət duyduğu şəxsiyyətin heykəlini yaratmaq, onun daxili aləmini, xarakterini, əzəmətini və qüdrətini abidədə əks etdirmək böyük məsuliyyət tələb edir.

Üstəlik, bu abidəyə çox insan baxacaq, hər kəs öz düşüncəsinə, öz hissinə uyğun olaraq onda nəsə axtaracaq. Mən bütün bunların fərqində idim. Şükürlər olsun ki, hər şey uğurlu alındı və abidə öz bədii təsir gücü ilə layiqincə qarşılandı. Kiyev layihəsindən sonra Tbilisidə Ulu öndərin büstünü hazırladım. Ardınca Belqradda, Taşmaydan parkında abidəsini işlədim və digər layihələr meydana gəldi.

***– Ümumiyyətlə, heykəl yaratmaq sizin üçün daxili rahatlıqdır, yoxsa gərgin zəhmət?***

– Əgər sevdiyin işlə məşğul olursansa, heç vaxt narahat, həmişə də rahat ola bilməzsən. Sən hər ikisinin arasındasan, yəni əgər gördüyün iş ürəyincə alınırsa, mənəvi rahatlıq tapır, zövq alırsan. Alınmayanda isə əksinə. Çox qəribədir ki, emalatxanaya getməyəndə narahat oluram, sanki nəsə etməli, hansısa işin üzərində çalışmalıyam. Bu, artıq həyat tərzimə çevrilib.

***– Bəs, sənətlə həyat arasında sərhəd haradan başlayır?***

– Əsl sənət elə həyatın özüdür. Hər bir əsər, ilk növbədə, həyatla bağlı olmalıdır. Çünki əsərin mövzusu da, ruhu da məhz həyatın özündən, təbiətdən süzülüb gəlir. Sənətkarın əsas axtarışı sənətlə həyat arasındakı incə əlaqəni tapmaq, onu vəhdət halına gətirmək, sərhədləri aradan qaldırmaqdır. Bu vəhdət o zaman daha dolğun alınır ki, sənət təbiəti olduğu kimi, mexaniki şəkildə təkrar etməsin.

Əsas məsələ təbiətin gizli fəlsəfəsini duymaq və onu əsərə köçürməkdir. Bu, daha həyati və təsirli olur. Məhz bu nöqtədə sənətlə həyat fəlsəfi müstəvidə bir-birinə qovuşur. Əlbəttə, hər kəsin öz fərdi yaradıcılıq dünyagörüşü var. Lakin bir həqiqət dəyişməz qalır: düşünən insan hər zaman təbiətdən və həyatdan ilham alaraq öz fəlsəfi dünyasını qurur.

***– Azərbaycan heykəltəraşlığı dünya sənətinə hansı dildə təqdim olunmalıdır: milli, yoxsa bəşəri?***

– Sözsüz ki, heykəldə millilik olmalıdır, yəni klassik ənənələri qorumaq, saxlamaq şərtilə milliliyi də göstərməliyik. Əslində, milli üslubdan istifadə edərək heykəltəraşlığı daha maraqlı istiqamətdə inkişaf etdirmək olar. Azərbaycan heykəltəraşlarının sənət əsərlərində həm millilik var, həm də ümumdünya heykəltəraşlıq məktəbinin ənənələri qorunub saxlanılır.

***– Artıq 3 ildir ki, Rəssamlıq Akademiyasına rektor təyin olunmusunuz. Bu vəzifə bir sənətkar kimi sərbəst yaradıcılığınıza sədd qoyurmu?***

– 1983-cü ildən Rəssamlıq Akademiyasında çalışıram. Akademiyada müəllimlikdən rektor vəzifəsinə qədər yüksəlmişəm. Düzünü deyim ki, ali təhsil müəssisəsinə rəhbərlik etmək çox çətin, məsul işdir. Mən heykəltəraşam, hər gün emalatxanaya gedir, öz sənətimlə məşğul oluram. Buna isə vaxt çatmır. Bu baxımdan deyərdim ki, bəli, haradasa yaradıcılığa mane olur.

***– Gənc rəssamların problemləri barədə nə deyə bilərsiniz?***

– Rəssamlıq Akademiyasının yaradılması yalnız rəssamlara deyil, bütövlükdə, Azərbaycan cəmiyyətinə böyük töhfədir. Çünki o vaxtlar Sankt-Peterburq, Moskva, Kiyev, Xarkov, Lvov, Tbilisi və Daşkənd kimi böyük şəhərlərdə rəssamlıq məktəbləri, akademiyalar fəaliyyət göstərirdi, lakin Azərbaycanda belə bir təhsil ocağı yox idi. Keçmiş Sovet İttifaqının müxtəlif şəhərlərində təhsil alırdıq. Dahi rəhbərimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 2000-ci ildə Rəssamlıq Akademiyasının yaradılması ilə ölkədə incəsənət sahəsində yeni mərhələ başladı.

Bununla yanaşı, Rəssamlar İttifaqının balansında olan emalatxanalar rəssamlara tamamilə pulsuz, şəxsi mülkiyyət kimi verildi. Bütün bu addımlar Heydər Əliyevin yaradıcı insanlara, bədii irsə və incəsənətin inkişafına göstərdiyi diqqətin bariz təzahürüdür.

Bu gün Rəssamlıq Akademiyasında gənc rəssamların öz ixtisaslarını dərindən öyrənmələri üçün hər cür şərait yaradılıb, tələbənin öz üzərində işləməsi üçün geniş imkanlar mövcuddur. Müxtəlif müsabiqələr, sərgilər təşkil edilir. Gənc rəssamları xarici ölkələrdə nümayiş olunan sərgilərə göndərir, eyni zamanda, ustad dərsləri keçmək üçün xaricdən rəssamlar da dəvət edirik. Bu da gənc rəssamların gələcək istiqamətlərini, öz yollarını tapmasında çox mühüm rol oynayır. Onlar burada akademik bazalarını möhkəmləndirir və Akademiyanı bitirdikdən sonra böyük sərgilərdə, müsabiqələrdə iştirak etməyə hazır olurlar.

***– Akademiyada verilən təhsil yeni nəsil istedadların yetişməsi üçün kifayət edirmi?***

– Əlbəttə, biz hər il təhsil proqramını yeniləyir, dəyişikliklər edirik. Beynəlxalq əməkdaşlığa gəldikdə artıq 6 dövlətlə Rektorlar Şurası yaradılıb və iki il müddətində Şuranın sədri mən olacağam. Bu müddət ərzində tələbə-müəllim mübadiləsi, müştərək sərgilərin, müsabiqələrin keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, 6 türkdilli dövlətin təsviri sənət yönümlü ali məktəbləri ilə əməkdaşlıq proqramı var.

Son illər tələbə və müəllimlərimiz müxtəlif sərgilərdə iştirak edirlər və onların arasında laureatlar da var. Müəllimlərimizin fərdi sərgiləri keçirilib. Qarabağ Dirçəliş Fondu, Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə tələbələr üçün müsabiqələr elan olunub. Bilirsiniz ki, işğaldan azad olunmuş ərazilərdə çox böyük quruculuq işləri gedir və memarlıq abidələri bərpa olunur. Müsabiqəyə təqdim olunan eskizlərdə artıq bərpa olunmuş memarlıq abidələri öz əksini tapır və sonra onların əsasında əsərlər yaranır. Müsabiqədən sonra bu əsərlər sərgidə nümayiş olunur.

***– Müasir sənət ictimai düşüncə yaratmalıdır, yoxsa öz estetik zövqə xidmət etməlidir?***

– Ümumiyyətlə, bu barədə hər kəsin öz düşüncəsi var. Mənim fikrimcə, sənətkar hansısa bir romanın, filmin, tamaşanın əsasında illüstrasiya yaratmamalıdır. Çünki dramı, şeiri yazan, filmi çəkən, musiqini bəstələyən artıq öz fikrini poeziya, musiqi vasitəsilə deyib. Rəssam da fəlsəfi fikirlərini yaratdığı əsərlə ictimaiyyətə çatdırmalıdır. Heykəl sükutda olsa belə, onun öz imkanları var və sənətkar bundan istifadə edərək fəlsəfi fikirlərini, düşüncəsini, mesajlarını həmin heykəl vasitəsilə verməlidir.

***– Sizcə, əsl sənətkar özünü nə vaxt kəşf edir?***

– Kim hansı sahədə çalışırsa, yəqin ki, bu, öz gücünü hiss etmək deməkdir. Rəssam, heykəltəraş da öz üzərində çalışdıqca, əsərlərinin keyfiyyəti artdıqca, müəyyən nailiyyətlər əldə etdikcə, artıq öz gücünə inanır və özünü kəşf edir.

***– Əgər yaşadığımız dövrü bir heykəllə ifadə etməli olsaydınız, mövzu və obraz nə olardı?***

– Çox mürəkkəb bir dövrdə yaşayırıq. Müstəqil Azərbaycan öz torpaqlarını tamamilə işğaldan azad edib, suveren dövlətdir. Bu, böyük xoşbəxtlikdir. Bu qürurlu günləri yaşamaq hər xalqa qismət olmur. Biz şanlı Zəfərimizi bir heykəllə yox, böyük bir komplekslə ifadə etməliyik. Çünki burada deyilməli, qeyd olunmalı, yaradılmalı çox mövzu var.

***– Bu il Prezident İlham Əliyevin sərəncamı ilə "Şəhərsalma və Memarlıq İli" ili elan olunub. Bu kontekstdə hansı layihələrin keçirilməsini vacib hesab edirsiniz?***

– Ümumiyyətlə, şəhəri heykəllər bəzəyir. Maraqlı, düşündürən, dekorativ heykəllər nə qədər çox olarsa, əlbəttə, şəhər bir o qədər də gözəlləşər. Siz hər hansı bir şəhəri gəzəndə diqqətinizi ilk cəlb edən nə olur? Yəqin ki, şəhərin memarlığı. Təbii ki, parkları, meydanları bəzəyən heykəllər sizdə xoş təəssürat yaradır.

Memarlıq abidələri hər bir xalqın daşlaşmış yaddaşıdır. Təəssüf ki, bu yaddaşa qarşı bəzən çox amansız davranırıq. Xalqımızın tarixini özündə yaşadan, şəhərimizin simvoluna çevrilən və maddi-mənəvi dəyəri çox böyük olan bu abidələr üzərində bəzən kimlərsə "özünü ifadə etmək üçün sənət əsəri" yaradırlar. Təkcə aidiyyəti qurumlar deyil, yaşından, mövqeyindən asılı olmayaraq hər kəs belə laqeyd davranışlara qarşı mübariz olmalıdır.

Əlbəttə, bir abidə üzərində işləyəndə çalışırsan ki, ilk növbədə, cəmiyyət tərəfindən qəbul olunsun, eyni zamanda, həmkarların da sənin işini yüksək qiymətləndirsinlər. Bilirsiniz, heykəl, abidə sərgi deyil ki, 5 gün, 10 gün, bir həftə nümayiş olunsun, sonra yığışdırılsın. Abidələr qərinələrə, əsrlərə şahidlik edir və müəllif o abidəyə görə məsuliyyət daşıyır.

***– Sizə milli rəssamlığımızın inkişafı yolunda yeni uğurlar arzulayırıq.***

*Müsahibəni apardı:*
***Mehparə ƏLİYEVA***
***XQ***

# "Türkçülük milli yaddaşı oyatmaqdır"

**Sərlövhəyə çıxardığımız bu dəyərli fikir görkəmli şərqşünas, akademik Ziya Bünyadova məxsusdur. Böyük alim dəfələrlə bildirib ki, türkçülük konseptual düşüncə sistemi olaraq türk xalqlarının milli varlığını qorumağa və inkişaf etdirməyə yönəlib.**




Qeyd etmək lazımdır ki, türkçülüyün qədim və şərəfli tarixi var. Bir müddət əvvəl AMEA-da "Birinci Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. I qurultayın 100-cü ildönümünə həsr olunan bu mühüm mərasimdə Türk dünyasının görkəmli elm və incəsənət xadimləri, siyasətçilər, media nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən Xalq şairi Sabir Rüstəmxanlı vurğulayıb ki, çağdaş türkologiyanın qarşısında duran əsas vəzifələrdən biri bütün Türk dünyasının hərtətəfli, kompleks şəkildə araşdırılmasıdır. Natiq, həmçinin birgə elmi-mədəni platformanın yaradılmasının, eləcə də rəmzi məna daşıyan ortaq kitabların hazırlanmasının əhəmiyyətini vurğulayıb.

Xoşbəxtlikdən, bu gün türk xalqlarının uzun qərinələr boyu ən ümdə hədəflərindən olan Böyük Turan ideyası reallığa çevrilir. Avrasiya məkanında eyni dildə danışan, folklor və ədəbiyyatı, adət-ənənələri bir-birinə yaxın olan xalqlar arasında birlik və həmrəylik əlaqələri güclənməkdə davam edir. Türkçülüyün böyük mücahidləri məhz bu günü arzulayırdılar!

Türk xalqlarının sürətli iqtisadi və mədəni inkişafı, təəssüf ki, bir çox böyük dövlətlərdə əsassız olaraq təlaş və qısqanclıq hissi yaradır. Əslində, narahatlığa heç bir əsas yoxdur. Türklərin hər hansısa bir xalqın torpağında və sərvətində gözü yoxdur. Qoy hamı bilsin ki, türklər ulu babalarının onlara əmanət etdikləri, Vətənə çevirdikləri torpaqlarının bir qarışını heç kimə əsla güzəştə getməzlər.

Türk xalqlarının bir-biriləri ilə siyasi, iqtisadi, mədəni əlaqələri gücləndirdikcə, ayrı-ayrılıqda bu toplumların hər biri, bütövlükdə isə hamısı birlikdə real gücə çevrilir. Gücə söykənməyən ədalət boş xülyadan başqa bir şey deyil. Bugünkü gərgin və təlatümlü dünyada özünü müdafiə edə bilməyən toplumlar isə yenilməyə məhkumdurlar. Türk ölər, amma bu həqarəti özünə heç vaxt sığışdırmaz.

**Tanınmış türkoloq, Bakı Slavyan Universitetinin professoru, filologiya elmləri doktoru, professor Şahbaz Şamıoğlu** hesab edir ki, çağdaş dünyada hansı ölkə, hankı toplum elm və texnologiyalar sahəsində irəli çıxa bilsə, təbii ki, o xalq, o millət daha böyük rifah və güvən içində yaşayıb yaradacaq. Bu gün planetimizdə azad, xoşbəxt cəmiyyət qurmaq yalnız yüksək savad, dərin biliklər kəsb etmək yolu ilə mümkündür. Məlumdur ki, elm intibahın lokomotividir. Bu danılmaz həqiqəti heç vaxt unutmaq olmaz!

Professor bu günlərdə bizimlə bu mövzuda söhbət zamanı belə bir məqamı da vurğuladı ki, türk xalqları türkçülüyün böyük mücahidi İsmayıl bəy Qaspıralının ərz etdiyi kimi, dildə, fikirdə, əməldə bir olsalar, əlbəttə, xarici təhdid və təhlükələrdən daha etibarlı surətdə qoruna bilərlər. Bəli, biz birlikdə güclüyük!

Tarix göstərir ki, zəif, soykökündən uzaq düşmüş mədəniyyətlər özündən daha güclü sivilizasiyaların artan təzyiqləri qarşısında əriyib yox olurlar. Yaxın və uzaq tarixdə buna onlarla nümunə çəkmək olar. Böyük Turanı sözdə yox, əməldə güclü görmək istəyən hər bir türk övladı, oğlu və qızı, hər bir ziyalı bu sadə və danılmaz həqiqəti bir an belə unutmamalıdır.

Şahbaz Şamıoğlu sonra dedi: "Gərəkdir ki, bu gün elm və tərəqqi yolunda zirək olaq! Zatən, başqa yolumuz da yoxdur. Hazırkı dünya gücləri vaxtilə təsbit etdikləri hüquqi və mənəvi norma və qanunlara əməl etmirlər, yoxsul və zəiflərin göz yaşlarının fərqinə isə varmırlar. Bəllidir ki, türk xalqları son 2 əsrdə imperialist sömürücü güclərin ağır basqıları ilə üzləşiblər. Tarixdən düzgün nəticə çıxarmayanlar yeni bəlalara düçar olurlar. Bu, yolverilməzdir!".

**Bakı Avrasiya Universitetinin professoru Seyfəddin Altaylı** isə dedi ki, o, türk xalqlarının gələcəyinə böyük ümidlərlə baxır. Çünki türklər qurucu və sülhsevər toplumdur. Onlar heç vaxt qatı millətçilik, şovinizm azarına mübtəla olmayıblar. Türkdilli xalqların bu gün bir-birilərinə həyan, arxa olmaları hava, su kimi vacibdir".

Professor, eyni zamanda, vurğuladı ki, çağdaş zəmanədə inkişaf və tərəqqinin yolu, ilk növbədə, elm və təhsildən keçir. Bu sahədə müdrik, düşünülmüş addımlar atılmalıdır. Əldə olunan uğurlar, qazanılan təcrübələr təqdir və təbliğ olunmalıdır.

Təsadüfi deyildir ki, möhtərəm Prezidentimiz İlham Əliyev çıxışlarının birində ölkə gənclərinə Nobel mükafatı laureatı Əziz Səncərdən nümunə götürmələrini tövsiyə edib: "Əziz Səncərlə əvvəlki görüşümü xatırlayıram, mənə dedi ki, onun hər zaman böyük arzusu var idi: Şuşaya getmək. Mənimlə görüşdən sonra Şuşaya getmişdi. Bildirmişdi ki, artıq həyatda nəyə nail olmaq istəmişəmsə, olmuşam, Şuşanı da gördüm və bizi də çox xoşbəxt etdi".

Dövlətimizin başçısı bildirib ki, gənclər üçün Əziz Səncər kimi insanlar həm alim, həm vətəndaş, həm türkçü, həm də vətənpərvər şəxs olaraq örnəkdir, nümunədir. Onlar həyatda Əziz bəyə oxşamağa çalışmalıdırlar. Qeyd edək ki, Əziz Səncər kimya sahəsində Nobel mükafatına layiq görülmüş ilk türkiyəli alimdir.

Ümid edir və inanırıq ki, ən yaxın illər ərzində Nobel mükafatına layiq görülənlərin arasında türk kökənli alimlərin sayı kəskin artacaq. Axı hər bir toplumun elmli və bilikli olması böyük səadətdir. Akademik Ziya Bünyadovun qeyd etdiyi kimi, türkçülüyə xidmət etmək vicdanlı olmaq deməkdir.

Bu il aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatının hökumət başçılarının toplantısı keçirilib. Prezident İlham Əliyev görüş iştirakçılarını qəbul edərkən demişdir: "Bütövlükdə, Azərbaycan TDT-nin inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir".

### *Ekspert rəyi*



**Qafar ÇAXMAQLI,**
**Ərciyəz Universitetinin (Türkiyə) professoru**

Turan, sadəcə, Avrasiyada yerləşən geniş coğrafi məkan deyil. Bu, qədim dövrdən başlayaraq ən yeni tarixə qədər 26 güclü dövlət və imperiyalar quran türkdilli xalqların tarixi yaddaşıdır. O, eyni zamanda, təkcə türklərin deyil, bütövlükdə, insanlıq tarixinin önəmli mədəniyyət coğrafiyasıdır.

Qədim türklərdən bu günümüzə gəlib çatanlar sabahımızı da müəyyənləşdirir. Məlumdur ki, etnonim, toponim, demoqrafiya, sosiologiya, antropologiya, folklor, bioqrafiya, numizmatika, dinlərarası münasibətlər, filologiya, epiqrafiya, coğrafiya, tarix və diplomatiya keçmişdən bu günümüzə körpü salan elm sahələridir.

Sadaladığımız bu sahələrdəki bilgilər bizim bir kökdən gəldiyimizi, necə deyərlər, bir budaqdan min budaq olduğumuzu elmi və təcrübi şəkildə nümayiş etdirir. Biz təkcə dünənlə yaşamırıq, daha çox gələcəyə baxırıq. Gələcək isə bizdən möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, "bir yumruq" kimi birləşib güclü olmağımızı tələb edir.

Bir an təsəvvür edək ki, biz bir simurq quşu olaraq, Böyük Turan üzərindən uçuruq, o zaman modern peyklərin görə bilmədiyini görəcəyik, özümüzü böyük bir doğmalıq içərisində hiss edəcəyik. Turanın hər bir guşəsində hər kəs belə bir həqiqəti çox gözəl anlayır ki, türkün ən yaxın dostu və qardaşı elə türkdür!

# "Vətən"

*(poemadan bir parça)*



Axır ki, mənim də zəfərim gəldi,
Mənim də Qələbə əsərim gəldi!
Mən onun yolunu çox gözləmişdim,
Onu oxşamışdım, əzizləmişdim,
O gəldi ordumun inam səsi tək,
Vətənin İlahi salnaməsi tək,
Dən idi, göyərib zəmiyə döndü,
Sal idi, sularda gəmiyə döndü,
Özümə qayıtdı, çevrəm, özümə,
Özümə qayıtdı, dövrəm, özümə!
Dünya nehrə kimi çalxalanmada,
Ürək Vətən-Vətən duyğulanmada,
Günəş də elə bil aşağı gəldi,
Gəldi, nurum gəldi, imanım gəldi.
Yüz illər vurnuxan gümanım gəldi,
Bu işıq Məkkədən, Qüdsdən gəldi,
Bir ulu ayədən, hədisdən gəldi,
Bir az silkələndi "Qanlı dərə"lər,
Bir az yırğalandı bu mənzərələr,
Bir az Çıraqqala havası gəldi,
Bir az Çanaqqala davası gəldi,
Ötdü Araz səddən, Araz barıdan,
Ötdü "Heyratı"dan, "Arazbarı"dan,
Bir az Savalana sığındı gəldi,
Bir az Ağrıdağa toxundu gəldi,
Təbrizi Bakıya gətirdi bir az,
Ərbili Şəkiyə gətirdi bir az,
Gətirdi Dərbəndi, Göyçəni bizə,
Bütövlük gətirdi ellərimizə,
Qaytardı dilimdən qaçan dilləri,
Qaytardı qürbətdə açan gülləri,
Bağrımın başından asıldı bu gün,
Ömrümə əbədi yazıldı bu gün!

***Ramiz QUSARÇAYLI***

# Özbəkistanda kitablar rəqəmsallaşdırılır

**Əhalisinin sayına görə yalnız Türkiyədən sonra ikinci böyük türk dövləti olan Özbəkistanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında son illər pozitiv dəyişikliklər baş verir. Bütün türk xalqları buna sevinirlər!**



Ölkə rəhbərliyi bu qədim məmləkətin çağdaş dönəmdə sürətli inkişafı və tərəqqisi üçün yüksək hədəflər müəyyən edib. Bu vəzifələri uğurla yerinə yetirmək üçün səriştəli kadrlara kəskin ehtiyac yaranıb. İndi milli ruhlu, yüksək peşəkar gənc milli kadrların hazırlanması son dərəcə vacibdir.

Özbəkistan hökuməti bu sahədə gələcəyə hesablanmış layihələr icra edir. Buna bariz nümunə kimi, ölkənin zəngin mədəni və ideoloji irsinin rəqəmsal platformaya keçirilməsi üçün nəzərdə tutulan "2030-cu il İnkişaf Strategiyası"nı göstərmək olar.

Yeri gəlmişkən, bu günlərdə Daşkənddə layihənin təqdimatı keçirilib. Toplantıda çıxış edən dövlət və hökumət rəsmiləri, tanınmış alimlər bildiriblər ki, qloballaşan dünyada cəmiyyət kənar ciddi xarici ideoloji təzyiqlərə məruz qalır. Bunun qarşısının alınması üçün milli-mənəvi dəyərləri təbliğ və təşviq edən folklor və bədii ədəbiyyat nümunələrinin geniş oxucular üçün əlçatan olması zəruridir.

Strategiyanın əsas istiqamətlərindən biri də ölkədə kitabxana xidmətlərinin modernləşdirilməsi yolu ilə klassik özbək ədəbiyyatının təbliğidir. Özbəkistanda fəal gənc oxucuların sayının 5 milyona çatdırılması əsas hədəflərdən biri kimi irəli sürülüb. Bu istiqamətdə ciddi işlər görülür. Tezliklə vətəndaşlar dövlət kitabxana fondlarındakı milyonlarla kitablardan onlayn şəkildə oxuyub bəhrələnə biləcəklər.

Xatırladaq ki, Strategiya, ilk növbədə, "Özbək ədəbiyyatı xəzinələri" çoxcildlik antologiyasının və "Dünya uşaq ədəbiyyatının şah əsərləri" toplusunun elektron variantının hazırlanmasını nəzərdə tutur. Sonrakı mərhələdə digər elmi, bədii, kütləvi ədəbiyyat rəqəmsallaşdırılacaq.

# Qazax qəzetləri uzaq kəndlərə də çatdırılır

**Qazaxıstanda kənd yerlərində əhaliyə qəzetlər poçt vasitəsilə çatdırılır. Son illər isə ölkədə poçtlara kifayət qədər maliyyə ayrılmaması ölkə ziyalılarını narahat edir.**



"Kazpravda.kz" saytının verdiyi məlumata görə, bir müddət əvvəl millət vəkili Əlibəy Nautiyev Qazaxıstan Senatının plenar iclasında diqqəti bu məsələyə yönəldib. Senator qeyd edib ki, maliyyə qıtlığı ölkədəki bir çox poçt filiallarının bağlanmasına gətirib çıxara bilər. Bu, öz növbəsində, ciddi ideoloji risklərə səbəb olacaq. Ə.Nauitiyevin sözlərinə görə, mövcud qanunlara uyğun olaraq, "Kazpoçt" ASC kənd yerlərinə dövri nəşrlərin çatdırılmasını təmin etməyə borcludur.

Senator həm də ona görə narahatdır ki, "poçt marşrutlarının azaldılması və poçt şöbələrinin bağlanması ucqar ərazilərin "informasiya təcridi"nə səbəb ola bilər.

Xatırladaq ki, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev hökumətin 2025-ci il 28 yanvarda keçirilən geniş iclasında ən ucqar yaşayış məntəqələri də daxil olmaqla, poçt şöbələrinin fasiləsiz işləməsini müvafiq qurumların rəhbərlərindən tələb edib.

# Qırğızıstan Dünya Köçəri Oyunlarına hazırlaşır

**Dünya Köçəri Oyunları beynəlxalq etnik idman yarışlarıdır. Köçəri xalqların ənənəvi idman növlərini və mədəniyyətini nümayiş etdirən beynəlxalq yarış və festivaldır.**

VI Ümumdünya Köçəri Oyunları 2026-cı il avqustun 31-dən sentyabrın 6-dək Qırğızıstanda keçiriləcək. Təşkilat komitəsinin məlumatına görə, açılış mərasimi Bişkekdə olacaq. Oyunların özü və bağlanış mərasimi Çolpon-Ata şəhərində (İssık-Kul bölgəsi) keçiriləcək.

Ümumdünya Köçəri Oyunlarına 100 ölkədən qonaqların qatılacağı gözlənilir. 56 ölkədən 500-dən çox xarici jurnalistin gələcəyi gözlənilir. Təxminən 40-dan çox ənənəvi idman növü üzrə yarışlar keçiriləcək. Ən məşhur yarış növləri at üstündə oyun, oxatma, müxtəlif milli güləş növləridir.

Məlumat üçün bildirək ki, Birinci Dünya Köçəri Oyunları 2014-cü ildə məhz Qırğızıstanda keçirilib. Azərbaycan da bu oyunlarda fəal iştirak edən ölkələr sırasındadır.




***Səhifəni hazırladı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Yaxın Şərqdə düyün "boğaz"a dirənib

*Dünyanın 40 ölkəsi İranı Hörmüz ətrafında yaranacaq siyasi böhrandan çəkindirməyə çalışır*



**Yaxın Şərqdə Vaşinqton/Tel-Əviv – Tehran toqquşmaları fonunda yaranan eskalasiya qlobal neft tranzitinin şah damarı sayılan Hörmüz boğazı ətrafında ciddi təhlükə yaradıb. Qlobal bazarlara çıxarılan xam neftin və neft məhsullarının, təqribən, 20 faizinin, yəni gündəlik 21 milyon barrel həcminin məhz bu dar su dəhlizindən keçməsi fonunda boğazın bağlanması təhlükəsi qlobal iqtisadiyyatı ciddi narahat edir. Böhranın idarə olunması məqsədilə qlobal güclər hərbi-diplomatik rıçaqları işə salıb.**

Böyük Britaniyanın təşəbbüsü ilə 40 ölkənin hərbi ekspertlərinin cəlb olunduğu London yaxınlığındakı Nortvud hərbi bazasında xarici işlər naziri İvett Kuperin sədrliyi ilə koordinasiya edilən sayca 2-ci görüş Avropanın prosesdə iştirak niyyətinin ciddiliyini göstərir. Tədbirin gündəliyi Hörmüz boğazında son hərbi əməliyyatların səngiməsindən sonrakı dövrdə gəmiçiliyin mühafizəsi üzrə qabaqlayıcı tədbirlərin, yəni daimi patrul mexanizmlərinin müəyyənləşdirilməsi idi. Ölkənin baş naziri Kir Starmer məhz bu amili vurğulayaraq istənilən əməliyyatın yalnız döyüşlər dayandırıldıqdan sonra başlaya biləcəyini qeyd edib.

Onu da deyək ki, toplantı iştirakçıları ötən ay İrana qarşı sərt tələblərlə çıxış edən dövlətlərin koalisiyasını təmsil edir. Söhbət martın 19-da Tehranın kommersiya gəmilərinə qarşı təhdidləri, minalama əməliyyatlarını, kamikadze dron və ballistik raket zərbələrini, habelə boğazın hərəkət üçün bağlanması yönündəki cəhdlərini dərhal dayandırmağa çağıran müştərək bəyanatdan gedir. Aprelin 2-də baş tutan ilk görüşün yekununda Britaniya XİN-in Hörmüz boğazının qapadılması halında İrana qarşı sanksiya tələbi irəli sürmüşdü. Bu isə beynəlxalq aktorların gərginliyin azaldılmasından daha çox, məhz boğazın təhlükəsizliyi məsələsinə üstünlük verdiyini deməyə əsas verir. Hazırkı vəziyyət dünya iqtisadiyyatı üçün sarsıdıcı itkilər vəd edən mərhələyə qədəm qoyur. Müxtəlif beynəlxalq qurumlar hadisələrin bu istiqamətdə inkişafının yarada biləcəyi fəsadlarla bağlı həyəcan təbili çalırlar. Məsələn, Beynəlxalq Enerji Agentliyinin (BEA) rəhbəri Fatih Birol bildirib ki, dünya heç vaxt enerji təchizatında bu qədər böyük fasilə ilə qarşılaşmayıb. Onun sözlərinə görə, Hörmüz boğazının blokadası ilə yaranan hazırkı neft və qaz böhranı 1973, 1979 və 2002-ci illərdəki böhranlardan daha ciddidir. Bu baxımdan qarşıda dünyanı gözləyən iqtisadi böhrandan həll yolu üçün ölkələrin istənilən sanksiya və təzyiq yoluna əl atacaqları istisna edilmir.

***

Şübhəsiz ki, imzalanan sənədin arxasında dayanan dövlətlərin siyahısı beynəlxalq narahatlığın miqyasını əks etdirir. İlkin mərhələdə Böyük Britaniya, İtaliya, Niderland, Fransa, Almaniya və Yaponiya liderlərinin iştirak etdiyi koalisiyaya sonradan Avstraliya, Bəhreyn, Dominikan Respublikası, Kanada, Yeni Zelandiya, Panama, Trinidad və Tobaqo, BƏƏ və Cənubi Koreya kimi 30-dan çox ölkə qoşulub. Bu da öz növbəsində qlobal təchizat zəncirindən asılı olan fərqli qütblərin ortaq maraq ətrafında birləşdiyini göstərir. Xüsusilə Yaponiya və Cənubi Koreya kimi ölkələrin prosesə cəlbi təbii haldır, çünki bu dövlətlərin enerji ehtiyacının 70 faizindən çoxu məhz Körfəz regionunun payına düşür. Digər tərəfdən, Bəhreynin ABŞ-ın Beşinci Donanmasına ev sahibliyi etməsi, BƏƏ-nin isə qlobal dəniz logistikasının mərkəzlərindən biri olması bu dövlətlərin də koalisiyada yer almasını zərurətə çevirir.

Əlbəttə, ortaq diplomatik mövqeyə rəğmən, qlobal hərbi dəniz koalisiyasının qurulması göründüyü qədər asan proses deyil. Zaman amili, maliyyə resursları və iqtisadi baxımdan "Pirr qələbəsi" riski bu prosesi ləngidən əsas faktorlardır. Məsələn, ABŞ-ın "Avenger" sinfindən olan gəmilərin və ya Böyük Britaniyanın "Hunt" qəbiləsindən minaaxtaranlarının maksimum sürəti cəmi 13-15 dəniz milidir. Bu isə o deməkdir ki, onlar sürətli raket zərbələri və ya dron hücumları qarşısında müdafiəsizdir. Digər tərəfdən, İranın dəniz arsenalında yer alan "Mahnish" və ya "Yem-1" tipli kontakt minalarının bir ədədinin qiyməti cəmi bir neçə min dollar olduğu halda, onları aşkar edib zərərsizləşdirməli olan ixtisaslaşmış gəmilərin qiyməti 100-150 milyon dollar, onları qorumalı olan "Arleigh Burke" sinfi esmineslərin dəyəri isə 2 milyard dolları keçir.

Üstəlik, yaradılacaq bu yeni qruplaşmanın Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) rəsmi missiyası çərçivəsində fəaliyyət göstərməyəcəyi xüsusi vurğulanmalıdır. NATO etiketindən imtina həm Rusiya və Çin kimi qlobal rəqibləri qıcıqlandırmamağa xidmət edir, həm də alyansa üzv olmayan Körfəz ölkələrinin, eləcə də Cənubi Amerika və Karib hövzəsi dövlətlərinin qlobal iqtisadiyyatın xilası naminə prosesə daha neytral və rahat inteqrasiyasına şərait yaradır.

Hadisələrin gedişatı maraqlı məqamlar vəd edir. Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp ötən gün axşamadək İrana Hörmüz boğazını tam açmadığı təqdirdə, ölkənin enerji infrastrukturuna ciddi zərbələr endiriləcəyi və onları "daş dövrünə qaytaracağı" ilə bağlı xəbərdarlıq etmişdi. İran İnqilab Keşikçiləri Korpusu isə cavab olaraq hücumların miqyasını regiondan kənara çıxarmağa hazır olduğunu bəyan edib. Hadisələrin axarı münaqişənin təsir dairəsinin getdikcə genişləndiyini deməyə əsas verir. Gərginliyin davam etməsi isə yaxın zamanlarda dünya bazarlarında ciddi mənfi təsirlərə səbəb ola bilər.

***Tacir SADIQOV***
***XQ***

## Ekspert rəyi



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Hörmüz boğazı ilə bağlı 40 ölkənin hərbi nümayəndələrinin görüşü özündə qlobal səviyyədə dəniz təhlükəsizliyi və gəmiçiliyin qorunması baxımından mühüm mesajlar daşıyır. Görüşün strateji əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. Şübhəsiz ki, ən əsas mesaj İranadır. Hörmüz boğazı dünyanın ən kritik ticarət və enerji keçidlərindən biri olduğu üçün burada gərginlik qlobal bazarlara birbaşa təsir edir. Bu səbəbdən Qərb ölkələri beynəlxalq koalisiyanı gücləndirərək və müşahidə sistemləri quraraq, regional aktorlara, xüsusilə İrana xəbərdarlıq edir ki, boğazın bağlanması yalnız lokal təsirlərlə məhdudlaşmayacaq, geniş beynəlxalq reaksiya ilə üzləşəcək. Bu, həm siyasi, həm diplomatik, həm də hərbi baxımdan İran üçün çəkindirici amil rolunu oynaya bilər.

Bundan əlavə, görüşün iştirakçıları arasında 40 ölkədən hərbi nümayəndənin olması regionda çoxölçülü əməkdaşlıq imkanlarını ortaya çıxarır. Bu, hərbi və dəniz təhlükəsizliyi üzrə məlumat mübadiləsi, risklərin qiymətləndirməsi və əməliyyat koordinasiyası üçün geniş platforma yaradır. Beynəlxalq Dəniz Təşkilatı və digər institutlarla koordinasiyanın gücləndirilməsi, hüquqi və normativ çərçivədə regional stabilliyin qorunmasına xidmət edir. Bu, həmçinin gəmilərin təhlükəsiz hərəkətinin təmin edilməsi üçün beynəlxalq nəzarətin artırılması baxımından vacibdir.

Əlbəttə, real nəticələr birbaşa və dərhal əməliyyatlara çevrilməyə bilər. Görüş əsasən koordinasiya, təcrübə mübadiləsi və qarşılıqlı anlaşmanın təmin olunması platforması rolunu oynayır. Bununla belə, konkret addımlar da gözlənilir, məsələn, risklərin qiymətləndirilməsi üçün birgə prosedurların hazırlanması, gəmiçilərin təhlükəsizliyinin artırılması üçün standart əməliyyat qaydalarının müəyyənləşdirilməsi və hər hansı insidentin qarşısını almaq üçün xəbərdarlıq mexanizmlərinin qurulması.

Bu təşəbbüs Qərb ölkələrinin strateji mövqeyini nümayiş etdirmək baxımından da önəmlidir. Beynəlxalq koalisiya, birlik nümayiş etdirərək və açıq koordinasiya mexanizmləri quraraq regionda tərəfsiz və dayanıqlı təhlükəsizlik mühitinin formalaşdırılmasına çalışır. Bu isə regional aktorlar üçün həm siyasi, həm də psixoloji çəkindirici effekt yaradır.

**Yaxın Şərqdə artan hərbi-siyasi gərginlik beynəlxalq medianın ana mövzusu olaraq qalmaqdadır. ABŞ, İsrail və İran arasında artan qarşıdurma fonunda həm diplomatik təmaslar, həm də hərbi əməliyyatlar paralel şəkildə intensivləşir. Eyni zamanda, müxtəlif ölkələrin siyasi liderləri və beynəlxalq aktorlar münaqişənin genişlənməsi riskinə dair fərqli mövqelər ortaya qoyurlar. Belə mürəkkəb mənzərə fonunda yayılan xəbərlər regionda yeni eskalasiya mərhələsinin başlaya biləcəyinə işarə edir.**

# Qlobal təhlükəsizlik sistemi sınağa çəkilir



**"Politico":** ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vens İran nümayəndələri ilə mümkün birbaşa danışıqlarda iştirak edə bilər. Nəşrin məlumatına görə, Vens ehtiyatda qalır və pərdəarxası təmaslar İran rəhbərliyinin nümayəndələri ilə təkbətək görüşlə nəticələnsə, Tehranla həssas danışıqlara başlamağa hazırdır. Qeyd olunur ki, ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff və Cared Kuşner hazırkı mərhələdə Tehranla təmaslarda iştirak edirlər. Əgər əhəmiyyətli irəliləyiş əldə olunsa, Vens də danışıqlara qoşula bilər.

**"Axios":** ABŞ Nümayəndələr Palatasının Demokratlar Partiyasından olan üzvü Yasəmin Ansari müdafiə naziri Pit Heqsetə qarşı impiçment maddəsi tətbiq etmək niyyətində olduğunu açıqlayıb. Mənbənin məlumatına görə, təşəbbüs Heqsetin İranda ABŞ hərbi əməliyyatlarına rəhbərlik etməkdə iştirakı ilə əlaqəli ola bilər. Nəşr ictimai rəy sorğularına istinadən, onun ABŞ hökumətinin ən az populyar üzvlərindən biri olduğunu və Yaxın Şərqdəki münaqişənin artan xərclərinin nazirin imicinə mənfi təsir göstərdiyini qeyd edib.

**"Radio New Zealand":** Yeni Zelandiyanın Baş naziri Kristofer Lakson ABŞ Prezidenti Donald Trampın İranın mülki infrastrukturuna zərbələr endirmək hədələrinin faydasız olduğunu bəyan edib. Onun sözlərinə görə, münaqişənin daha da kəskinləşməsinin qarşısının alınması prioritet olaraq qalmalıdır: "Ötən həftəsonu biz ABŞ prezidentinin hədələri barədə xəbər tutduq. Bu addımlardan hər hansı biri, o cümlədən körpülərin, su anbarlarının və mülki infrastrukturun bombalanması da qəbuledilməz olardı".

**"Israel Defence Forces":** İsrail Müdafiə Qüvvələri (IDF) İranın Şiraz şəhərində azot turşusunun istehsal olunduğu neft-kimya obyektinə zərbə endirib. İsrail ordusunun bəyanatında qeyd olunur ki, obyektdə partlayıcı maddələrin və raket sənayesi üçün digər materialların istehsalında istifadə edilən azot turşusu istehsal olunurdu. Məlumata görə, əməliyyat çərçivəsində İran ərazisində İsrailə qarşı hücumların həyata keçirilməsi üçün istifadə olunan digər ballistik raket obyektlərinə də zərbələr endirilib.

**"Mehr":** ABŞ və İsrail İranın İsfahan əyalətinin Kaşan şəhərindəki Yəhya Abad dəmir yolu körpüsünə zərbələr endirib. Bildirilib ki, bu hücum nəticəsində iki nəfər ölüb, üç nəfər isə yaralanıb.

**"Al Jazeera":** SEPAH Səudiyyə Ərəbistanının Cübail regionundakı neft-kimya obyektlərinə zərbələr endirmək üçün raketlər və pilotsuz uçuş aparatlarından istifadə edib. İran tərəfinin məlumatına görə, hücumlar İsrailin Şirazdakı neft-kimya kompleksinə endirdiyi əvvəlki zərbələrə cavab olub. SEPAH bəyan edib ki, "Sadra", "ExxonMobil" və "Dark Chemical" da daxil olmaqla, ABŞ şirkətləri ilə əlaqəli obyektlər də hədəf olub. Bundan əlavə, korpusun iddiasına görə, ABŞ şirkəti "Shourdan Phillips"ə məxsus Əl-Xuvaymədəki neft-kimya kompleksinə zərbələr endirilib.

**"Fox News":** ABŞ-ın Xarq adasına hücumlarının hədəfi hərbi obyektlər olub. Məlumata görə, ABŞ ötən gecə ərzində adadakı onlarla hərbi hədəfi vurub. ABŞ-ın adaya hücum üçün quru qoşunlarını cəlb etməsi barədə məlumat təsdiqlənməyib.

**"Times of Israel":** İsrail Müdafiə Qüvvələri (IDF) İranın 130-dan çox Hava Hücumundan Müdafiə (HHM) sistemini məhv etdiyini bilidirib. Qeyd olunub ki, bu cür əməliyyatlar təhdidlərin azaldılmasına və regionun təhlükəsizliyinin təmin edilməsinə yönəlib.

**"CNN":** İsrail ABŞ-ın diplomatik danışıqlarının uğursuzluqla nəticələnəcəyi təqdirdə, İrandakı enerji və infrastruktur obyektləri arasından yenilənmiş hədəflər siyahısını təsdiqləyib. Bildirilib ki, İsrail Donald Trampın sonrakı addımlar barədə qərarını gözləyir: "Lakin ABŞ tərəfindən təsdiqlənməsi şərti ilə yaxın həftələr üçün əlavə planlarımız var".

**"Reuters":** "Hörmüz boğazında gəmiçiliyin bərpası ABŞ-nin əsas prioritetlərindən biridir". Bu barədə ABŞ Prezidenti Donald Tramp Ağ evdə jurnalistlər qarşısında çıxışında bildirib. "Mən deyərdim ki, bu, çox böyük prioritetdir, çünki bu, bir qədər fərqlidir – biz onları istədiyimiz kimi bombalaya, sarsıdıcı zərbə endirə bilərik. Amma boğazı bağlamaq üçün bir terrorçu kifayətdir – çünki dəniz minalarını böyük yük maşınlarında daşımaq mümkündür – onu suya atır və indi milyard dollar dəyərində gəmi sahiblərini minalar barədə narahat olmamağa inandırmağa çalış...".

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan boyaların satın alınması məqsədilə*

**AÇIQ TENDER ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il aprelin 21-i saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*
**Ünvan:** *Bakı, Mikayıl Useynov küçəsi 2.*

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan qaynaq çubuqlarının satın alınması məqsədilə*

**AÇIQ TENDER ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il aprelin 22-si saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*
**Ünvan:** *Bakı, Mikayıl Useynov küçəsi 2.*

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan diyircəkli yastıqların satın alınması məqsədilə*

**AÇIQ TENDER ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il aprelin 23-ü saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*
**Ünvan:** *Bakı, Mikayıl Useynov küçəsi 2.*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 58 (31027) 8 aprel 2026-cı il, çərşənbə

## İDMAN

### Misli Premyer Liqasında XXVI tur

**Dünən Misli Premyer Liqasının XXVI turunda 3 oyun keçirilib. "Turan Tovuz" səfərdə "İmişli" ilə qarşılaşıb. Quba Olimpiya İdman Kompleksinin stadionunda baş tutan qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb.**



Oyunun 45-ci dəqiqəsində Dioqo Kardozu imişlililəri hesabda önə çıxarıb. Mark Rene Mampassinin 53-cü dəqiqədə vurduğu qol hesaba tarazlıq gətirib–1:1.

Turun digər oyunlarında "Zirə" - "Şamaxı"–1:1, "Araz-Naxçıvan" - "Sabah" 2:4 hesabı qeydə alınıb.

XXVI turdan sonra turnir cədvəlinə 65 xalla "Sabah" başçılıq edir. "Qarabağ" 55 xalla ikinci, "Turan Tovuz" isə 49 xalla 3-cü sırada yer alıb. Sonuncu yerlərdə isə – "Qəbələ" 19 xalla 11-ci, "Karvan-Yevlax" 8 xalla 12-ci mövqedə qərarlaşıb.

Qeyd edək ki, daha əvvəl "Qəbələ" "Kəpəz"i (2:0), "Neftçi" "Sumqayıt"ı (3:1), "Qarabağ" "Karvan-Yevlax"ı (7:0) məğlub edib.

### Böyük İpək yolu turnirinin qalibi

**Bakıda kişi və qadın boksçular arasında ənənəvi Böyük İpək Yolu beynəlxalq turnirinin qalibləri müəyyənləşib. 6 gün davam edən yarışda 10 ölkənin 126 idmançısı qüvvəsini sınayıb.**



Boks Mərkəzində təşkil olunan turnir Azərbaycan millisi üçün uğurlu alınıb. Bu gün baş tutan final mərhələsində Sübhan Mamedov (50 kq), Amin Məmmədzadə, Tayfur Əliyev (60 kq), Malik Həsənov (65 kq), Surət Qarayev (90 kq) və Məhəmməd Abdullayev (+90 kq) rinqi qələbə ilə başa vurublar.

Digər boksçularımızdan Seyid Seyidov (80 kq) gümüş, Zidan Hünbətov (55 kq), Məhəmmədəli Qasımzadə (60 kq), Sərxan Əliyev (70 kq), Səidcəmşid Cəfərov, Rasim Çobanlı (hər ikisi 75 kq), Həsən Osmanlı (80 kq), Murad Allahverdiyev (85 kq), Səbuhi Əlizadə (+90 kq), Günel Rəhimova (51 kq) və Emili Rzayeva (65 kq) bürünc medal qazanıblar.

Millimiz 21 – 6 qızıl, 5 gümüş və 10 bürünc medalla komanda hesabında birinci yeri tutub və Böyük İpək Yolu kubokuna yiyələnib. İkinci yerdə Qazaxıstan (3-5-7) qərarlaşıb, "üçlüy"ü Türkiyə (3-0-3) qapayıb.

### Daşkəsəndə cüdo salonu

**Daşkəsəndə yeni cüdo zalı fəaliyyətə başlayıb. Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, bu münasibətlə keçirilən açılış mərasimində Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini, Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri Namiq Süleymanov, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin nümayəndəsi Cavad Cavadov, Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi Elşən Hüseynov, Daşkəsən rayonu üzrə Təhsil Sektorunun müdiri vəzifəsini icra edən Ayxan Fərəcli, Azərbaycan Cüdo Federasiyası prezidentinin müşaviri Natiq Bağırov və digər rəsmilər iştirak ediblər.**



Azərbaycan Cüdo Federasiyası tərəfindən zal müasir standartlara uyğun tatami və məşq prosesi üçün zəruri olan digər avadanlıqlarla təchiz edilib. Burada 100-dən çox idmançının cüdo ilə məşğul olması üçün şərait yaradılıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

## *Dünəndən gələn sorağımız*

# "Odlar yurdu"nun əbədi məşəli - Atəşgah



**Bu gün ölkəmizdə mühafizə edilən tarixi abidələrdən biri də "Atəşgah" kompleksidir. Suraxanı rayonunda yerləşən, müxtəlif dövrlərdə zərdüştilər, hinduistlər və siqhlər tərəfindən ibadətgah kimi istifadə edilmiş məbəd "Alov evi" və ya "Alov yeri" anlamını verir. Qədim əsrlərdən bəri Azərbaycanda yanan təbii əbədi odlar insanların dini etiqadlarına güclü təsir göstərmiş və oda sitayiş etmək inancı yaratmışdır.**

XVII əsrdə məbədin ətrafında bir-birinin yanında ibadətxana, 26 hücrə və karvansara inşa edilmişdir. Vaxtilə hücrələrdə müxtəlif dini ayinlərin icra olunması və oda sitayiş edən kahinlərin fəaliyyəti üçün lazımi şərait də olmuşdur. Məbədə gələn zəvvarlar karvansarada istirahət imkanı da əldə etmişlər.

"Atəşgah"ın taleyində Azərbaycan xalqının çoxəsrli, hadisələrlə zəngin tarixinin böyük mərhələləri bir-birinə qovuşmuşdur. Abidənin tarixi kökləri çox qədimlərə, Azərbaycan dövlətçiliyinin yarandığı və ölkədə hakim dinin yaranma tarixi eramızdan əvvəl X–IX əsrlərə aid olan zərdüştlük olduğu dövrlərə aparır. Belə ki, dünyada ən qədim dinlərdən biri olan zərdüştlük məhz Azərbaycan ərazisində yaranmışdır. Abşeron yarımadası isə, xüsusən neft və qaz yataqları ilə zəngin olan Suraxanı zərdüştilərin təxminən bizim eranın II–III əsrlərində özlərinə məbəd tikdirmələri üçün ən münasib yer olmuşdur, məbəd isə "Atəşgah", yəni "od yeri", "od səcdəgahı" adlandırılmışdır.

Tarixi mənbələrə istinadən qeyd edə bilərik ki, XVIII əsrdə Bakıya Hindistanın Multan vilayətindən həm ticarət, həm də əbədi odu sitayiş etmək üçün gələn hindli tacirlər Atəşgah məbədini bərpa edərkən burada hind məbədlərinə məxsus elementləri inşa ediblər.

Bakı şəhərinin tarixini işıqlandıran Qərbi Avropa səyyahları arasında 1683-cü ildə burada olmuş alman səyyahı Engelbert Kempferin qeydləri mühüm əhəmiyyət kəsb edir. Belə ki, E.Kempfer Suraxanı ərazisində yerləşən "Atəşgah məbədi"ndə də qonaq olub. Səyyah burada gördüklərini ətraflı və dəqiq qələmə alaraq yazmışdır: "Biz burada onlara adamın olduğunu gördük. Kimsə yanan alovdan ocaq düzəldib, mis qazanlarda Suraxanı camaatı üçün xörək bişirir, digərləri isə ahəng yandırmaqla məşğul olurdu. İki nəfər qədim pars tayfasından olan kəs və gəlmə hind atəşpərəstlərindən olan adamlar tikdikləri hasar ətrafında oturaraq qaya çatlarından havaya yüksələn alova səcdə edərək ibadət edirdilər".

Fransız səyyahı Orsol 1883-cü ildə burada olandan sonra gündəliyində qeyd etmişdir ki, məbəddə 30-a qədər müxtəlif həcmli otaqlar var. Daha sonra bildirmişdir ki, 1864-cü ildə axırıncı kahin öldürüldükdən sonra, bir neçə il keçmiş Bombeydən buraya başqa bir kahin göndərilsə də, o, burada çox qalmır və 1880-ci ildə Hindistana qayıdır.

XIX əsrin əvvəllərindən başlayaraq "Atəşgah məbədi" dünyanın bir çox rəssamlarının da diqqətini özünə çəkmişdir. Onların əsərləri məşhur muzeylərdə və kitabxanaların arxivlərində qorunur. Onlardan biri fransız rəssamı Jean-Pierre Moynet olmuşdur. O, 1858-ci ildə Aleksandr Düma ilə birlikdə Rusiya və Qafqaza səyahət etmişdir. Azərbaycanda səfərdə olarkən "Atəşgah məbədi"ndə də olmuş 1860-cı ildə "Bakı atəşgahında gebrlərin ibadəti" adlı rəsm çəkmişdir.

Digər bir əsər isə alman rəssamı Villem Kizevetterin yağlı boya ilə çəkilmiş "Suraxanı atəşgahı" əsəridir. Bu əsər Almaniyanın Berlin şəhərində yerləşən Avropa Mədəniyyətləri Muzeyində sərgilənir.

"Qafqaz səfəri" əsərində Aleksandr Düma "Atəşgah" barədə yazıb: "Nahar qurtaran kimi qapıda hazır dayanan faytonlara minib məşhur Atəşgaha getdik. Bakı Atəşgahı, az səyahət edən fransızlar istisna olmaqla, bütün aləmə bəllidir. ...Biz tamamilə alova bürünmüş qapıdan həyətə girdik. Böyük dördkünc həyətin ortasında günbəzli səcdəgah ucalır. Səcdəgahın tən ortasında əbədi alov şölələnir".

Rus kimyaçısı Dmitri Mendeleyev rus taciri Konerevin 1855-ci ildə "Atəşgah"ın arxasında tikdirdiyi kerosin zavodunda işləyib. O, həyat yoldaşına məktubunda "Atəşgah"ın çox maraqlı məbəd olduğunu yazıb. Bildirib ki, mən indiyəcən belə məbəd görməmişəm.

1855-ci ildə "Atəşgah" yaxınlığında zavod tikildikdən sonra məbədin təbii alovları tədricən zəifləyib. Alovları zəifləmiş məbədi 1887-ci ildə Rusiya imperatoru III Aleksandr ziyarət edib. 1902-ci il yanvarın 6-da Bakı atəşgahının sonuncu təbii alovu sönüb.

1925-ci ildən sonra məbəd zərdüştilər tərəfindən tərk edilib. Bu vəziyyət əlli il davam edib və məbəd baxımsız qalıb. İndira Qandinin baş nazir olduğu dövrlərdə Hindistanla SSRİ arasında əlaqələr güclənmiş, dostluq münasibətləri möhkəmlənmişdi. Hindistanın baş naziri İndira Qandi SSRİ-yə rəsmi səfəri zamanı "Atəşgah məbədi"ni ziyarət etmək istəyini bildirir. Beləliklə də İndira Qandinin Bakıdakı tarixi məkana ziyarəti təşkil olunur. Bu məbədin baxımsız vəziyyətdə olduğu müşahidə edildikdən sonra ətraflı yenidənqurma işlərinə ehtiyac olduğuna qərar verilir. 1975-ci ildə aparılan yenidənqurma işlərindən sonra "Atəşgah məbədi" yenidən ziyarətçilər üçün açılır.

1998-ci ildə isə "Atəşgah məbədi" UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmaq üçün namizəd siyahısına daxil edilib. 2024-cü ilin "Atəşgah məbədi" abidəsinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi üçün işlərə başlanılıb.

Prezident İlham Əliyevin 19 dekabr 2007-ci il tarixli sərəncamına əsasən kompleks ətrafında açıq səma altında muzey yaradılmış, kompleks Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmişdir. Qoruq kimi fəaliyyətə başladıqdan sonra bir çox beynəlxalq və dövlət səviyyəli rəsmi tədbirlərə ev sahibliyi etmişdir. Onlardan biri də 2015-ci il aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində Birinci Avropa Oyunlarının məşəlinin məhz Bakıda - "Atəşgah məbədi"ndə alovlandırılması olmuşdur. Ölkəmizin müstəqillik tarixində keçirilən bu mötəbər tədbir – Birinci Avropa Oyunları beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzində idi. Olimpiya ənənəsinə uyğun olaraq, tədbirin başlanğıcı qədim od məbədi olan "Atəşgah məbədi" Dövlət-Tarix Memarlıq Qoruğundan götürülüb.



**Turizm üzrə ekspert Rəhman Quliyevin** fikrincə, "Azərbaycana gələn turistlər, xüsusən də tarixi yerlərə çox üstünlük verirlər. Təbii ki, bu da ölkə əhalisinin yanaşmasından çox şey asılıdır. Çünki burada, xüsusilə Yaponiya, Koreya və Avropadan gələn turistlər tarixi yerləri çox sevirlər. Xüsusilə Atəşgah məbədinə Hindistandan gələn turistlər daha çox maraq göstərirlər. Ümumi olaraq dünya təcrübəsinə nəzər salsaq, görərik ki, belə tarixi abidələrin, UNESCO-nun Mədəni İrs Siyahısına düşən abidələrin ziyarəti daha çoxdur. Təbii ki, bu gün UNESCO-nun Mədəni İrs Siyahısına daxil olmasa da, cənab Prezidentin sərəncamı ilə bu dövlət qoruğu elan olunması, bir növ yerli turistlərin də böyük marağına səbəb olacaq.

Burada, təbii ki, başqa nüanslar da var. Turistləri oraya cəlb olunması üçün yerli turizm şirkətləri daha fəal olmalıdır, proqramlara xüsusi olaraq buranın salınması lazımdır. Çünki bu, Azərbaycanın tarixini, qədim xalq olduğunu əks etdirən əyani bir vasitədir. Hesab edirəm ki, tək bu deyil, Azərbaycanın hər bir guşəsi, hətta işğaldan azad olunmuş ərazilərimizdə – Füzulidə Azıx mağarası, Zəngilanda türbələr, Kəlbəcərdə, Laçında türbələr, tarixi memarlıq abidələri, eyni zamanda, Şuşada, Xankəndidə qədim Azərbaycan xalqına aid olan məzarlıqlar, qədim türbələr belə Azərbaycanın çox qədim xalq olduğunu, min illərlə bu ölkədə, bu ərazilərdə yaşamasını sübut edən əyani vasitədir. Hesab edirəm ki, biz bu tarixi ənənələrimizi qorumaq üçün və bütün dünyaya qədim xalq olduğumuzu nümayiş etdirmək üçün belə məbədləri, dini ziyarət yerlərini, tarixi abidələri qoruyub saxlamalıyıq. Xaricdən Azərbaycana turist gətirmək üçün xaricdə Azərbaycanın reklam çarxlarında belə abidələrin də həmin videoçarxlarda xüsusi bir yer tutmasını mən zəruri hesab edirəm. Təbii ki, bu tək "Atəşgah məbədi"nə aid deyil, bütün belə bu kimi tarixi abidələrimizi əbədi saxlayıb gələcək nəsillərə ötürmək və bir güzgü olaraq xarici vətəndaşların, xarici turistlərin nəzərinə çatdırmaq daha məqsədəuyğun olar".

"Atəşgah" unikal və milli-maddi sərvət kimi bu gün də qədim din olan zərdüştiliyin ardıcıllarıı haqqında ən müfəssəl məlumat verən, bütün yer üzündəki iki nadir atəşgahdan birincisi olaraq qalmaqdadır. Dünyanın ən qədim dinlərindən biri – zərdüştilik dininin məbədi olan "Atəşgah" dünya mədəni irsində özünəməxsus yerə malikdir. Bu məbəd Azərbaycanda xüsusi diqqətlə qorunaraq ziyarətə gələn qonaqlara ölkəmizin tarixi mədəniyyəti haqqında məlumat verilməklə gələcək nəsillərə ötürülür.

*Müşfiq MİRZƏ*
*XQ*

## HAVA

# Bakıda yağmursuz, rayonlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buluddlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 10-12, gündüz 15-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 758 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-80, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 9-12, gündüz 18-23, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

*✓ 2020-ci il noyabrın 30-da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi tərəfindən Ələkbərov Anar Rəsul oğlunun adına verilmiş MN seriyalı, 0059553 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Birinci vitse-prezidentinin katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3070
SİFARİŞ 460
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00